28 dekabr 2018-ci il
№49 (8815)

www.muallim.edu.az
muallim@edu.gov.az

# AZƏRBAYCAN MÜƏLLİMİ

*Təhsil millətin gələcəyidir!*
*Heydər Əliyev*

Azərbaycan Respublikası Təhsil Nazirliyinin orqanı

## Bu sayımızda

**Yeni yaşayış komplekslərində məktəb binaları istifadəyə verilib** ⇨səh.2

**Harvardın azərbaycanlı professoru daha bir uğura imza atdı** ⇨səh.5

**Kooperativ məktəb-formal kooperativ öyrənmə** ⇨səh.8

**ADNSU-da Azİİ Elektron Kitab Evi açılıb** ⇨səh.11

# 2018-ci ilin 5 göstəricisi

## "Azərbaycan müəllimi"nin versiyasında



Daha bir ilin sonuna gəldik. Bu ilin sonunda da dönüb geriyə baxır və il ərzində yaşadığımız çoxsaylı yeniliklərin olduğunu görürük. Təbiq edilən həmin yeniliklərin təsiri ilə ölkə təhsil sisteminin inkişafı davamlı xarakter alır. Üstəlik, bu inkişaf beynəlxalq hesabatlarda öz əksini tapır.

"Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası"nın icrasına başlanılmasının beşinci ilində Azərbaycan dövləti artıq Qlobal Rəqabətlilik Hesabatında 140 ölkə arasında 69-cu yerdə qərarlaşıb. Ölkəmizin mövqeyi 12 indikatordan 9-u üzrə yaxşılaşıb. Hətta dünyanın bir sıra inkişaf etmiş ölkələrinin göstəricilərindən də yüksək olub. Məsələn, təhsilin kəmiyyət və keyfiyyət parametrlərinə əsaslanan "Bacarıqlar" indeksi üzrə ölkəmiz ümumilikdə 54-cü yerə, bu kateqoriyanın tərkib hissəsi olan rəqəmsal bacarıqlar üzrə 15-ci, tədrisdə tənqidi düşüncə üzrə 27-ci, bacarıqlı işçilər tapmaq asanlığı üzrə 31-ci, məzunların bacarıqları üzrə 32-ci, ibtidai təhsildə müəllim-şagird nisbəti üzrə 48-ci yerə yüksəlib.

Təhsildə əldə edilən böyük nailiyyətlərdə 2018-ci ilin öz payı var.

⇨Ardı səh.3

# Təhsilin onlayn gələcəyi

## Ənənəvi təhsillə onlayn-təhsilin birləşdirilməsi başlıca tələb olacaq

Dünyanın 15 iri şirkəti mühəndis, auditor, risk menecerlər, blokçeyn üzrə mütəxəssislər və marketoloqları işə götürərkən diplom tələb etmir. ABŞ-ın ən populyar iş axtarışı saytı olan "Glassdoor"un məlumatına görə, "Google", IBM, EY, "Apple" və "Bank of Amerika" kimi böyük korporasiyalara işə düzəlmək üçün ali təhsilin başa vurulmasını təsdiqləyən hər hansı sənədə ehtiyac yoxdur. Nüfuzlu universitetlərdə təhsil almaq üçün onlayn-kurslar yetərlidir. Laboratoriya işlərini xüsusi VR-eynəklər vasitəsilə də həyata keçirmək olar. Peşələrə yiyələnmək üçün isə əlavə olunmuş reallıq mövcuddur. Şagird, yaxud tələbənin psixoloji xüsusiyyətləri və maraqlarına uyğunlaşdırılmış fərdi təhsil günümüzün gerçəkliyidir. Təhsil artıq abstrakt biliklər deyil, qabiliyyət və bacarıq əldə etmək üçün vasitədir.

### Təhsil bazarı

"Savad almaq bir nəfərin digəri üzərində üstünlüyü deyil, hər kəsin haqqı olmalıdır". 6 il bundan əvvəl "Coursera" onlayn-təhsil sistemini yaradarkən Dafna Koller və Endryu İn bu şüarı əsas tuturdular. Bu kurslar təhsildə "təhsil optimizmi" adını almış abhavanın formalaşmasına təkan verdi və dünyanı inandırmağa müvəffəq oldu ki, istənilən ölkədə oturub onlayn-kurslar vasitəsilə Stenford, Priston, Kolumbiya kimi nüfuzlu universitetlərdə təhsil almaq mümkündür.

Tək birinci il "Coursera" kurslarına yazılanların sayı 2 milyonu ötdü. 2017-ci ildə "Coursera"dan 24 milyon nəfər istifadə edirdisə, bu il müraciət edənlərin sayında azalma müşahidə olunur. Tendensiyanın əsas səbəbi kimi kurslara yazılma prosedurunun çox sadə olması və nəzarət mexanizminin faktiki yoxluğu göstərilir. Bununla belə, "Massive Open Online Courses" əsas məqsədinə nail ola bilib: tələbələr, ali məktəblər, işəgötürənlər, sərmayəçilər və iş adamlarının "eLearning"ə marağı artıb. "Ambient Insight"ın proqnozlarına görə, yaxın 5 ildə onlayn-özünütəhsil alanların sayında azalma müşahidə olunacaq. 2016-cı ildə bu sahədə bazarın dövriyyəsi 47 milyard dollar təşkil edirdi ki, qarşıdakı illərdə təqribən 6,4%-lik enmə müşahidə olunacaq. Bununla belə, ümumən onlayn-təhsil bazarının digər seqmentlər hesabına ildə 5% böyüməsi gözlənilir.

⇨Ardı səh.9

# Vətəndaş məmnunluğu üçün

Bu dəfə Təhsil Nazirliyinin Vətəndaşların Qəbulu Mərkəzindəyik. Bu, nazirliyin ən əlçatan strukturu sayılır. İstər sözün həqiqi, istərsə də rəmzi mənasında. Birinci mərtəbədə yerləşən Mərkəzə müraciət etmək üçün hər hansı manea, sorğu-sual və s. tələb olunmur. Qapıdan daxil olub sıra götürmək və növbə çatanda yönləndirildiyin əməkdaşa yaxınlaşıb dərdini demək kifayətdir.

"Dərdin nədir?", "o dərdə bu əməkdaşlarda çarə varmı" və bu kimi başqa suallara gəlincə, Mərkəzin bu məqsədlə, yəni məhz vətəndaşlara xidmət etməkdə, onların suallarına cavab verməkdə məsul olan əməkdaşları təhsil sahəsində olan bütün yeniliklərdən xəbərdardırlar. Onlara əvvəlcə təlim keçib sonra vətəndaşların qarşısına çıxaran Mərkəz özü də sırf bu məqsədlə yaradılıb. Belə ki, 2014-cü ildə Prezidentin "Dövlət orqanlarında elektron xidmətlərin göstərilməsi haqqında" Fərmanından və "Vətəndaşların müraciətlərinə baxılması qaydası haqqında" Qanundan irəli gələn vəzifələrin icrası işinin səmərəliliyinin artırılması məqsədi ilə Təhsil Nazirliyində Vətəndaşların Qəbulu və Telefon Məlumat mərkəzləri fəaliyyətə başlayıb. Hazırda olduğumuz Vətəndaşların Qəbulu Mərkəzinin rəhbəri Samir Paşayev "Azərbaycan müəllimi"nə bildirib ki, müasir avadanlıqlarla və sürətli kommunikasiya sistemləri ilə təchiz edilən hər iki mərkəz Təhsil Nazirliyinin struktur bölmələri və müvafiq təhsil qurumları ilə elektron qaydada əlaqələndirilib.

Mərkəzlərə müraciət edən vətəndaşlara metodiki və maarifləndirici məlumatlar verilir, müxtəlif növ hüquqi yardımlar göstərilir. Azərbaycan, rus və ingilis dillərində fəaliyyət göstərən mərkəzlər həftənin 5 günü saat 09:00-dan 18:00-dək vətəndaşlara fasiləsiz xidmət edir.

Müraciət, şikayət və təkliflər xüsusi məlumat bazasına daxil edilir, elektron formada Təhsil Nazirliyinin müvafiq struktur bölmələrinə yönəldilir, araşdırıldıqdan sonra vətəndaşlara rəsmi cavab verilir. Bundan əlavə, məlumat bazasına axtarış sistemi yaradılıb ki, burada hər bir vətəndaşın müraciətini və onun Təhsil Nazirliyinə müraciətlərinin sayını axtarış meyarları əsasında tapmaq mümkündür.

Samir Paşayev bildirib ki, 2018-ci ilin 11 ayı ərzində Vətəndaşların Qəbulu Mərkəzində 36541 vətəndaşa xidmət göstərilib: "Mərkəzlərə daxil olan müraciətlər daha çox müəllimlərin işə qəbulu, birinci sinfə şagird qəbulu, tələbələrin köçürülməsi, diplomların nostrifikasiyası ilə bağlıdır".

### Vətəndaşların Qəbulu Mərkəzində

Mərkəzdə müşahidə olunan odur ki, bu işə sadəcə məsuliyyət deyil, həm də sevgi var. Mərkəzin əməkdaşları da işindən məmnundur. Ən təcrübəli əməkdaşı Elçin Qasımov, ən yeni əməkdaşı isə Səfurə Şərifzadədir.

⇨Ardı səh.6





# Təhsil siyasətinin perspektivləri

## İtaliya və Fransanın sabiq təhsil nazirləri təcrübələrini bölüşüblər

Səh.7

# Direktorların işə qəbulu üzrə müsahibələr yanvarın sonunadək yekunlaşacaq

Dövlət ümumi təhsil müəssisələrinin direktoru vəzifəsinə işə qəbul üzrə müsabiqənin müsahibə mərhələsi davam edir. Direktorların işə qəbulu üzrə müsahibələrə dekabrın 5-dən başlanılıb. Bu günədək 350 nəfər namizədlə müsahibələr aparılıb.

Müsahibə zamanı namizədlərin peşəkar kompetensiyaları, idarəetmə bacarıqları və ümumi dünyagörüşü 5 ballıq şkala ilə qiymətləndirilir. Bu mərhələ üzrə keçid balı 3 bal müəyyən edilir.

Direktorların işə qəbulu üzrə müsahibə mərhələsi yanvarın sonunadək davam edəcək. Bu mərhələdə 700-dən artıq namizəd iştirak edəcək.

Müsabiqədə pedaqoji və ya idarəetmə ixtisas sahələri üzrə ali təhsili 5 ildən az olmayaraq (təhsilin təşkili və idarə olunması ixtisası üzrə elmi dərəcəsi və elmi adı olduqda 3 il) pedaqoji staja malik olan və hazırda ümumi təhsil müəssisələrində pedaqoji fəaliyyətlə məşğul olan şəxslər iştirak edirlər.

# "Bir qış günü" adlı Yeni il şənliyi

Hər birimizin, bütövlükdə xalqımızın həyatında bir sıra hadisələr ilə əlamətdar olmuş 2018-ci il tarixə qovuşmaq ərəfəsindədir. Qarşıdan daha çox gözləntilərimiz olan 2019-cu il gəlir. Hər yeni ilin gəlişi insanlarda xoş ovqat yaradır, arzular çiçəklənir, ümidlər artır. Yeni ilin gəlişinə ən çox sevinən isə, təbii ki, uşaqlar olur. Axı yeni ilin rəmzi olan Şaxta baba onlara qonaq gəlir, hədiyyələr gətirir, ürəklərindəki arzu və diləklərini göyərdəcəyinə söz verir. Ona görə də uşaqlar, xüsusən də məktəblilər yeni ilin gəlişini səbirsizliklə gözləyirlər.

Dekabrın 25-də Təhsil Nazirliyinin təşkilatçılığı ilə Elmar Mirzəyev adına Sağlamlıq imkanları məhdud uşaqlar üçün 6 nömrəli Respublika xüsusi internat məktəbində Dünya Azərbaycanlılarının Həmrəylik Günü və Yeni il münasibətilə "Bir qış günü" adlı şənlik keçirilib. Mərasimin təşkil olunduğu akt zalı bayramsayağı bəzədilib, səhnədə al-əlvan oyuncaqları bərq vuran yolka qurulub. Bayram şənliyinə Təhsil Nazirliyinin əməkdaşları və KİV təmsilçiləri qatılıb. Şənlikdə internat məktəbi şagirdlərinin ifasında rəqslər, səhnəciklər bayram şənliyini daha da maraqlı və yaddaqalan edib.

Şagird-aparıcı mərasimi açıb iştirakçıları salamladıqdan və Yeni il münasibəti ilə onları təbrik etdikdən sonra ağ geyimli qızlar rəqs ediblər. Sonra aşağı və orta siniflərin bir qrup şagirdi səhnəyə çıxıb Yeni ilə, yolkaya həsr olunmuş şeirlər söyləyiblər.

Onları al-əlvan geyimli qızlardan ibarət başqa bir dəstə əvəz edib. Onlar yolkaya həsr olunmuş mahnı oxuyublar. Nəhayət, mərasimin ən maraqlı anı gəlib çatıb. Qar qız Şaxta babanı görüşə çağırıb. Şaxta baba gəlib mahnı ilə uşaqları salamlayıb, onların Yeni ilini təbrik edib.

⇨Ardı səh.16



# Dünya azərbaycanlılarına

Əziz həmvətənlər!

Hörmətli soydaşlar!

Milli birliyimizin rəmzi kimi hər il geniş qeyd etdiyimiz 31 Dekabr - Dünya Azərbaycanlılarının Həmrəylik Günü münasibətilə sizi səmimi qəlbdən salamlayır, hamınıza xoşbəxtlik və əmin-amanlıq arzulayıram.

Ümummilli lider Heydər Əliyevin azərbaycançılıq ideyalarını yaşadan müstəqil dövlətimiz milli həmrəyliyin gücləndirilməsinə xüsusi əhəmiyyət verir, dünya azərbaycanlılarının mədəni-mənəvi birliyinin daha da möhkəmləndirilməsi ilə bağlı ardıcıl tədbirlər həyata keçirir. Biz xarici ölkələrdə məskunlaşmış həmvətənlərimizin doğma Azərbaycanla əlaqələrinin dərinləşdirilməsi və ümummilli məsələlərin həllində yaxından iştirakının təmin edilməsi istiqamətində irəli sürülən səmərəli təşəbbüslərə hər zaman dəstək veririk.

2018-ci il xalqımızın tarixində şərəfli yer tutan Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyinin geniş şəkildə keçirilməsi ilə yaddaşlarda qalacaqdır. Belə əlamətdar yubileyin təntənə ilə qeyd edilməsi həmvətənlərimizin qəlbində azadlıq və istiqlal duyğularını, ölkəmizin zəngin tarixi ilə haqlı iftixar hissini daha da gücləndirir. Bu gün əminliklə demək olar ki, 100 il əvvəl mühacir həyatı yaşamağa məcbur olmuş Cümhuriyyət qurucularının və onların varislərinin Azərbaycanı müstəqil və qüdrətli dövlət kimi görmək arzuları artıq xoş gerçəkliyə çevrilmişdir.

Dünyada gedən mürəkkəb geosiyasi proseslərə, müharibə və silahlı qarşıdurmalara, qaçqın və məcburi köçkün problemlərinə, qlobal iqtisadi çətinliklərə baxmayaraq, Azərbaycan Respublikası qarşıya qoyduğu böyük məqsədlərə doğru inamla irəliləyir. Ölkəmizin sosial-iqtisadi sahədə əldə etdiyi uğurların nüfuzlu beynəlxalq təşkilatlar tərəfindən yüksək qiymətləndirilməsi bunu bir daha əyani surətdə sübut edir. Dünya Bankının "Doing Business 2019" hesabatında Azərbaycan ötən illə müqayisədə 32 pillə irəliləyərək 190 ölkə arasında 25-ci yerdə qərarlaşmış, 10 ən islahatçı dövlət siyahısına daxil edilmişdir. Ölkəmizin təşəbbüsü və yaxından iştirakı ilə irimiqyaslı transmilli layihələr uğurla icra olunmuşdur. 2018-ci ildə Avrasiyanın enerji xəritəsinin zənginləşməsində mühüm rol oynayan "Cənub Qaz Dəhlizi"nin və onun tərkib hissəsi olan TANAP boru kəmərinin istifadəyə verilməsi, həmçinin Ələt-Astara magistral avtomobil yolunun açılışı ilə Azərbaycan ərazisində "Şimal-Cənub" beynəlxalq nəqliyyat dəhlizi layihəsi üzrə bütün işlərin başa çatdırılması dövlətimizin iqtisadi potensialının artması, regionun tranzit və logistika mərkəzinə çevrilməsi, geoiqtisadi mövqeyinin güclənməsi baxımından xüsusi əhəmiyyət daşıyır. Cari ildə həm də növbəti telekommunikasiya peyki "Azerspace-2"nin orbitə buraxılması respublikamızın müasir rabitə və informasiya texnologiyaları sahəsində qazandığı nailiyyətlərin bariz təzahürüdür.

Ölkəmiz inkişaf etdikcə, daha qlobal xarakterli vəzifələri həll etmək imkanları da artır. Qarşımızda Ermənistanın hərbi təcavüzü nəticəsində işğal edilmiş torpaqlarımızın azad olunması kimi taleyüklü vəzifə dayanır. Azərbaycan pozulmuş ərazi bütövlüyünün bərpası yolunda ardıcıl və məqsədyönlü siyasət həyata keçirir. Soydaşlarımız da, öz növbəsində, yaşadıqları ölkələrin yüksək dairələrinin və nüfuzlu beynəlxalq təşkilatların diqqətinin Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin ədalətli həllinə yönəldilməsində, tarixi həqiqətlərin geniş ictimaiyyətə çatdırılmasında fəallıq nümayiş etdirməlidirlər. Azərbaycanın inkişafı və dünya birliyində mövqeyini möhkəmləndirməsi üçün hər bir həmvətənimiz ümummilli məqsədlər ətrafında sıx birləşməli, diaspor təşkilatlarının fəaliyyəti daha çevik əlaqələndirilməlidir. Əminəm ki, dünyanın hansı guşəsində yaşamasından asılı olmayaraq, bütün soydaşlarımız və həmvətənlərimiz bu prinsiplərə əsaslanaraq qarşıdakı illərdə də üzərlərinə düşən vəzifələrin yerinə yetirilməsində qüvvə və bacarıqlarını əsirgəməyəcəklər.

Sizi Dünya Azərbaycanlılarının Həmrəylik Günü münasibətilə ürəkdən təbrik edir, hər birinizə səadət, firavanlıq və işlərinizdə uğurlar diləyirəm!

Bayramınız mübarək olsun!

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

*Bakı şəhəri, 25 dekabr 2018-ci il*

# Yeni yaşayış komplekslərində məktəb binaları istifadəyə verilib

## Prezident İlham Əliyev açılış mərasimlərində iştirak edib

**Yusif ƏLİYEV**

Azərbaycan Prezidenti İlham Əliyevin rəhbərliyi altında son illər qaçqın və məcburi köçkünlərin həyat şəraitinin yaxşılaşdırılması üçün görülən işlər bu kateqoriyadan olan soydaşlarımızın hər zaman diqqət və qayğı ilə əhatə olunduğunu göstərir. Qaçqın və məcburi köçkünlərin müvəqqəti yaşayış yerləri və çadırlardan müasir tələblər səviyyəsində inşa edilən qəsəbələrə köçürülməsi dövlətin bu insanlara göstərdiyi diqqətin təzahürüdür. Bu günlərdə həmin kateqoriyadan olan insanlarımız üçün daha bir yaşayış kompleksi istifadəyə verilib. Abşeron rayonunun ərazisində yerləşən və 1000 məcburi köçkün ailəsi üçün nəzərdə tutulmuş yeni yaşayış kompleksinin dekabrın 24-də açılışı olub. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva kompleksin açılış mərasimində iştirak ediblər.

Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva yeni kompleksdəki mənzillərdə yaradılan şəraitlə tanış olublar. Qeyd edilib ki, buradakı mənzillərdən 77-si birotaqlı, 420-si ikiotaqlı, 406-sı üçotaqlı, 96-sı isə dördotaqlıdır. Mənzillərin ümumi sahəsi 76 min kvadratmetrdir. Bütün mənzillər təmir edilib və mətbəx mebeli ilə təchiz olunub. Yeni yaşayış kompleksində uşaq bağçası və məktəb də inşa olunub.

Dövlət başçısı və birinci xanım uşaq bağçasında yaradılan şəraitlə tanış olublar. Qeyd edilib ki, burada balacaların təlim-tərbiyəsi üçün bütün imkanlar var. 140 yerlik bağça uşaqların zövqünə uyğun qurulub, onların rahatlığını, istirahətini və ilkin biliklərə yiyələnməsini təmin edəcək. Otaqlar və dəhlizlər uşaqların sevimli nağıl qəhrəmanlarının şəkilləri ilə bəzədilib. Binada videomüşahidə, yanğınxəbərverici sistemlər quraşdırılıb, uşaq bağçası zəruri mebel-inventar və avadanlıqla təchiz edilib. Bağçanın yerləşdiyi ərazidə genişmiqyaslı abadlıq-quruculuq işləri görülüb, müxtəlif çiçək və gül kolları, ağaclar əkilib. Ətrafda abadlıq və quruculuq işləri görülüb.

Daha sonra yaşayış kompleksində tikilən Qubadlı rayonu Mirağa Əliyev adına Hal kənd tam orta məktəbindəki şəraitlə tanış olan Prezident İlham Əliyevə və birinci xanım Mehriban Əliyevaya məlumat verilib ki, bu təhsil ocağı 792 şagird yerlikdir. Yüksək şəraiti ilə seçilən, müasir təlim avadanlıqları ilə diqqət çəkən bu təhsil ocağında təlim-tədris üçün hər cür şərait yaradılıb. Məktəbin kompüter otağında şagirdlər informasiya texnologiyalarının sirlərinə yiyələnəcək. İdman zalı da zəruri avadanlıqla təchiz edilib və burada şagirdlərin fiziki tərbiyəsini günün tələbləri səviyyəsində qurmaq üçün hər cür imkan var. Akt zalında müxtəlif tədbirlər keçirmək mümkündür.

Prezident İlham Əliyevin təhsilin inkişafına göstərdiyi diqqət və qayğı təsdiqləyir ki, bu sahə dövlət siyasətinin mühüm prinsipləri sırasına daxil edilib. Bu proses təkcə paytaxtla məhdudlaşmır, bölgələri də əhatə edir, doğma yurdlarından didərgin düşən soydaşlarımızın təhsilinin yüksək səviyyədə qurulmasına xidmət göstərir. Heydər Əliyev Fondunun dövlət səviyyəsində həyata keçirilən bu fəaliyyət proqramına verdiyi dəstək isə öz əhəmiyyəti ilə seçilir.

Məktəblə tanışlıqdan sonra Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva məcburi köçkünlərlə görüşüblər. Dövlət başçısı görüşdəki çıxışında yeni kompleksin istifadəyə verilməsi münasibətilə onları təbrik edib. Qeyd edib ki, böyük ərazidə yerləşən, iyirmidən artıq çoxmərtəbəli yaşayış binasının, uşaq bağçası, tibb məntəqəsi, icma mərkəzi, təxminən 800 şagirdlik məktəb olan gözəl kompleksdə normal yaşamaq üçün bütün şərait var. "Bu şəhərciyin istifadəyə verilməsi bir daha onu göstərir ki, köçkünlərin problemləri daim diqqət mərkəzindədir. Bizim üçün bu, prioritet məsələdir", - deyə Prezident vurğulayıb.

Dekabrın 26-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Bakı şəhəri Dairəvi avtomobil yolunu Şərifzadə küçəsi ilə birləşdirən yeni yolun, həmçinin Mənzil İnşaatı Dövlət Agentliyinin Yasamal yaşayış kompleksinin açılışında iştirak edib, Agentliyin yeni yaşayış kompleksinin təməlini qoyublar.

Qeyd edək ki, açılışı olan Yasamal yaşayış kompleksinin ümumi sahəsi 11,6 hektardır. Ərazidə planlaşdırma sənədi üzrə 29 yaşayış binası inşa olunub. Bu binalardan 12-si 12 mərtəbəli, 17-si 9 mərtəbəlidir.

Bu layihənin icrası Prezident İlham Əliyevin təmənnalarımızın sosial məsələlərinin həllinə yüksək diqqət və qayğı ilə yanaşmasının növbəti təzahürüdür. Vətəndaşların mənzil-məişət şəraitini yaxşılaşdırmaq, ekoloji və enerji səmərəliliyi tələblərinə cavab verən müasir memarlıq üslubunda çoxmənzilli yaşayış binalarının tikintisini təmin etmək baxımından bu layihə əhəmiyyəti ilə seçilir.

Kompleksin ərazisində 161 nömrəli tam orta məktəbin binası da inşa edilib.

Dövlətimizin başçısı və birinci xanım burada yaradılan şəraitlə tanış olublar.

Təhsil naziri Ceyhun Bayramov məlumat verib ki, 960 şagird yerlik tam orta məktəbdə 36 sinif otağı var. Onlardan 15-i ibtidai, 21-i isə yuxarı sinif şagirdləri üçündür. Siniflərin hamısı zəruri tədris avadanlığı ilə təchiz olunub. Burada, həmçinin 6 tədris laboratoriyası şagirdlərin istifadəsinə veriləcək.

Sonra Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva kompleksin ərazisində inşa edilən 240 yerlik uşaq bağçasında yaradılan şəraitlə tanış olublar.

Məlumat verilib ki, bağçadakı qrup, məşğələ və oyun otaqları zəruri avadanlıqla təchiz edilib. Uşaqların gün ərzində dolğun və keyfiyyətli qidalanması üçün burada yeməkxana yaradılıb. Bağçada yaradılan şərait uşaqların təlim-tərbiyəsi ilə yüksək səviyyədə məşğul olmağa imkan verir, həmçinin onların bilikli və zəngin dünyagörüşünə malik bir vətəndaş kimi yetişməsində mühüm rol oynayır. Belə müasir körpələr evi-uşaq bağçalarının inşasına Heydər Əliyev Fondu da mühüm töhfələr verir. Bağçanın yerləşdiyi ərazidə genişmiqyaslı abadlıq-quruculuq və yaşıllıq işləri görülüb. Həyətdə uşaqların əylənməsi üçün də müxtəlif attraksionlar quraşdırılıb.

Dekabrın 27-də Sumqayıt şəhərində qaçqın və məcburi köçkün ailələri üçün inşa edilən yaşayış binaları kompleksinin açılışı olub. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva açılışda iştirak ediblər.

Görülən işlərlə bağlı dövlət başçısına və birinci xanıma məlumat verilib.

Layihənin icrası zamanı Sumqayıtdakı 12-ci mikrorayonda yerləşən 21 saylı məktəbə əlavə olaraq, dördmərtəbəli yeni korpus inşa edilib, məktəbin mövcud binasının fasadı, dam örtüyü tamamilə yenilənib. Məktəbin 540 şagird yerlik yeni korpusunda 21 sinif otağı var. Burada təlim-tədrisi yüksək səviyyədə aparmaq üçün hərtərəfli şərait var.

Kompleksin ərazisində 50 yerlik uşaq bağçası da inşa edilib. Uşaq bağçasında balacaların təlim-tərbiyəsinin təşkili, onların istirahəti və əyləncəsi üçün hər cür şərait yaradılıb.

Bu təhsil ocaqlarında yaradılan şərait son illərdə Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkədə təhsil sahəsində aparılan islahatların uğurlu nəticələrinin əyani göstəricisidir. Bütün bunlar Azərbaycanda təhsil sferasının keyfiyyətcə yeni mərhələyə qədəm qoyması ilə nəticələnib. Yeni məktəb binalarının inşası, mövcud təhsil müəssisələrinin əsaslı şəkildə yenidən qurulması ölkəmizdə təhsil sahəsinin müasirləşdirilməsi istiqamətində aparılan işlərin tərkib hissəsidir. Bütün bu işlər həm də onu göstərir ki, Azərbaycanda təhsilin və elmin inkişafına ən yüksək səviyyədə dövlət qayğısı var. Bu da, təsadüfi deyil. Çünki dövlətin yürütdüyü siyasətin prioritetlərindən biri də insan kapitalının daha da inkişaf etdirilməsi, gənc nəslin müasir, intellektual və savadlı yetişməsidir. Bu baxımdan təhsil sahəsinə qoyulan investisiyalar, o cümlədən yeni-yeni məktəb binalarının inşası, mövcud təhsil müəssisələrində yeni korpusların tikilməsi və əsaslı təmiri mühüm əhəmiyyət kəsb edir.







# 2018-ci ilin 5 göstəricisi

⇦ Əvvəli səh.1

## “Azərbaycan müəllimi”nin versiyasında

Ruhiyyə DAŞSALAHLI

“Azərbaycan müəllimi” qəzeti yeniliklərlə zəngin bu ildə baş verən çoxsaylı hadisələrin içərisindən nəinki birillik, hətta beşillik dövr üçün əhəmiyyətli sayılan 5 faktı seçib.

### Koreya təhsil standartları əsasında Bakıda Peşə Təhsil Mərkəzinin əsası qoyuldu

Həmin faktların biri peşə təhsili ilə bağlıdır.

Öncəliklə qeyd edək ki, başa vurduğumuz il peşə təhsilində əhəmiyyətli hadisələrlə zəngin olub. Regionlarda rasionallaşdırma və optimallaşdırma tədbirlərinin davamı olaraq 20 peşə təhsili müəssisəsinin bazasında 10 ixtisaslaşmış Peşə Təhsil Mərkəzi yaradılıb. Ümumilikdə 55 peşə təhsili müəssisəsinin bazasında müxtəlif istiqamətlər üzrə ixtisaslaşmış 24 Peşə Təhsil Mərkəzi yaradılıb. Təhsil Nazirliyinin və Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin birgə layihəsi olan Mingəçevir “ASAN Peşə” Təhsil Mərkəzinin açılışı olub.

2018-ci ilin ilk ayında - yanvarın 26-da Bakıda təməli qoyulan müasir standartlara uyğun təhsil müəssisəsi - Sənaye və İnnovasiyalar üzrə Dövlət Peşə Təhsil Mərkəzi, sözün əsl mənasında, ilin hadisəsinə çevrilib. Azərbaycan və Koreya hökumətləri arasında əldə edilən razılaşmaya uyğun olaraq hazırda tikintisi davam edən və 2019-2020-ci tədris ilindən tələbə qəbuluna başlayacaq bu peşə təhsili müəssisəsi bütün növ zəruri avadanlıqlar, təlim və tədris vəsaitləri ilə təchiz olunacaq. Tamamilə Koreya təhsil standartları əsasında qurulacaq və nümunəvi təhsil müəssisəsi olan Peşə Tədris Mərkəzində təhsilalanların bilik və bacarıqlarının inkişaf etdirilməsi üçün əlverişli şərait yaradılacaq. Layihəyə uyğun olaraq Sənaye və İnnovasiyalar üzrə Bakı Dövlət Peşə Təhsil Mərkəzi mexanika, elektronika, elektrik mühəndisliyi, sənayedə quraşdırma işləri, tikinti, informasiya texnologiyaları, avtomobil və avtomatlaşdırma istiqamətləri üzrə ən müasir maddi-texniki bazaya sahib olacaq. Beləliklə, burada 8 ixtisas üzrə Koreya standartlarına uyğun mütəxəssis yetişdiriləcək. Təhsilin məzmununu da koreyalı mütəxəssislər hazırlayacaq.

Bildirildiyinə görə, Dövlət Peşə Təhsil Mərkəzində yaş məhdudiyyəti olmayacaq. İstər 9 illik, istər tam orta təhsil bazasından, istərsə də ali məktəb bitirənlər, hətta məktəb partasından uzun illər öncə ayrılanlar belə, Bakı Dövlət Peşə Təhsil Mərkəzinin tələbəsi ola biləcəklər.

Təhsil Mərkəzində hər ixtisas üzrə təhsil müddəti 2 il nəzərdə tutulsa da, burada avtomatlaşdırma, elektronika kimi ixtisaslar üzrə sürətləndirilmiş proqram əsasında 1 illik təhsil müddəti də nəzərdən keçirilir. Ümumiyyətlə, tam orta təhsil bazasından bu ixtisaslara qəbul olunanlara 1 il müddətində təhsil veriləbiləcəyi vurğulanır.

Peşə təhsili sahəsində 2019-cu ilin də əhəmiyyətli olacağı gözlənilir. Ümumiyyətlə, ölkə iqtisadiyyatının inkişafı üçün peşə təhsil müəssisələrinin yaradılmasının önəmi xüsusi vurğulanır. Əmək bazarının dəyişən tələblərinə uyğun rəqabətqabiliyyətli kadr hazırlığı üçün belə mərkəzlərin istifadəyə verilməsi zəruri sayan Azərbaycan hökumətinin bu istiqamətdə böyük planları var.

### “Təhsil haqqında” Qanuna dəyişiklik edildi

Təhsil Nazirliyinin təşəbbüsü ilə “Təhsil haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilib. Dəyişikliklər uzun müzakirədən sonra iyunun 12-də Milli Məclisdə qəbul olunub. 2018-ci il iyulun 5-də Prezident İlham Əliyev Qanunun tətbiqi haqqında Fərman imzalayıb. Ümumilikdə Qanunun 21 maddəsinə 60-dan çox dəyişiklik edilib və 2 yeni maddə əlavə olunub. Dəyişikliklər yalnız ümumi təhsili deyil, təhsilin bütün pillə və səviyyələrini əhatə edib. Belə ki, “Təhsil haqqında” Qanunda təhsil müəssisələrində psixoloji xidmətin təşkili, ali təhsil müəssisələrində orta ixtisas təhsilinin təşkili, fənn olimpiadalarının qaliblərinin ali təhsil müəssisələrinə müsabiqədənkənar qəbulu, pedaqoji fəaliyyətlə məşğul olma, dövlət ümumtəhsil müəssisələrində işləyən təhsilverənlərin sertifikatlaşdırılması və digər məsələlərdə ciddi dəyişikliklər edilib.

Qanunda ən böyük dəyişiklik 6 yaşı tamam olan uşaqların məktəbə qəbulu qaydalarındadır. Həmin dəyişikliyə əsasən, 15 sentyabr - 31 dekabr tarixlərində 6 yaşı tamam olan uşaqlar heç bir əlavə komissiya yoxlanışı olmadan ümumtəhsil məktəblərinin 1-ci sinfinə qəbul edilirlər.

“Təhsil haqqında” Qanuna ən əhəmiyyətli və gözlənilən dəyişikliklərdən biri beynəlxalq fənn olimpiadalarının, respublika fənn olimpiadalarının, yüksək səviyyəli beynəlxalq müsabiqələrin və yarışların qaliblərinin ali təhsil müəssisələrinə müsabiqədənkənar qəbul olunması ilə bağlıdır. Belə ki, Azərbaycanda beynəlxalq fənn olimpiadalarının qaliblərinə istənilən ixtisas üzrə ali təhsil müəssisələrinə müsabiqədənkənar qəbul olunaraq təhsil almaq hüququ verilib. Respublika Fənn Olimpiadalarının qalibləri isə yalnız öz ixtisası üzrə ali təhsil müəssisələrinə imtahansız qəbul ediləcəklər.

“Təhsil haqqında” Qanuna əlavə edilən daha bir maddəyə əsasən, müvafiq ixtisas üzrə pedaqoji təhsili olmayan ali təhsilli mütəxəssislər məktəblərdə dərs deyə biləcəklər.

Bundan başqa,“Təhsil haqqında” Qanuna edilmiş yeni dəyişiklik ali təhsilli şəxsin kollecə, kolleci bitirmiş şəxsin isə ali təhsil müəssisəsinə müsabiqədənkənar qəbuluna imkan yaradacaq. Qanun orta ixtisas təhsili müəssisəsini bitirmiş şəxsə müvafiq ixtisas üzrə ali məktəbə müsabiqədənkənar qəbul olmağa imkan verir.

Dəyişiklikdən sonra “Təhsil haqqında” Qanuna görə, hər 5 ildən bir təhsilverənlərin sertifikasiyası keçiriləcək. Sertifikasiya müvafiq icra hakimiyyəti tərəfindən aparılacaq.

Qanunda peşə təhsili ilə bağlı da dəyişiklik edilib. Belə ki, peşələri xüsusi adamların yanında çalışmaqla öyrənənlər öz bilik və bacarıqlarını təsdiq etmək üçün müəyyən bir prosedurdan keçib sertifikat və bununla da əmək bazarına daxil olmaq üçün əlverişli imkan əldə edəcəklər. Bu da ölkədə peşə təhsili sisteminin daha da təkmilləşdirilməsinə, məşğulluq imkanlarının artırılmasına ciddi şəkildə müsbət təsirini göstərəcək.

Daha bir dəyişikliyə əsasən, beynəlxalq səviyyədə akkreditasiya olunan təhsil proqramları (İB - Diploma Programme (Beynəlxalq Bakalavriat Diplom Proqramı), Advanced Level of General Certificate of Education, Advanced Placement), yüksək yerləşdirmə təhsil proqramları ilə təhsil almış abituriyentlər müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilmiş şərtlər yerinə yetirilməklə, təhsil aldıqları dildə tədris olunan ixtisaslar üzrə ali təhsil müəssisələrinə müsabiqədənkənar qəbul olunurlar.

### Azərbaycan tələbələri dünyanın aparıcı universitetlərinin doktoranturasında

İlin sonu, hətta son iki ayı çox fəal dövr hesab olunur. Belə ki, noyabr-dekabr aylarında təhsil sahəsində xüsusilə əhəmiyyətli tədbirlərlə yadda qalıb. Məsələn, noyabrın 16-da Prezident İlham Əliyevin sərəncamı ilə “2019-2023-cü illər üçün Azərbaycan Respublikasında ali təhsil sisteminin beynəlxalq rəqabətliliyinin artırılması üzrə Dövlət Proqramı” qəbul edilib. Proqrama uyğun olaraq müxtəlif qurumların üzərinə ayrı-ayrı vəzifələr qoyulub. Həmin vəzifələrin yerinə yetirilməsində koordinasiya Təhsil Nazirliyinə həvalə edilib.

“2019-2023-cü illər üçün Azərbaycan Respublikasında ali təhsil sisteminin beynəlxalq rəqabətliliyinin artırılması üzrə Dövlət Proqramı”nın əsas hədəfi elm sahəsindəki qabaqcıl nailiyyətlərdən, innovativ təlim-tədris texnologiyalarından yararlanaraq, ölkəmizdə yeni nəsil mütəxəssislərin yetişdirilməsi, Azərbaycan ali təhsil sisteminin məzmun və keyfiyyət göstəricilərinin beynəlxalq ikili diplom proqramları ilə müasirləşdirilməsidir. Dövlət Proqramının birinci komponentində ali təhsil sisteminin məzmun və keyfiyyət göstəricilərinin beynəlxalq ikili diplom proqramları, xarici mütəxəssislərin cəlb olunması yolu ilə təkmilləşdirilməsi, yeni akademik mühitin yaradılması nəzərdə tutulub. Dövlət Proqramı çərçivəsində ali təhsil sisteminin məzmun və keyfiyyət göstəricilərinin müasirləşdirilməsi üçün ilkin mərhələdə 5 beynəlxalq ikili diplom proqramı təsis olunacaq. Bu məqsədlə nüfuzlu xarici tərəfdaş ali təhsil müəssisələri seçiləcək, xarici mütəxəssislərin cəlb olunması yolu ilə yerli ali təhsil müəssisələrində inzibati-akademik heyətə təlim keçiriləcək və tədris proqramları yenilənəcək. İkili diplom proqramlarının tətbiqi ilə belə modulların sayı genişləndiriləcək. Təhsil Nazirliyi ali təhsil müəssisələrinin rəhbərlərinə ikili diplom proqramlarında tədris olunan modulların həmin ali məktəbdə bu proqramların tərkib hissəsi olmayan ixtisaslarda da tətbiqini tövsiyə edəcək.

İkinci komponent isə ölkəmizin ali təhsil müəssisələrinin akademik potensialının gücləndirilməsi məqsədi ilə milli kadrların hazırlanması üçün xaricdə doktorantura səviyyəsində təhsilin maliyyələşdirilməsini əhatə edir. Bu məqsədlə doktorantura səviyyəsi üzrə seçimin təkmilləşdirilməsi, təhsil nailiyyətlərinin monitorinqi sisteminin yaradılması, müxtəlif sahələr üzrə yerli ali təhsil və elm müəssisələri üçün peşəkar mütəxəssislərin yetişdirilməsi həyata keçiriləcək.

Dövlət Proqramı Dövlət Neft Fondunun vəsaiti və alternativ mənbələrin (dövlət büdcəsindən ayırmalar, beynəlxalq təşkilatların (fondların) texniki-maliyyə yardımları, kreditlər və qrantlar, mülkiyyət formasından asılı olmayaraq xarici və yerli hüquqi və fiziki şəxslərin ianələri) hesabına maliyyələşdiriləcək.

Sənəddə Azərbaycan alimlərinin ayrı-ayrı ölkələrdən olan alimlərlə birgə tədqiqatlar aparması da əksini tapıb.

Dövlət Proqramının icrasına başlanandan sonrakı mərhələ ilə bağlı təhsil naziri Ceyhun Bayramov vəd edir: “Növbəti illərdə məhz bu Dövlət Proqramının uğurla icrası nəticəsində ilk ikili diplom proqramlarının təsis edilməsinin, Azərbaycan tələbələrinin dünyanın aparıcı universitetlərinin doktoranturasına qəbul olunmasının şahidi olacağıq. Dövlət Proqramına uyğun olaraq hər iki istiqamət üzrə müvafiq əlavə sənədlərin qəbul edilməsi, ikili diplom proqramı ilə bağlı seçim meyarlarına dair xüsusi qaydaların hazırlanması, eyni zamanda doktorantura təhsili üzrə də seçim meyarları üzərində iş gedir”.

### Azərbaycan müəllimlərinin qurultayı keçirilib

Noyabrın 28-də Azərbaycan müəllimlərinin növbəti qurultayı keçirilib. Təhsil işçilərinin sayca XV qurultayına ümumi təhsil, orta ixtisas və peşə təhsili müəssisələrindən 1400-ə yaxın, ali təhsil müəssisələrindən isə 200-dən artıq nümayəndə qatılıb.










### Təhsil Nazirliyi və “Clarivate Analytics” əməkdaşlığı yeni mərhələdə

Dekabrın 5-də Azərbaycan Respublikası Təhsil Nazirliyi və “Clarivate Analytics” arasında əməkdaşlığın yeni mərhələsinə start verilib. Təhsil Nazirliyi, Azərbaycan Respublikasının Prezidenti yanında Elmin İnkişafı Fondu və “Clarivate Analytics” şirkətinin birgə təşkilatçılığı ilə keçirilən mərasimlə başlanan yeni mərhələdən gözləntilər də böyükdür. Belə ki, 2015-ci ildə Təhsil Nazirliyi ilə “Clarivate Analytics” şirkəti arasında Azərbaycan ali təhsil müəssisələrinin dünyanın ən böyük elmi məlumat platformasına çıxışının təmin olunmasına dair 2015-2018 -ci illər üzrə birgə əməkdaşlığı özündə ehtiva edən müqavilənin imzalanması ilə ölkəmizin 40 ali təhsil müəssisəsi dünyanın aparıcı jurnallarının, yüksək impakt faktorlu jurnalların elmi bazalarına, konfrans materiallarına, monoqrafiyalara çıxış əldə edib. Bu 3 illik fəaliyyət dövründə həyata keçirilmiş işlərin nəticəsidir ki, yüksək impakt faktorlu jurnallarda alimlərimizin dərc olunmuş məqalələrinin sayı 75 faiz artıb. Bu məsələdə ali təhsil müəssisələrinin artım dinamikası daha yüksək olub. Burada rəqəmlər 2 dəfəyədək artıb.

Təhsil Nazirliyi ilə “Clarivate Analytics” arasında imzalanan növbəti müqavilə 2019-2021-ci illəri əhatə edir. Növbəti əməkdaşlıq mərhələsində “Clarivate Analytics” şirkəti ilə elmi nəşrlərin keyfiyyəti də diqqətdə saxlanılacaq. Bu barədə nazir Ceyhun Bayramov belə deyib: “Birinci mərhələdə daha çox maarifləndirici, daha çox imkanların təqdim olunması, bizim gənc alimlərin, tədqiqatçıların bu işdə daha fəal iştirakının təmin edilməsi və əsasən kəmiyyət göstəriciləri barədə danışırdıqsa, düşünürük ki, növbəti pillədə daha çox keyfiyyət göstəricilərinə diqqət yetirməliyik”.

Yeni imzalanan müqavilə digər dillərdə olan region ölkələrinin də aparıcı bazalarına daxil olma imkanlarını özündə ehtiva edir. Azərbaycan hər bir təhsil müəssisəsinin fəaliyyətinin analitik təhlilini aparmağı nəzərdə tutan InCites platformasına çıxış imkanlarına da sahib olur.

***

2018-ci ilin çoxsaylı təhsil hadisələrinin sırasından “Azərbaycan müəllimi” öz versiyasında 5 faktı xüsusi diqqətə çatdırdı. Təhsil ictimaiyyətinə növbəti ildə yeni nailiyyətlərə imza atmaq arzusu ilə uğurlar arzulayırıq.

# Mehdi Hüseynzadənin 100 illik yubileyi Silahlı Qüvvələrin Təlim və Tədris Mərkəzində qeyd olunub

Alman faşizminə qarşı mübarizədə apardığı çoxsaylı uğurlu kəşfiyyat əməliyyatları və nümayiş etdirdiyi misilsiz hərbi şücaətləri ilə böyük şöhrət qazanmış və Azərbaycan xalqının zəngin tarixi hünər salnaməsinə şanlı səhifələr yazmış Mehdi Hüseynzadənin anadan olmasının 100 illik yubileyi münasibətilə Silahlı Qüvvələrin Təlim və Tədris Mərkəzində təntənəli mərasim keçirilib.






AZƏRTAC xəbər verir ki, Sovet İttifaqı Qəhrəmanı Mehdi Hüseynzadənin 100 illik yubileyinin keçirilməsinə dair Azərbaycan Respublikası Prezidentinin Sərəncamına əsasən təşkil olunan tədbirdə müdafiə naziri, general-polkovnik Zakir Həsənov, təhsil naziri Ceyhun Bayramov, mədəniyyət naziri Əbülfəs Qarayev, Mehdi Hüseynzadənin ailə üzvləri, Bakı Qarnizonunun hərbi hissələrinin, xüsusi təyinatlı təhsil müəssisələrinin zabit və kursantları, dövlət universitetlərinin professor, müəllim və tələbələri, veteranlar və ictimaiyyətin nümayəndələri iştirak ediblər.

Əvvəlcə tədbir iştirakçıları Mehdi Hüseynzadənin həyat və döyüş yoluna, eləcə də xalqımızın ümummilli lideri Heydər Əliyevin əfsanəvi partizan haqqında həqiqətlərin üzə çıxarılmasında, igid döyüşçüyə ölümündən 13 il sonra Sovet İttifaqı Qəhrəmanı fəxri adının verilməsində, ümumiyyətlə Mehdi Hüseynzadənin xatirəsinin əbədiləşdirilməsində müstəsna xidmətləri barədə qiymətli fotolar və sənədlər nümayiş olunub. Qəhrəmanın uşaqlıq və təhsil illərini, Stalinqrad uğrunda döyüşlərdə iştirakını, əsirlikdə Azərbaycan naminə xidmətlərini, eləcə də Sloveniyanın milli azadlığı uğrunda sadiq əsgər kimi iştirakını əks etdirən nadir fotolar böyük maraq doğurub.

Mərasimdə əvvəlcə ulu öndər Heydər Əliyevin, İkinci Dünya müharibəsində həlak olan həmvətənlərimizin, Azərbaycanın müstəqilliyi, azadlığı, ərazi bütövlüyü uğrunda şəhidlik zirvəsinə ucalan oğul və qızlarımızın xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Hərbi orkestrin müşayiəti ilə Azərbaycan Respublikasının dövlət himni ifa olunub.

Tədbirdə "Mehdi Hüseynzadənin 100 illik yubileyinin keçirilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 23 iyun tarixli Sərəncamı bir daha nəzərə çatdırılıb.

Sonra Əməkdar incəsənət xadimi, Prezidentin fərdi təqaüdçüsü, ehtiyatda olan polkovnik Abdulla Qurbaninin ssenarisi və rejissorluğu ilə hazırlanmış "Mən öz Xəzərimə vurğunam, ey dost!" yubiley tamaşası nümayiş etdirilib. Mehdi Hüseynzadənin bəlli olmayan, son vaxtlar üzə çıxarılmış şeirlərinin istifadə edildiyi tamaşada Əməkdar artistlər Azad Şükürov, Səmayə Sadıxova, Anar Şuşalı, Hüsniyyə Mürvətova, Elxan Rza, gənc aktyorlar və Həzi Aslanov adına Mərkəzi Zabitlər Evinin yaradıcı heyəti iştirak ediblər.

Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin tələbəsi Nicat Hüseynzadə Mixaylo rolunu məharətlə ifa edib. Tamaşa boyu sənədli kadrlar nümayiş etdirilib.

Tədbirin iştirakçıları ümummilli liderimiz Heydər Əliyevin təşəbbüsü ilə igid döyüşçünün 1973-cü ildə Bakının mərkəzində ucaldılmış abidəsi qarşısındakı tarixi nitqini və Azərbaycan Prezidenti İlham Əliyevin Sloveniya Respublikasına rəsmi səfəri zamanı M.Hüseynzadənin memorial muzeyinin açılışında ictimaiyyət qarşısında çıxışını və əfsanəvi qəhrəman haqqında söylədiyi fikirləri əks etdirən süjetləri alqışlarla qarşılayıblar.

Sonda xatirə şəkilləri çəkdirilib.



# Cümhuriyyətimizlə həmyaş əfsanəvi qəhrəman

## Mehdi Hüseynzadənin 100 illiyi ilə bağlı adını daşıdığı məktəbdə tədbir keçirilib

**Yusif ƏLİYEV**

"Mehdi Hüseynzadə 1941-1945-ci illər müharibəsində faşizmə qarşı mübarizədə apardığı çoxsaylı uğurlu kəşfiyyat əməliyyatları və nümayiş etdirdiyi misilsiz hərbi şücaəti ilə böyük şöhrət qazanmış və Azərbaycan xalqının zəngin tarixi hünər salnaməsinə şanlı səhifələr yazmışdır". İgid döyüşçü - partizanın qəhrəmanlığı haqqında deyilmiş bu fikirlər ölkə Prezidentinin onun 100 illik yubileyinin qeyd olunması ilə əlaqədar bu il iyunun 23-də verdiyi sərəncamdan götürülüb.

Bəli, adı İkinci Dünya müharibəsi illərində müqavimət hərəkatının çoxminli iştirakçıları və faşistlər arasında Mixaylo kimi məşhur olan igid həmyerlimizin şücaəti, həqiqətən, böyük hünər nümunəsidir və buna görə də adının çəkilməsi, qəhrəmanlıqlarının xatırlanması hər birimizin qəlbini qürur hissi ilə doldurur. Qəhrəmanın doğulduğu, böyüyüb boya-başa çatdığı Novxanı kəndinin sakinləri, Mehdinin adını daşıyan 1 nömrəli tam orta məktəbin müəllim və şagird kollektivi isə üstəlik Mixaylonun məhz onların həmkəndlisi olmasından daha çox fəxarət hissi keçirir, onun xatirəsini yaşatmaq, qəhrəmanlıq nümunəsini gələcək nəsillərə ötürmək üçün əllərindən gələni edirlər.

Qəhrəmanın 100 illik yubileyinin qeyd olunması haqqında Prezident sərəncamından sonra isə M.Hüseynzadə adına Novxanı kənd 1 nömrəli tam orta məktəbdə bu istiqamətdə hazırlanıb həyata keçirilən tədbirlər daha müntəzəm və sistemli şəkil alıb. Bu günlərdə isə məktəbdə, bir növ, həmin tədbirlərin davamı və yekunu olaraq qəhrəmanın 100 illiyinə həsr olunmuş möhtəşəm bir yubiley mərasimi keçirilib.

Mərasimdə Abşeron Rayon İcra Hakimiyyətinin başçısı İradə Gülməmmədova, rayon təhsil şöbəsinin müdiri Nazilə Məmmədova, tədqiqatçı Şəmistan Nəzirli, məktəb direktorları, ictimaiyyət nümayəndələri, şəhid ailələri, müəllimlər və məktəblilər iştirak ediblər.

Tədbirdən öncə qonaqlar məktəbdəki "Mehdi muzeyi"ni ziyarət edib, 1965-ci ildən 2018-ci ilədək "Mehdi günləri" çərçivəsində keçirilən görüşlərə həsr olunmuş stendlə, şagirdlərin əl işlərindən ibarət sərgi ilə tanış olublar.

Mərasimi məktəbin direktoru Taliə Mirzəyeva açaraq iştirakçıları salamlayıb, tədbir haqqında məlumat verib. Direktor habelə M.Hüseynzadənin 100 illik yubileyi ilə bağlı rayon səviyyəli tədbirin məhz onların məktəbində keçirildiyinə görə rayon rəhbərliyinə təşəkkür edib.

Aparıcı-məktəbin kimya müəllimi Kəmalə Ağamalıyeva tədbiri açıq elan edib, himn ifa olunandan sonra M.Hüseynzadə haqqında məlumat verilib, onun döyüş yolundan danışılıb, "Uzaq sahillərdə" filmindən bir parça, M.Hüseynzadənin muzeyindən görüntülər nümayiş olunub.

Məktəbin tarix müəllimi Məsumə İsayeva çıxış edərək II Dünya müharibəsində Azərbaycan oğullarının da iştirak etdiyini, təkcə Novxanı kəndindən 384 nəfərin ordu sıralarına çağırıldığını, onların yalnız 185-nin geri qayıtdığını bildirib. Diqqətə çatdırıb ki, həmyerliləri Mehdi Hüseynzadə bu döyüşlərdə göstərdiyi misilsiz qəhrəmanlığa görə müharibədən çox sonralar-1957-ci ildə Sovet İttifaqı Qəhrəmanı fəxri adına layiq görülüb. Bu hadisə novxanılıların, eləcə də kənd məktəbinin şagirdlərinin hədsiz sevincinə səbəb olub. O gündən başlayaraq Mehdi haqqında sənədlər, məlumatlar toplanaraq məktəbdə "Mehdi muzeyi" təşkil olunub. 1965-ci ildə məktəbə M.Hüseynzadənin adı verilib. Hər il aprelin 11-i məktəbdə "Mehdi günü" kimi qeyd olunur. 2007-ci ildə kənddə Mehdi Hüseynzadənin heykəli ucaldılıb. Qəhrəmanın adının əbədiləşdirilməsi istiqamətində ölkə miqyasında da bir sıra addımlar atılıb, adı məktəblərə, küçə bə meydanlara verilib, haqqında saysız-hesabsız məqalələr yazılıb, qəhrəmanlıqlarına roman, bədii film həsr olunub. Ulu öndər Heydər Əliyevin sərəncamı ilə 1973-cü ildə Bakının görkəmli yerində igid partizanın adına layiq ucaldılmış abidə kompleksi qəhrəmanlıq simvoluna, hər il Qələbə Gününün təntənə ilə qeyd olunduğu tarixi yerə çevrilib.

Sonra səhnə məktəbin istedadlı şagirdlərinin ixtiyarına verilib.

Musiqi sədaları altında Dövlət bayrağı səhnəyə gətirilib. Əsgər geyimində olan, yaxalarına milli qəhrəmanların şəkillərini vurmuş şagirdlər şeir və musiqi çələngindən ibarət kompozisiya təqdim ediblər. Cavidan, Zəhraxanım, Simuzər, Əntiqə, Səma, Fariz, Asət, Səadət, Hüseyn, Aydın, Kəmalə və başqaları bayrağa, Vətənə, Mehdi Hüseynzadənin qəhrəmanlığına həsr olunmuş, eləcə də Mehdi Hüseynzadənin özünün müəllifi olduğu şeirlər söyləyib, mahnılar ifa ediblər.

Bədii hissədən sonra tədbir qonaqların çıxışları ilə davam edib. Abşeron Rayon İcra Hakimiyyətinin başçısı İradə Gülməmmədova tədbiri yüksək qiymətləndirib və onu hazırlayanlara təşəkkür edib. O, eyni zamanda belə istedadlı şagirdlər yetişdirdiyi üçün məktəbin rəhbərliyinə və müəllimlərə minnətdarlığını bildirib.

İcra başçısı qeyd edib ki, yüksək əxlaqi keyfiyyətlərə malik cəsur kəşfiyyatçı Mehdi Hüseynzadənin rəşadət dolu şərəfli həyat yolu bu gün vətənimizin sərhədlərini layiqincə qoruyan və işğal altındakı torpaqlarımızı azad etməyə hər an hazır olan mətin Azərbaycan əsgəri, eləcə də hər bir gənc üçün parlaq qəhrəmanlıq nümunəsidir. Tədbirdə iştirak edən hər bir şagirdin simasında mehdiləri gördüyünü bildirən icra başçısı onların arasında gələcək mehdilərin yetişdiyinə inandığını söyləyib. İ.Gülməmmədova hər il qəhrəmana həsr olunmuş anım mərasimləri keçirməklə onun xatirəsini yaşatdıqlarına, M.Hüseynzadənin məzarı üzərinə daim tər çiçəklər düzdüklərinə görə məktəbin kollektivinə, kənd sakinlərinə də təşəkkür edib, dövlətimizin xalqımızın qəhrəman oğullarına diqqət və qayğısından danışıb.

Tədqiqatçı Şəmistan Nəzirli, AMEA Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutunun əməkdaşı, filologiya üzrə fəlsəfə doktoru, dosent Əzizağa Nəcəfov və başqa çıxış edənlər də şagirdlərə öz alqışlarını çatdırıb, Novxanı torpağının Məhəmməd Əmin Rəsulzadə, Süleynam Rüstəm, Mehdi Hüseynzadə kimi görkəmli simalar, igid, qəhrəman, mübariz vətən oğulları yetişdirdiyini qeyd ediblər. M.Hüseynzadənin 100 illik yubileyinin Azərbaycan Cümhuriyyətinin 100 illik yubileyi ilə üst-üstə düşməsinin böyük rəmzi məna kəsb etdiyi vurğulanıb.

# "Gənc partizan Mixaylo"

## Hərbi vətənpərvərlik oyunu keçirilib

Təhsil Nazirliyi Respublika Uşaq-Gənclər İnkişaf Mərkəzi və Səmti Müəyyənetmə İdman Federasiyasının birgə təşkilatçılığı ilə məktəblilər arasında "Gənc partizan Mixaylo" adlı hərbi vətənpərvərlik oyunu keçirilib.

Yarışın keçirilməsində məqsəd əfsanəvi azərbaycanlı partizan və kəşfiyyatçı, Sovet İttifaqı Qəhrəmanı, rəssam Mehdi Hüseynzadənin xatirəsinin əbədiləşdirilməsi, vətənpərvərlik hisslərinin aşılanması, məktəblilərin sağlamlığının, zehni inkişafının möhkəmləndirilməsi, sağlam həyat tərzinin təbliği, idman bacarıqlarının artırılmasıdır.

Tədbir Mehdi Hüseynzadənin 100 illik yubileyinin keçirilməsi haqqında ölkə Prezidentinin sərəncamının icrası məqsədi ilə Təhsil Nazirliyi tərəfindən təsdiq olunmuş tədbirlər planına uyğun olaraq keçirilib.

Yarışdan əvvəl səmti müəyyənetmə üzrə Azərbaycan çempionu Süleyman Əliyev, taekvondo üzrə 3 qat Avropa çempionu Səbuhi İsmayılov, Təhsil Nazirliyi Respublika Uşaq-Gənclər İnkişaf Mərkəzinin direktoru Firuzə Sultan-zadə Mehdi Hüseynzadənin həyat və fəaliyyəti, vətənə xidməti və qəhrəmanlığı haqqında çıxış ediblər.

Bakının Xətai rayonunda yerləşən "Sevirəm" park kompleksində keçirilən hərbi vətənpərvərlik oyununda 150 məktəbli fərdi və komanda şəklində uzun və orta məsafə üzrə mübarizəyə qoşulub.

Oyun üçün parkda axtarış nöqtələri ilə xüsusi xəritə hazırlanıb və elektron qeydlər aparılıb. Bu nöqtələrdə gənc rəssamlar molbert arxasında rəsm əsərlərini çəkərək Mehdi Hüseynzadənin son məktubunun hissələrini uşaqlara paylayıblar.

Yarışın sonunda I, II, III yerlər üzrə qalib gələn məktəblilərə medal və diplomlar təqdim edilib, xatirə şəkli çəkilib.

# Qazax Müəllimlər Seminariyasının 100 illik yubileyinin qeyd edilməsi haqqında

## Azərbaycan Respublikası təhsil nazirinin əmri

Azərbaycan Respublikası Prezidentinin "Qazax Müəllimlər Seminariyasının 100 illik yubileyinin qeyd edilməsi haqqında" 3 noyabr 2018-ci il tarixli 642 nömrəli Sərəncamının icrasını təmin etmək məqsədi ilə "Azərbaycan Respublikasının Təhsil Nazirliyi haqqında Əsasnamə"nin 13.5-ci bəndini rəhbər tutaraq

**ƏMR EDİRƏM:**

**1.** Qazax Müəllimlər Seminariyasının 100 illik yubileyinin keçirilməsi ilə bağlı Təhsil Nazirliyinin Tədbirlər Planı təsdiq edilsin (əlavə olunur).

**2.** Rayon (şəhər) təhsil şöbələrinin (idarələrinin), ali və orta ixtisas təhsili müəssisələrinin, Təhsil Nazirliyinin tabeliyindəki ümumi təhsil müəssisələrinin rəhbərləri Tədbirlər Planındakı aidiyyəti tədbirlərin yerinə yetirilməsini təmin etsinlər və görülmüş işlər barədə 25 dekabr 2019-cu il tarixinədək Təhsil Nazirliyinə hesabat təqdim etsinlər.

**3.** İnformasiya şöbəsi (E.Məmmədov) əmrin əlavəsi ilə birlikdə çoxaldılıb aidiyyəti struktur bölmələrə, yerli təhsili idarəetmə orqanlarına və təhsil müəssisələrinə göndərilməsini, Nazirliyin internet səhifəsində yerləşdirilməsini və "Azərbaycan müəllimi" qəzetində dərc olunmasını təmin etsin.

**4.** Əmrin icrasına nəzarət nazir müavini F.Qurbanova həvalə edilsin.

**Ceyhun BAYRAMOV,**
**Azərbaycan Respublikasının təhsil naziri**

*24 dekabr 2018-ci il*

*Azərbaycan Respublikası təhsil nazirinin 24.12.2018-ci il tarixli F-823 nömrəli əmri ilə təsdiq edilib*

## Qazax Müəllimlər Seminariyasının 100 illik yubileyinin keçirilməsi ilə bağlı Azərbaycan Respublikası Təhsil Nazirliyinin Tədbirlər Planı

(Qazax Rayon İcra Hakimiyyətinin təklifləri nəzərə alınmaqla)

| № | Tədbirin adı | İcraçı qurumlar | İcraçı struktur bölmələr və müəssisələr | İcra müddəti |
|---|---|---|---|---|
| 1. | Qazax Müəllimlər Seminariyasının 100 illik yubileyi ilə bağlı təntənəli mərasimin keçirilməsi | Təhsil Nazirliyi, Qazax Rayon İcra Hakimiyyəti, Azərbaycan Dövlət Pedaqoji Universiteti | Aparat, Elm, ali və orta ixtisas təhsili şöbəsi | noyabr - 2019 |
| 2. | Qazax rayonunda Seminariyanın 100 illiyinə həsr olunmuş "Azərbaycanda elmin və təhsilin inkişafı" mövzusunda elmi-praktik konfransın keçirilməsi | Təhsil Nazirliyi, Qazax Rayon İcra Hakimiyyəti, Bakı Dövlət Universitetinin Qazax filialı, Azərbaycan Dillər Universiteti, AMEA-nın Folklor İnstitutu | Aparat, Elm, ali və orta ixtisas təhsili şöbəsi | mart - 2019 |
| 3. | Qazax Müəllimlər Seminariyasının 100 illiyinə həsr olunmuş kitabın hazırlanıb nəşr edilməsi | Qazax Rayon İcra Hakimiyyəti, Bakı Dövlət Universitetinin Qazax filialı | Elm, ali və orta ixtisas təhsili şöbəsi | noyabr - 2019 |
| 4. | Qazax şəhərinin küçələrindən birinə Firudin bəy Köçərlinin adının verilməsi ilə bağlı vəsatətin qaldırılması | Qazax Rayon İcra Hakimiyyəti | | yanvar - 2019 |
| 5. | Qazax Müəllimlər Seminariyasının fəaliyyət göstərdiyi binanın bərpası və əsaslı təmiri, həmin binada Seminariyanın tarixini əks etdirən muzeyin yaradılması, binanın qarşısında Firudin bəy Köçərlinin büstünün qoyulması | Qazax Rayon İcra Hakimiyyəti, Azərbaycan Dövlət Rəssamlıq Akademiyası | Xalq Təhsili Muzeyi | dekabr - 2018<br>noyabr - 2019 |
| 6. | Qori Müəllimlər Seminariyasının Azərbaycan bölməsinin məzunları, Qazax Müəllimlər Seminariyasının fəaliyyəti və ona rəhbərlik edən maarifçi ziyalılar haqqında illüstrativ materialların hazırlanması | Qazax Rayon İcra Hakimiyyəti, Bakı Dövlət Universitetinin Qazax filialı | Elm, ali və orta ixtisas təhsili şöbəsi | dekabr - 2018<br>dekabr - 2019 |
| 7. | Ümumi təhsil müəssisələrində Qazax Müəllimlər Seminariyasının 100 illiyinə həsr olunmuş tədbirlərin, o cümlədən yarışların, müsabiqələrin, intellektual oyunların keçirilməsi | Təhsil Nazirliyi, yerli təhsili idarəetmə orqanları, təhsil müəssisələri | Məktəbdənkənar fəaliyyətin təşkili şöbəsi, Elm, ali və orta ixtisas təhsili şöbəsi, Ümumi və məktəbəqədər təhsil şöbəsi | dekabr - 2018<br>dekabr - 2019 |
| 8. | Bakı Dövlət Universitetinin Qazax filialının tələbələri üçün Firudin bəy Köçərli və Səməd Vurğun adına təqaüdlərin təsis edilməsi | Qazax Rayon İcra Hakimiyyəti, Bakı Dövlət Universitetinin Qazax filialı | Elm, ali və orta ixtisas təhsili şöbəsi | fevral - 2019 |
| 9. | Yubiley tədbirlərinin kütləvi informasiya vasitələrində işıqlandırılması, Seminariyanın tarixi və məzunları haqqında verilişlərin təşkili, "Azərbaycan müəllimi" qəzetində və "Azərbaycan məktəbi" jurnalında məqalələrin dərc edilməsi | Təhsil Nazirliyi, Qazax Rayon İcra Hakimiyyəti, kütləvi informasiya vasitələri | İnformasiya şöbəsi, "Azərbaycan müəllimi" qəzeti, "Azərbaycan məktəbi" jurnalı | dekabr - 2018<br>dekabr - 2019 |

# ADA Universitetində Xalq Cümhuriyyətinin 100 illiyi münasibətilə tədbir

ADA Universitetində Azərbaycan Xalq Cümhuriyyətinin 100 illik yubileyinə həsr edilmiş tematik bal keçirilib. Beynəlxalq Uşaq Diplomatiyası Mərkəzi (World Wide Diplomacy - WWD) tərəfindən təşkil olunan gecənin iştirakçıları Bakı Avropa Liseyinin və Müasir Təhsil Kompleksinin II-VI sinif şagirdləri olublar.

Universitetin prorektoru Fariz İsmayılzadə iştirakçıları və qonaqları salamlayıb.

Məktəblilər bayramda qədim dövrlərdən 1918-ci ilədək dünya diplomatiya tarixinə həsr olunmuş ədəbi-musiqili performans nümayiş etdiriblər. Tamaşada Misirin Amarna şəhərində tapılmış qədim diplomatiya arxivindən tutmuş Paris Sülh Konfransınadək sənədli materiallardan istifadə edilib.



Azərbaycan, ingilis və rus dillərində hazırlanmış balın orijinal formatı, tarixi geyimlərdən istifadə olunması, pavana, menuet və digər orta əsr rəqsləri tamaşaçılar tərəfindən yüksək dəyərləndirilib.

Tədbirdə əsas diqqət Paris Sülh Konfransının iştirakçılarına həsr edilmiş mini tamaşaya ayrılıb. Tamaşanın hazırlanmasında Bakı Media Mərkəzinin Arzu Əliyevanın baş prodüserliyi ilə çəkdiyi "Əbədi ezamiyyət" sənədli filminin materiallarından istifadə edilib.

# Harvardın azərbaycanlı professoru daha bir uğura imza atdı

## Anar Əhmədov Humboldt Fondunun təqaüdünü qazandı

**Oruc MUSTAFAYEV**



Dünyanın müxtəlif nüfuzlu universitetlərində, tədqiqat mərkəzlərində çalışan azərbaycanlı alimlərin uğurları hər birimiz üçün iftixar mənbəyidir. Ötən il dünyanın elmi əsərlərinə ən çox istinad olunan gənc alimləri arasında adı çəkilərək Harvard Universitetinə dəvət edilmuş və hazırda dünyanın ən reytinqli ali təhsil müəssisəsində tədqiqatlar aparan riyaziyyat professoru Anar Əhmədov bu yaxınlarda daha bir uğura imza atıb. A.Əhmədov Almaniyanın Humboldt Fondunun təcrübəli tədqiqatçılar üçün Humboldt Təqaüdünə ("Humboldt Research Fellowship for Experienced Researchers") layiq görülüb. "Azərbaycan müəllimi" qəzetinə eksklüziv açıqlamasında Harvard Universitetinin professoru aşağıdakıları söylədi:

- Bu təqaüd daimi professorlara və Almaniyada uzun müddətli tədqiqatlar aparmaq məqsədi ilə verilir. Mən və ailəm 3-4 illik müddətə Almaniyaya dəvət olunmuşuq. Almaniyada ortaq çalışdığım bir professor məni may ayında bu təqaüdə təqdim etmişdi. Bundan əlavə, mənim apardığım tədqiqatlarla bağlı Humboldt Fonduna ("Humboldt Foundation" ) Amerikadan bir neçə əlavə məktublar yazılmışdı. Qaydalara əsasən, 6 aya yaxın bir zamanda layihələrə baxılır və bütün sahələr üzrə verilən layihələrin 1/3-i "Humboldt Foundation" tərəfindən mükafatlandırılır. Təqaüd əsasən əvvəl qazanılan uğurlar və yeni təqdim olunan ortaq layihələrə görə verilir. Səhv etmirəmsə, riyaziyyatdan bu il 10-a yaxın layihə mükafatlandırılıb. Mən 3-4 il Almaniyanın Bayrot Universitetində (University of Bayreuth) tədqiqat aparacağam və Avropada olan bir neçə professorlarla ortaq çalışacağam. Almaniyanın müxtəlif şəhərlərində yerləşən tədqiqat mərkəzləri ilə tanışlıq da bu proqrama daxildir. Bundan əlavə, proqram çərçivəsində Almaniyanın baş naziri ilə görüşümüz də planlaşdırılır.

Qeyd edək ki, Humboldt Fondu hər il bütün dünyadan 2000-dən çox tədqiqatçıya Almaniyada tədqiqatlar aparmağa imkan verir. Hazırda 140-dan çox ölkədə Fondun təqaüdünü almış 29 000-dən çox alim yaşayır. Onların arasında 55 Nobel mükafatı laureatı var.

Fondun təqaüdünə yaxşı akademik ixtisaslaşmaya və doktorluq elmi dərəcəsinə malik, öz tədqiqat istiqaməti, bir neçə illik müstəqil tədqiqatçılıq təcrübəsi olan, alman və ya ingilis dillərini mükəmməl bilən alimlər layiq görülür.

A.Əhmədov 1976-cı ildə hazırda erməni işğalı altında olan Cəbrayıl rayonunda anadan olub. 1993-cü ildə Bakı şəhərindəki 58 nömrəli tam orta məktəbi bitirib. Elə həmin ildə Bakı Dövlət Universitetinin mexanika-riyaziyyat fakültəsinə daxil olub. 1996-cı ildən Amerika Birləşmiş Ştatlarına köçərək ali təhsilini Kaliforniya Dövlət Universitetində fərqlənmə ilə bitirib. 2006-cı ildə Kaliforniya Universitetində riyaziyyat sahəsində doktorluq elmi dərəcəsi alıb. Həm də 2001 və 2003-2004-cü illərdə ABŞ-ın nüfuzlu Berkli və Prinston universitetlərində doktorantura təhsili alıb. 2006-2009-cu illərdə ABŞ-ın Corciya Texnologiya İnstitutunda, Kolumbiya Universitetində, İsveçrənin Sürix, Avstriyanın Vyana universitetlərində köməkçi professor və alim kimi çalışıb. 2018-ci ildə Minnesota Universitetinin professoru olaraq Amerikanın "Simons" Fondunun (The Simons Foundation) təqaüdünə də layiq görülüb. Riyaziyyat və nəzəri fizika üzrə xüsusi təqaüdə (Simons Fellows in Mathematics and Theoretical Physics Announced) layiq görülən ilk azərbaycanlı alim-tədqiqatçıdır. Bu təqaüd A.Əhmədova 2018-2019-cu illərdə Harvard Universitetində professorluq etməyə imkan verib.

Oxucularımıza Yeni il təbriklərini çatdıran professor Anar Əhmədova elmdə daha yüksək zirvələr arzulayırıq.

# ABŞ-da ali təhsil kreditləri yeni rekorda çatdı

2018-ci ilin sonlarına doğru ABŞ-da ödənilməmiş ali təhsil kreditlərinin həcmi 1 trilyon 465 milyard dollara çatdı. Bu haqda məlumatı Nyu-Yorkun Federal Ehtiyat Bankının məlumatlarına, həmçinin son aylar ərzində apardığı müstəqil qiymətləndirilmələrə istinadən "Bloomberg" agentliyi yayıb. Qeyd olunur ki, Amerika tələbələrinin təhsil borcları 2009-cu illə müqayisədə (675 milyard dollar) 2 dəfədən çox artıb. Ekspertlər qeyd edirlər ki, bu göstəricinin artması ölkə iqtisadiyyatı üçün maliyyə risklərini artırır. Vəziyyəti "Bloomberg" agentliyinə şərh edən Beynəlxalq Maliyyə İnstitutunun iqtisadçısı Pol Della Quardiyanın sözlərinə görə, iqtisadi enmə və adıçəkilən kreditlər üzrə öhdəliklərin yerinə yetirilməsi sayəsində əsas ağırlıq Amerika büdcəsinin üzərinə düşəcək.

"Ali təhsil kreditlərinin 90%-dən çoxuna ABŞ Təhsil Nazirliyi tərəfindən zəmanət verilmişdir. Bu o deməkdir ki, əgər Amerika iqtisadiyyatında çökmə gənclər arasında işsizliyə və kreditlər üzrə kütləvi defolta yol açarsa, bu öhdəliklər ABŞ-ın federal büdcəsi üçün kifayət qədər ağır olacaq".

Son il ərzində həmçinin ali təhsildə kreditlər üzrə borc öhdəlikləri olanların sayında artım qeydə alınıb. ABŞ Təhsil Nazirliyinin məlumatına görə, 2017-ci ildə ABŞ-da 2,5 milyon vətəndaşın 100 min dollar həcmində təhsil kreditləri üzrə borc öhdəlikləri yaranıb. 2018-ci ildə isə bu göstərici 2,7 milyon insana çatıb.

# Vətəndaş məmnunluğu üçün

⇦ Əvvəli səh.1

**Ruhiyyə DAŞSALAHLI**





## Təhsil Nazirliyi sosial mediada da fəallığına görə ön sıralardadır

Tələbəliyindən indiyədək könüllü fəaliyyəti ilə diqqəti çəkən Səfurə Bakı Dövlət Universitetini biologiya müəllimliyi ixtisası üzrə bitirib. 4 il universitetdə uşaqlarla işləməyin incəliklərini öyrənsə də, hələlik böyüklərlə işləməyi sınaqdan çıxarır: “Vətəndaşlarla işləmək çox maraqlıdır. Hər gün müxtəlif situasiyalarla qarşılaşırıq. Həmin müraciətləri cavablandırarkən özümüz də təkmilləşirik. Müraciətlər əsasən şagirdlərlə bağlı olur. Yaşayış yerini dəyişməklə əlaqədar olaraq övladlarının rayonlardakı təhsil müəssisələrindən çıxarılıb Bakıdakı, yaxud əksinə, bölgələrdəki məktəblərə yerləşdirilməsi ilə bağlı müraciət edənlər çox olur. X-XI sinifdə təhsil alan şagirdlərin yerdəyişməsi üçün müraciətlər xüsusilə çox olur”.

Səfurə Şərifzadənin sözlərinə görə, vəzifəli şəxslərin qəbuluna düşməyə cəhd edənlər də kifayət qədərdir. Diplomun təsdiqi, arxiv şöbəsindən hər hansı təhsil sənədinin alınması məqsədi ilə edilən müraciətlər hələ də səbəblər arasında çoxluq təşkil edir.

Budur, Elbəy Əlizadənin də yolu arxiv şöbəsinə düşüb. Tikinti sektorunda çalışan vətəndaşın əvvəlcədən etdiyi müraciət təmin edilib və bu gün o, Təhsil Nazirliyindən tələb etdiyi sənədi götürməyə gəlib: “Diplomumun qiymət cədvəli lazım oldu. Artıq istəyim həll edilib və sənədimi götürməyə gəlmişəm”.

### Müraciətlər səbəbsiz yerə artıb-azalmır

Mərkəzin ən təcrübəli əməkdaşı Elçin Qasımov artıq 3 ildir burada çalışır. Vətəndaş müraciətlərinin ən sıx vaxtlarını da yaxşı bilir, azaldığı günləri də. Müşahidə edilən hər vəziyyətin də öz səbəbi var. Məsələn: “Ən çox may, iyun, iyul aylarında müraciətlər çoxalır. 450-500 nəfərin qəbula gəldiyi günlər olur. Bildiyiniz kimi, həmin ərəfədə müəllimlərin işə qəbulu və yerdəyişməsi həyata keçirilir. Bu proseslə əlaqədar olaraq, müraciət edənlərin də sayı artır”.

Noyabr-dekabr aylarında direktorların işə qəbulu başladığından müraciətlərin də sayı və məzmunu buna uyğun olaraq dəyişir. Elçin Qasımov deyir ki, fevral ayında başlayacaq tələbələrin köçürülməsi də Vətəndaşların Qəbulu Mərkəzində ən çox hiss olunan proseslərdəndir: “Müəllimlərin işəqəbulu və yerdəyişməsi kimi, tələbələrin köçürülməsi də saya ən çox təsir edən prosesdir”.

Ümumiyyətlə, müraciətçilər arasında tələbələr üstünlük təşkil edir: “Təhsil haqqı ilə bağlı tələbə müraciətləri sıx rast gəlinəndir. Xarici ölkələrdə təhsil alanların sənədlərinin təsdiqi ilə bağlı müraciətlər də kifayət qədər çoxdur”.

Əksəriyyəti sorğu xarakterli olan müraciətlərin tərkibi müxtəlifdir: “Hər məzmunda suallar olur. Həmin sualların arasında Təhsil Nazirliyinə aidiyyəti olmayanlara belə rast gəlinir. Daha çox şagird şikayətləri ilə qarşılaşırıq. Həmin müraciətləri müvafiq yerli təhsili idarəetmə orqanlarına yönləndiririk”.

### Vətəndaşlar kimi deyib gəlirlər?

Maraqlıdır, görəsən, vətəndaşların ən çox görmək istədiyi, daha çox etimad göstərdiyi, sözünə güvəndiyi kimdir? Gələnlər kimi deyib gəlirlər?

Elçin Qasımovun sözlərinə görə, nazirlə görüşmək istəyənlər lap çoxdur: “Görüşmək üçün hətta teleqram belə vururlar. Ancaq biz onlara izah edirik ki, nazirin qəbulu Nazirlər Kabinetinin müəyyən etdiyi cədvələ uyğun olaraq ayda bir dəfə ayrı-ayrı regionlarda keçirilir. Qəbul otağında yalnız Aparat rəhbəri, nazir müavinlərinin qəbuluna yaza bilirik”.

Nazirdən sonra vətəndaşların ən çox müraciət etdiyi şəxs Elm, ali və orta ixtisas təhsili şöbəsinin müdiri Yaqub Piriyev və İctimaiyyətlə əlaqələr sektorunun müdiri Cəsarət Valehovdur.

### Telefon Məlumat Mərkəzində

Divarları və tavanı xüsusidir. Səsboğucu olan bu divarlar arasında 9 operatorun hamısı eyni vaxtda danışsa da, hay-küy yaranmır. Burada iş stresli olduğu üçün otağın rənglənməsində də rutin rənglərdən qaçılıb, dünya təcrübəsində insanları rahatladan, sakitləşdirən rənglərdən istifadə edilib.

Telefon Məlumat Mərkəzinin ən təcrübəli mütəxəssisi Xədicə Bayramova övladı XI sinifdə təhsil alan valideynin buraxılış imtahanları ilə bağlı sualını cavablandırır: “Buraxılış imtahanının keçirilmə qaydası ilə maraqlanırdı. Qaydanı izah etdim. Ancaq vətəndaşa onu da bildirdim ki, buraxılış imtahanlarını Təhsil Nazirliyi keçirmir və onu Dövlət İmtahan Mərkəzinə yönləndirdim”.

Operatorların hərəkətini göstərən cədvəldə vətəndaşla danışıq dili də qeyd olunur. Məsələn, Azər Məhərrəmov, Leyla Səlimova hazırda Azərbaycan dilində zənglərə cavab verirlər. Telefon Məlumat Mərkəzinin rəhbəri Natəvan Əsgərovanın sözlərinə görə, operatorların işə qəbulu zamanı bu məqama xüsusi diqqət yetirilir. Belə ki, operator götürülən namizədin hər 3 dildə danışıq imkanları araşdırılır. Bunun nəticəsidir ki, vətəndaşa müraciət etdiyi dildə cavab verilir.

Azər Məhərrəmov danışığını bitirir. O, bu mərkəzdə artıq 6 aydır çalışır: “Bütün suallara dərhal cavab veririk. Ancaq araşdırma tələb edən suallar da olur. Bu halda vətəndaşı maraqlandıran məsələni əvvəlcə araşdırır, sonradan sorğusuna özümüz zəng edərək cavab veririk”.

“Qaynar xətt”ə zənglər, adətən, sorğu xarakterli olur: “İndi müraciətçilər əsasən diplomların təsdiqi ilə, çalışmanın yaş həddinə çatan müəllimlərin əmək müqaviləsinin müddətinin artırılması, birinci sinfə qəbulla maraqlanırlar”.

**Məlumat üçün qeyd edək ki, “Facebook” sosial şəbəkəsində Təhsil Nazirliyinin izləyicilərinin sayı ötən illə müqayisədə 2018-ci ildə 20 min nəfər artıb. Artıq 100144 nəfər izləyicisi olan qurum bu sosial şəbəkənin verdiyi bütün imkanlardan yararlanır. Yeniliklərlə bağlı paylaşımlar edir, həyata keçirilən islahatları canlı yayımda müzakirəyə çıxarır, sosial şəbəkə istifadəçilərinin suallarına cavab verir, tədbirləri “canlı yayım” vasitəsi ilə paylaşırlar.**

### “Qaynar xətt” “qaynayan”da

Telefon Məlumat Mərkəzində bu il ərzində 76 472 zəng qəbul edilib. Gün ərzində 800 zəngin daxil olduğu vaxtlar olur və onda operatorla əlaqə müddəti 20-30 saniyəyə çatır.

Natəvan Əsgərovanın sözlərinə görə, vətəndaşların “Qaynar xətt” xidmətindən istifadəsində hər hansı problem mümkün deyil: “Yay aylarında müəllimlərin işə qəbulu və yerdəyişməsi vaxtı müraciətlərin sayı çox olduğundan vətəndaşların telefonda daha çox gözləməsi mümkündür. Həmin ərəfədə elektron müraciətlərin doldurulması və prosedur qaydalarla bağlı çoxsaylı müraciətlər gəlir. Bu da “Qaynar xətt” xidmətində bir az sıxıntılara səbəb olur. Amma statistika və hesabatlar onu göstərir ki, bu cür fəal dövrlər istisna olmaqla, qalan vaxtlarda vətəndaşların Telefon Məlumat Mərkəzinin operatoruna bağlanması 30 saniyə ərzində baş tutur. Həftəlik və aylıq hesabatlar aparırıq. Həmin hesabatlar göstərir ki, vətəndaşın xətdə orta gözləmə müddəti 1 dəqiqə 45 saniyə olur”.

Növbəti mərhələdə Telefon Məlumat Mərkəzinin operatorlarının sayını artırmaq nəzərdə tutulub.

### Vətəndaşlarla sosial media vasitəsi ilə ən yaxşı əlaqə quran nazirlik

Təhsil Nazirliyi vətəndaşlarla işə xüsusi diqqət yetirir. İstər təhsil sahəsində həyata keçirilən islahatlar barədə təhsil ictimaiyyətinin məlumatlandırılması, baş verən yeniliklərin mahiyyətinin çatdırılması, istərsə də bildirilən iradların müzakirə olunaraq nəzərə alınması baxımından vətəndaşların Təhsil Nazirliyi ilə yarada biləcəyi bütün əlaqə vasitələri işlək vəziyyətdədir. Üstəlik, bu əlaqə, sadəcə ənənəvi - zəng və ya şəxsən müraciət yolu ilə deyil, həm də yeni media üzərindən gerçəkləşdirilir. Bu da nəticə. Dekabrın başa çatmaqda olan son həftəsində bütün mətbuat vasitələri məhz bu nəticədən danışıb. Belə ki, sosial medianın “Facebook”, “Twitter”, “Instagram”, “YouTube” kimi imkanlarından istifadədə də Təhsil Nazirliyi mərkəzi icra hakimiyyəti orqanları arasında ən fəalı olub.

Məlumat üçün qeyd edək ki, “Facebook” sosial şəbəkəsində Təhsil Nazirliyinin izləyicilərinin sayı ötən illə müqayisədə 2018-ci ildə 20 min nəfər artıb. Artıq 100144 nəfər izləyicisi olan qurum bu sosial şəbəkənin verdiyi bütün imkanlardan yararlanır. Yeniliklərlə bağlı paylaşımlar edir, həyata keçirilən islahatları canlı yayımda müzakirəyə çıxarır, sosial şəbəkə istifadəçilərinin suallarına cavab verir, tədbirləri “canlı yayım” vasitəsi ilə paylaşırlar.

“Twitter” Azərbaycan məkanında “Facebook” qədər məşhur olmasa da, Təhsil Nazirliyi bu sosial şəbəkənin verdiyi fürsətləri də dəyərləndirir. Hesablamalara görə, Təhsil Nazirliyini 1336 “Twitter” izləyicisi mütəmadi olaraq izləyir.

“Instagram”da Təhsil Nazirliyi 25425 izləyicinin diqqət mərkəzindədir. Bu rəqəm Təhsil Nazirliyini “Instagram”da da dövlət orqanları arasında ən fəal kimi göstərməyə yetib.

“YouTube” üzrə 8866 abunəçi və 2 milyona yaxın baxış sayı ilə ön sırada Təhsil Nazirliyidir. Bu şəbəkədən ən çox video yükləyən və ən çox paylaşım edən qurumun 10 minə yaxın video yüklədiyi görünür.

Onu da qeyd edək ki, hazırda Azərbaycanda “Facebook”, “Twitter”, “YouTube”, “Instagram” və digər sosial şəbəkələrdə istifadəçilərin sayı 2 milyondur.

### Təhsil Nazirliyi hər sahədə əlçatan olmağa çalışır

Bir sözlə, dövrün nəbzini tutan Təhsil Nazirliyi istər ənənəvi yollarla, istər də müasir üsullarla müraciət etmək istəyənlərə yaxın olmağa çalışır, məlumat almaq istəyənlərlə də, şikayəti olanlarla da bir platformada görüşür. Yetər ki, kimsənin beynində qaranlıq məsələ, ürəyində cavabsız sual qalmasın.

# Respublika çempionatının növbəti zona yarışları keçirilib




Məktəblər arasında respublika çempionatının proqramına əsasən, qızlardan ibarət məktəb komandaları arasında voleybol idman növü üzrə növbəti zona yarışı keçirilib. Göyçay Olimpiya İdman Kompleksində keçirilən oyunlarda Balakən, Zaqatala, Qax, Şəki, Qəbələ, Oğuz, İsmayıllı, Şamaxı, Göyçay, Ağdaş, Ağsu rayonlarının məktəb komandaları mübarizə aparıb. Yarışların nəticəsi olaraq I yeri Şəki rayonu Böyük Dəhnə kənd 2 nömrəli, II yeri Ağdaş rayon Yuxarı Nemətabad kənd, III yeri Balakən rayon Şərif kənd 1 nömrəli tam orta məktəblərin komandaları tutub.

Daha bir zona yarışı basketbol idman növü üzrə Şirvan Olimpiya İdman Kompleksində keçirilib. Yarışlarda Hacıqabul, Şirvan, Sabirabad, Saatlı, Kürdəmir, Ucar, İmişli, Zərdab, Beyləqan, Ağcabədi, Füzuli, Laçın, Xocavənd rayonlarının məktəb komandaları mübarizə aparıb. Nəticədə I yeri Şirvan şəhər 9 nömrəli tam orta məktəbin, II yeri Sabirabad rayon 2 nömrəli Beynəlmiləl Təbiət və Texniki təmayüllü məktəb-liseyin, III yeri Beyləqan rayon Bahar kənd tam orta məktəbinin komandaları tutub.

Çempionatın əsasnaməsinə uyğun olaraq, zona yarışlarında I və II yeri tutan komandalar final mərhələsinə vəsiqə qazanıb.

Yarışların açılış mərasimində tərəfdaş qurumların, idman ictimaiyyətinin nümayəndələri iştirak edib.

Qaliblərə diplomlar təqdim olunub.

Məktəblər arasında respublika çempionatı 26 sentyabr 2018-ci il tarixində Təhsil, Gənclər və İdman nazirlikləri, Milli Olimpiya Komitəsi, Azərbaycan Məktəb İdmanları Federasiyası tərəfindən imzalanmış birgə əmrə əsasən keçirilir.

2018-2019-cu tədris ili ərzində keçiriləcək çempionatda Təhsil Nazirliyinin tabeliyində fəaliyyət göstərən rayon və şəhər ümumtəhsil müəssisələrinin komandaları şahmat (2-4-cü siniflər), atletika (5-7-ci siniflər), voleybol (qızlar, 7-9-cu siniflər), basketbol (oğlanlar, 9-11-ci siniflər) idman növləri üzrə mübarizə aparacaq. Şahmat və atletika idman növü üzrə keçirilən yarışlar ölkədaxili xarakter daşıyır, voleybol və basketbol idman növləri üzrə keçirilən yarışların qalib məktəb komandaları məktəblərin dünya çempionatında ölkəmizi təmsil etmək hüququ qazanır.

## Şəki, Gəncə, Mingəçevir şəhərlərinin fəal tələbə-könüllüləri ilə görüş

Təhsil Nazirliyinin “Bir” Tələbə-Könüllü proqramı tərəfindən region tələbə-könüllüləri ilə mütəmadi görüşlər keçirilir.

“Bir” Tələbə-Könüllü proqramının nümayəndələrinin tələbə-könüllülərlə növbəti görüşü Mingəçevir, Şəki, Gəncə şəhərlərində keçirilib. Görüşlərdə proqramın növbəti il üçün tədbirlər planı, fəaliyyət istiqamətləri müzakirə olunub və “Bir” könüllülər üçün yaradılan imkanlar, onların üstünlükləri haqqında məlumat verilib. Görüş zamanı proqrama yeni qoşulan tələbə-könüllülərin seçimi də baş tutub.

“Bir” Tələbə-Könüllü proqramı Bakı, Sumqayıt, Gəncə, Mingəçevir, Şəki, Masallı, Lənkəran daxil olmaqla 7 bölgədə təmsil olunur. Hər bölgənin tələbə-könüllülərinin şəxsi inkişafı, dünyagörüşünün genişləndirilməsi, könüllülük fəaliyyətinə marağın artırılması məqsədilə mütəmadi təlimlər, seminarlar və görüşlər keçirilir.

“Bir” Tələbə-Könüllü proqramı milli könüllü platforması kimi 20000-ə yaxın vahid tələbə-könüllü bazasına malikdir. Tələbələrin şəxsi inkişafı və asudə vaxtlarının səmərəli dəyərləndirilməsi üçün 6 istiqamətdə fəaliyyət göstərən proqram tərəfindən indiyədək 400-ə yaxın yerli və beynəlxalq tədbirə könüllü və təşkilati dəstək verilib. “Bir” könüllü olmaq istəyən tələbələr *www.konullu.edu.az* saytı vasitəsilə qeydiyyatdan keçə və proqrama qoşula bilərlər.



Stefaniya Djannini

Məlum olduğu kimi, ötən əsrin ortalarında Birləşmiş Millətlər Təşkilatının Elm, Təhsil və Mədəniyyət üzrə ixtisaslaşmış qurumu olan YUNESKO-nun əsası qoyulub. Bu münasibətlə dünya ölkələri arasında elm, təhsil, mədəniyyət sahələrində dialoqa imkan yaradan YUNESKO-un təhsilin planlaşdırılması Beynəlxalq İnstitutunda keçirilmiş onlayn müzakirələrdə iştirak edən İtaliya və Fransanın keçmiş təhsil nazirləri öz ölkələrində təhsil islahatlarının hazırlanması prosesində qarşılaşdıqları problemlər barədə danışıblar. Hazırda təşkilatda yüksək vəzifələr tutan sabiq nazirlər İtaliyada və Fransada təhsil siyasətinin mümkün perspektivləri haqda fikirlərini bölüşüblər.



Nadjad Vallo-Belkasem

# Təhsil siyasətinin perspektivləri

**Oruc MUSTAFAYEV**

## İtaliya və Fransanın sabiq təhsil nazirləri təcrübələrini bölüşüblər

### Sabiq təhsil nazirləri: tanıtım

*Stefaniya Djannini* - İtaliyanın keçmiş təhsil naziri, hazırda YUNESKO baş direktorunun təhsil üzrə köməkçisidir. S.Djannini öz karyerasını insanın ömürboyu öyrənməsi kimi əsas hüquqlarından olan təhsilin təşviqinə həsr edib. Dilə, mədəniyyətə yiyələnmək, özünəməxsusluğu saxlamaqla fikrini azad ifadə etmək. Bütün bunlar, onun fikrinə görə, daha mükəmməl və bərabərhüquqlu cəmiyyətin inkişafı üçün vacibdir. Humanitar elmlər (PhD in Linguistics) sahəsində akademik hazırlıq nəticəsində o, 1992-ci ildə linqvistika professoru, 2004 - 2012-ci illərdə isə Peruca Universitetinin rektoru (İtaliyada ilk gənc qadın-rektorlardan biri!) olub. 2014-cü ilin iyul-dekabr aylarında Avropa İttifaqının təhsil və rəqabətə davamlılıq məsələləri üzrə Şurasına sədrlik edib. S. Djannini radikallaşma və ekstremizmin qarşısının alınması üçün əhalinin müxtəlif qrupları arasında dialoq aləti kimi yaradıcılığın, mədəni irsin və innovasiyaların əhəmiyyətinin artırılması məsələləri üzərində çalışıb. İtaliya Respublikasının senatoru (2013-cü ildən 2018-ci ilə qədər) və təhsil naziri (2014-cü ildən 2016-cı ilə qədər) kimi o, İtaliya təhsil sisteminin struktur islahatını hazırlayıb və tətbiq edib. Bu yeniliklərin hədəfi mədəniyyət sahəsində sosial inteqrasiya və maarif idi.

*Nadjad Vallo-Belkasem* - Fransanın keçmiş təhsil naziridir. 2018-ci ildən YUNESKO baş direktorunun müavinidir, "Ipsos Group"da beynəlxalq tədqiqatlar və sosial innovasiyalara cavabdeh şəxsdir. "Fayard" nəşriyyatında "Raison de plus" agentliyinə başçılıq edir. Təhsilinə görə hüquqşünasdır. Onun birinci vəzifəsi - inzibati ədalət məsələləri üzrə Fransa Ali məhkəməsində, dövlət şurası yanında hüquq şirkətində hüquqşünas köməkçisi olub.

2000-ci ilin başlanğıcında, yerli siyasətdə karyeraya başlayıb və bir neçə seçki kampaniyası keçirib. 2008-ci ildə Lion şəhər icmasının məsləhətçisi olub. 2008-2012-ci illədə Vallo-Belkasem Lion merinin gənclər və ictimai təşkilatlarının tədbirlərinin təşkili üzrə müavini vəzifəsini tutub. Milli səviyyədə o, 2007-ci ildə Seqolen Ruayal və 2012-ci ildə isə Fransua Ollandın prezident seçkilərində namizədliyi üzrə təmsilçisi olub. 2012-ci ilin mayında Nadjad Vallo-Belkasemi qadınların hüquqları üzrə nazir və hökumət nümayəndəsi təyin edilib. Sonra o, gənclər və idman naziri olub. 2014-cü ildən 2017-ci ilə qədər Fransanın Milli Təhsil, Ali Təhsil və Tədqiqatlar Nazirliyinə başçılıq edib.

### Təhsil naziri olmaq nə deməkdir?

*Stefaniya Djannini:* - Mən bilmirdim, nazir olmaq nədir. Amma indi deyə bilərəm ki, bu vəzifə çox təhlükəlidir, köpək balıqlarıyla qaynaşan hovuzda üzməkdən daha təhlükəlidir. Və mən zarafat etmirəm! Axı əgər sən bütün ölkənin təhsili ilə məşğulsansa, onda bu və digər formada hər bir insanın taleyinə cavabdehsən. Səmimi etiraf edirəm, mən bu sahənin xəstəsi oldum.

Təhsil - cəmiyyətin fəaliyyətinin əsas sferalarından biridir. O, bizə ətrafımızdakı dünyanı anlamağa, bu dünyada özünü tapmağa, insanları daha yaxından tanımağa imkan verir. Mən başladığım işin bu qədər təhlükəli olacağını düşünmürdüm, amma biz sağ qaldıq *(gülür)*.

Təhsil naziri kimi mən özüm üçün nəticə çıxardım: təhsil hər şeyin əsasıdır. Ölkənin təhsil problemlərinin müzakirəsini beynəlxalq səviyyəyə çıxarmaq kifayət qədər çətindir, çünki çox məsələləri həll etmək lazımdır. Bu çətinliklərin öhdəsindən gəlinməsi üçün Avropa cəmiyyətləri, institutlar, təşkilatlar mövcuddur. Məhz bu platformalarda biz qlobal çağırışları müzakirə edə bilərik.

*Nadjad Vallo-Belkasem:* - Yalnız maarif nazirinin yox, istənilən nazirin qarşısında inanılmaz dərəcədə böyük miqdarda vəzifə və onların həllinə son dərəcə az vaxt var. Mən Fransanın təhsil naziri olandan sonra "65 milyon insanın fikirlərini necə nəzərə almaq olar" deyə qorxurdum. Amma bizim üçün ictimai rəyi, hətta əgər o, həmişə dövlət qulluqçularının fikirləri ilə uyğun gəlmirsə belə, nəzərə almaq çox əhəmiyyətlidir. Biz inkişaf etmiş dövlətin maarif sahəsinə girişdik, onu təkmilləşdirmək, nə isə yenisini tətbiq etmək və eyni zamanda mövcud olanı saxlamaq istəyirik.

### Təhsil siyasətinin vəzifələri haqqında

Hər iki nazir 2014-cü ildə bu vəzifəyə təyin olunub. Bu, təhsilin inkişafının nəticələrinin yenidən qiymətləndirilməsi, davamlı inkişafın yeni mexanizmlərinin tətbiqi dövrüdür. Amma qlobal məsələlərin müzakirəsi İtaliyanın və Fransanın təhsil siyasətinə təsir etdimi?

### "Ən əhəmiyyətli vəzifə məktəb sistemini dəyişdirmək idi"

*Stefaniya Djannini:* - Mənim nazirliyimə, ölkəmə gəlincə, bizim üçün əksəriyyətin təhsil sisteminin özünün inkişafına cəlb olunması prosesinə başlamaq vacib idi. Mən indi vətəndaşlar haqqında, təhsil vahidləri haqqında danışıram, hansılar ki, milli təhsili birlikdə formalaşdırırlar.

İtaliya - rəngarəng ölkədir, onun hər şəhərində insanlar fərqli yaşam tərzinə malikdir, biz bunu, məsələn, məktəb sistemində də müşahidə edə bilərik. Əhəmiyyətli fərqlər və hətta bərabərsizliklər var. Bizim üçün ən əhəmiyyətli vəzifə məktəb sistemini dəyişdirmək, onu daha açıq, inklüziv etmək idi. Məktəb şəffaf olmalıdır. Mən onu nəzərdə tuturam ki, müəllimlərin və uşaqların çoxunun məktəb və sinifdən kənarda nələrin baş verməsi barədə təsəvvürləri yoxdur. Biz anlamağa çalışırdıq ki, niyə belə olur? Biz öyrənməyə çalışdıq ki, müəllimlərin diqqətinin daha dar məsələlərə yönəlməsi ilə necə mübarizə aparmaq olar və zəruri nəticə çıxartdıq.

Bizim əsas vəzifəmiz inklüziv və bərabərhüquqlu cəmiyyət yaratmaqdır. Biz uşaqlara və pedaqoqlara standartların sərhədlərindən çıxmağa imkan verməliyik. Həmçinin ailələri, valideynləri də maksimum dərəcədə bu prosesə qoşmaq lazımdır.

### "Hədəflərimiz davamlı təhsildir"

*Nadjad Vallo-Belkasem:* - Stefaniya ilə razılaşacağam, çünki Fransada da oxşar proseslər baş verirdi. Və bu mənim üçün baş ağrısıdır. Ölkənin vacib problemlərini insanlara çatdırmaq və onları dövlətin daxilində həll etməyə çalışmaq lazımdır.

Bizim hədəfimiz - davamlı təhsildir. Bizə Afrikada aclıq çəkənlər üçün su və yemək kimi keyfiyyətli təhsil lazımdır. Buna görə biz müzakirələr aparır və başqa ölkələrdə nələrin baş verdiyini müşahidə edirik. Sonra təhsilin inkişaf planını hazırlayırıq. Amma bizi gah bəyənirlər, gah söyür və gah da ittiham edirlər.

### "Cəmiyyət üçün açıq məktəb yaratdıq"

*Stefaniya Djannini:* - Təhsildə islahtlar, bu, çox, bəlkə də daha artıq dərəcədə ambisiyalı layihə idi, çünki nələrisə planlaşdırmaq və nəticəni hiss etmək istəyirsənsə, təhsildə çox şeyləri diqqətə almaq lazımdır. İtaliyada pedaqoqların daimi təkmilləşdirmə sistemi yarandı.

Mən bunun üçün mübarizə aparmağı bacardım! Müəllimlərin və pedaqoqların keyfiyyətli hazırlığı birbaşa iş şəraitindən, öz bilik və bacarıqlarını daim yeniləşdirmək imkanlarından asılıdır.

Bilik - bu heç də universitetdə və bütün ömür boyu öyrəndiklərin deyil, o daim tamamlanma, əlavələr, biliklərin həyat fəaliyyətinin müxtəlif sahələrində tətbiqini tələb edir. Bunun üçün biz təlimlər, təcrübələr təşkil edir, uşaq bağçalarında, məktəblərdə, universitetlərdə, təhsil mərkəzlərində müxtlif üsullarla maarifləndirici proqramlar keçiririk.

Pedaqoqların tyutorları var, hansı ki, daimi əsasda onlarla işləyirlər. Daha vacib bir məqam - biz cəmiyyət üçün açıq məktəb yaratdıq. Bu məsələdə ictimai institutlar bizə çox kömək edir.

Yeri gəlmişkən, bizim arxeoloji qazıntılarla məşğul olan bir şirkətlə maraqlı layihəmiz var idi. Bu layihədə 15 məktəb iştirak edirdi, şagirdlər, müəllimlər, inzibati heyət üzvləri - hamı arxeoloji tədqiqatlar sahəsində peşəkar bir komandada cəmləşmişdi. Uşaqlar layihədən razı, müəllimlər narazı, ictimai rəy isə tamamilə bunun əleyhinə idi.

### "Fənlərarası praktik təhsili tətbiq etdik"

*Nadjad Vallo-Belkasem:* - Nə vaxt ki, mən təhsil naziri oldum, təəccübləndim ki, mənim həmkarlarım, tabeçiliyimdə olanlar çox sayda məsələri müzakirə edir, amma onlardan heç biri bizim uşaqlarımızın gələcəyi mövzusuna toxunmurdu.

Hər gün mən təxminən 50 insanla ünsiyyət saxlayırdım, biz birlikdə işləyirdik, müşavirələrə qatılır və mübahisə edirdik, amma mənim təhsil naziri kimi fəaliyyət müddətimin birinci iki həftəsi ərzində onlardan "uşaqlar" sözünü eşitmədim.

2012-ci ildə Fransada təhsil nəticələri, yumşaq desək, pis idi: 100 - 140 min məktəbli və tələbə məktəbi və universitetləri atmışdı, həyata əliboş atılırdı. 2015-ci ilə doğru vəziyyət gözəçarpacaq dərəcədə yaxşılaşdı.

Mənim islahatımın hədəfi - təlimin pedaqoji metodlarını tamamilə dəyişdirməkdir. Bütün məktəblilər, tələbələr eyni keyfiyyətli təhsil almalıdır. Buna görə də biz prioritetli təhsili, orta məktəbi islah etdik, yaşı 6-dan 15-ə qədər uşaqlar üçün tədris planlarını təkrar gözdən keçirdik və fənlərarası praktik təhsili tətbiq etdik.

Biz sistemi elə müasirləşdirməyi bacardıq ki, uşaqlar məktəbdən eyni bilik yükü ilə çıxsınlar.

### Pedaqoqların həmkarlar ittifaqları: islahatlara reaksiya

*Bu mövzuda hər iki nazir demək olar ki, eyni düşünür.*

Fransada və İtaliyada təhsil həmkarlar ittifaqları - ən mühafizəkar orqanlardan biridir. Müəllimlər təhsilin mövcud modelini ona görə saxlamağa üstünlük verirlər ki, risk etməkdən qorxurlar. İstənilən dəyişiklik - əvvəldən heç nəylə haqq qazandırılmamış riskdir.

Müəllimləri həmçinin anlamaq olar, axı rəhbərlik onlara nə deyəcək, o cür edəcəklər. Müvafiq olaraq, bütün zərbə onlara düşür. Amma nə vaxt ki, dəyişikliklər ən yaxşı tərəfə dəyişir, onları birinci olaraq müəllimlər özlərində hiss edirlər.

Pedaqoqlardan bəziləri yeniliklərə sevinirlər, başqaları istənilən növ sınağa qarşı fikir bildirirlər. Nazirlərə yeniliklərin tərəfdarları və əleyhdarlarının hüquqlarını məhdudlaşdırmadan hər kəsin fikrini nəzərə almaq əhəmiyyətlidir.

Debatların sonunda Stefaniya Djannini universallıq və qloballaşma prinsipini, yəni bütün dünya ölkələri və xalqlarının qarşılıqlı asılılığını qeyd edib. Onun sözlərinə görə, YUNESKO bəşəriyyətin qlobal problemlərinin, hədəflərin və istiqamətlərin düzgün müzakirə edilməsinin mümkün olduğu yerdir.

# Müqayisə




**Sənan NƏCƏFOV**

Rayonlardan birində təlimdə idim. Orta məktəb şagirdləri üçün fərdi inkişaf, özünüdərketmə, uğur, motivasiyadan danışırdım. Təlimin yekununda bir müəllim "niyə xaricilərdən misal çəkirsiniz? Özümüzünkülər heç də onlardan geri qalmırlar, özümüzdən danışın" - deyə şikayət etdi. Normal qarşılanmalı irad idi. Amma elə dərhal əlavə etdim: "Pedaqoji fəaliyyətinizin 21 ilində yetişdirdiyiniz bir İlon Mask, Luiza Key göstərin, ondan danışım".

***

Bu hadisəni Qazaxıstanın keçmiş kənd təsərrüfatı nazirinin oğlu onunla bir yerdə Londonda təhsil alan azərbaycanlı tələbəyə danışmışdı. Azərbaycanlı tələbə ilə söhbətimdə bunları eşitdim:

- Növbəti tətillərdən birində Londondan Vətəninə qayıdan qazax tələbəyə valideynləri, dost-tanış suallar verir, iki ölkə arasında fərqləri soruşur, oradakı həyatından danışmağı istəyirmişlər. Qazax tələbə danışırmış ki, Londonda iki ahıl ev sahibinin kirayəyə verdiyi evdə qalır. Halbuki daha komfortlu, şəraiti yüksək olan evdə qala bilər. Ümumiyyətlə, ingilislərlə qazaxlar arasında əsas fərqlərdən biri onların qənaətcil olmalarıdır. Lakin bu o demək deyil ki, ingilislər həyatın ləzzətini çıxarmaqdan, yaxşı istirahətdən, özlərinə qulluq etməkdən uzaq qalıblar. Sadəcə, ingilislər pullarını biz qazaxlar kimi havaya sovurmurlar. Qazax gənc öz qohumlarına danışır ki, ev sahiblərinin üç otaqlı mənzilləri var. Özləri 2 kiçik otaqda qalır, digər otağı xarici tələbələrə kirayəyə verirlər. Hətta ahıl ev sahibəsi tələbələr üçün səhər və axşam yeməyi də hazırlayır ki, bu da əlavə gəlirdi. Ən maraqlısı, ev sahibləri yay tətilində harasa getdiklərində evlərini tam olaraq kirayə verib, əlavə qazanc əldə edirlər.

İndi bizim ailəyə baxaq. 3 mərtəbəli evimiz var. Evdə hər cür şərait yaradılıb. Niyə və nəyə görə? Biz hərəmiz bir ölkədə təhsil alır, yaşayırıq, qohumlar isə il ərzində maksimum 10 dəfə qonaq gələrlər, ya yox. O saysız-hesabsız otaqlara anamdan başqa baş çəkən olmur, o da təmizlik işləri, daha dəqiqi, toz basmış mebelləri silmək üçün, vəssallam. Amma bütün bunlar hamısı əlavə xərcdir.

Onun atası oğlunun bu düşüncəsilə heç cür razılaşmır: Axı, qazax kiçik evdə yaşaya bilməz. Bu, onların düşüncəsinə yaddır.

İngilislər çalışırlar ki, geyimə çox pul xərcləməsinlər. Adətən belə bazarlığı böyük endirimlər zamanı, çox ucuz və keyfiyyətli mallara sərf edirlər. Onlar e-shoplardan daha çox yararlanır və az qala hər penslərinin qədrini bilirlər.

Bəs ərzaq? Maşallah, qazax məclislərində qonaqlıqların və qonaqların sayı-hesabı olmur. Bundan əlavə, gündə 3 dəfə bir ailənin ehtiyacından çox yemək hazırlanır. Heç də hamısı yeyilmir, ərzaq boyatlaşır və zibilliyə atılır. Amma ingilislər üçün bu, doğrudan da əlavə xərc və sağlamlığa qarşı düşmənçilikdir. İngilislər deyirlər ki, bizim zibilliyə atdığımız ərzaq və təamlarla Afrikada, eləcə də Yaxın Şərqdə aclıqdan əziyyət çəkən yüzlərlə, minlərlə insanı doyuzdurmaq olar.

Əlbəttə, qonaqpərvər qazax üçün bunlar anlaşılan deyil. Bizim qonaqlıqlarda azından 20-50 nəfər iştirak etmədisə, o nə məclisdir? Hələ toylarımız. 400 nəfərdən az qonağın gəldiyi toy ev sahibi üçün ayıbdır. Stolun üstündə nə olmur ki? Hansı təamdan azı 3 növ qoyulmur ki? Belə baxanda qınamalı da deyil, çünki bizim çağırdığımız qonaq övladları, qardaşı, bacısı, bacısı uşaqları və hətta qonşusu ilə də gələ bilər. Qonaqpərvərik axı. Bu haqda ingilislərə danışsaq, onlar intihar edərlər.

Qazax tələbə danışır ki, ingilislər qonaq dəvət edərkən siyahı tuturlar. Dəqiq bilirlər ki, kim gələcək və nə yeyəcək. "Bu gün 15-20 qonağımız olacaq" cümləsi, təsəvvürü mümkün deyil, çünki onlar üçün dəqiq rəqəm var, misal üçün, bu gün 15 nəfər gələcək.

Bəli, Böyük Britaniyada digər Avropa dövlətlərində olduğu kimi kommunal xidmətlər çox bahadır. Buna görə evi tam qızdırmaq, kombi sistemi quraşdırmaq, istilikverici əlavə cihaz qoymaq, işıqların hamısını eyni zamanda yandırmaq ingilis üçün təsəvvür olunmazdır. Hələ 64, 128 lampalı çilçırağı demirəm, muzey və ya rəsmi dövlət qəbulu keçirilən salon deyil ki, evdə istifadə edələr?

Qazax tələbənin bu fikir və yanaşmasına atası etiraz edir. O, bildirir ki, suyu, işığı və digər kommunal xərcləri öz cibindən, halal qazandığı pulla ödəyir. Bəli, doğrudur.

Bax, ən böyük qəribəlik də elə bundadır. Atam bununla demək istəyir ki, başqaları kimi sayğaca "müdaxilə" etmir, işıq və suyun pulunu vaxtında ödəyir, borcu olmur. Yaxşı! Məsələ bundadır ki, biz suyu əbəs yerə kanalizasiyaya buraxırıq, mənasız yerə işıq yandırırıq, artıq qalan ərzağı zibilliyə atırıq, bununla da biz özümüzdən oğurluq edirik. Min cür əzab-əziyyətlə qazanılan pulu niyə boşuna xərcləyirik axı? Bu ölkədə biz tək deyilik. Bizim kimi onlarla, yüzlərlə, minlərlə ailə var. Görün ölkədə nə qədər istehsal olunan, emal olunan, çıxarılan resursumuzu hədər xərcləyirik?

İngiltərədə təhsil alan qazax tələbənin düşüncəsinə görə, belə xırdalıqlar ölkə iqtisadiyyatına təsir edir. Hər damcı, hər kilovat, hətta əbəs yerə yandırılan kibrit çöpü sonradan həyat tərzinə çevrilir.

Bütün bu xırdalıqlar, xəsisliklər ingilislər üçün həyat tərzidir və onları narahat etmir, əskinə, norma sayılır. Qazax tələbə təəssüflə deyir ki, bütün bu izahlardan sonra atası ingilislər kimi yaşaya bilməyəcəyini bildirib.

Atama dedim ki, onda əvvəlki kimi yaşa, amma bundan sonra ingilislər bizdən yaxşı yaşayırlar, istirahət etməyi bacarır, inkişaf edirlər deyib şikayət etmə. Bundan sonra onların həyat səviyyəsi ilə bizim həyat səviyyəmiz arasında fərqi görüb təəccüblənmə. Başqa qazaxlara da demək lazımdır ki, onlarda komfortlu məişətdən həsədlə danışmasınlar. Deməsinlər ki, niyə ingilis təqaüdçülər öz hesablarına bütün dünyanı gəzir, istirahət edir, bizimkilər isə kəndlərdə həyatyanı sahədə kartof becərir, torpaq sahəsini fermerə icarəyə verib, onun ilin sonunda verəcəyi qəpik-quruşa göz dikir. Yaxşı yaşamaq istəyiriksə, həyat tərzimizi dəyişməliyik, kompleks yanaşmalıyıq. Onların adi saydığı şeyi biz qeyri-adi qarşılamamalı, onlar üçün qeyri-adi olanları biz etməməliyik. Nə qədər geniş düşünəriksə, uğurlarımız o qədər çox olar.

**Atama dedim ki, onda əvvəlki kimi yaşa, amma bundan sonra ingilislər bizdən yaxşı yaşayırlar, istirahət etməyi bacarır, inkişaf edirlər deyib şikayət etmə. Bundan sonra onların həyat səviyyəsi ilə bizim həyat səviyyəmiz arasında fərqi görüb təəccüblənmə. Başqa qazaxlara da demək lazımdır ki, onlarda komfortlu məişətdən həsədlə danışmasınlar.**

***

Qayıdaq söhbətin əvvəlində qeyd etdiyimiz müəllimin iradına. Hörmətli müəllimlər, əziz soydaşlar, belə düşüncəli gənclərimiz var, etirazım yoxdur. Amma bizim o qazaxdan fərqimiz nədir? Əslində, bu yazını çex cəmiyyəti ilə özümüz arasında müqayisəli yaza bilərdim. Sadəcə, özümüzü müqayisə edəndə "bizimkilər"in məsxərəsi adamı dediyinə peşman edir. Tbilisinin meri Kaxa Kaladzenin çəkməli şəklini paylaşıb fəxrlə danışanlar bizim kənd təsərrüfatı nazirinin tarlaya çəkməli səfərinə yumorla yanaşdıqları kimi.



# Kooperativ məktəb-formal kooperativ öyrənmə

**Mehriban MƏMMƏDOVA,**
*Bakı şəhəri 309 nömrəli tam orta məktəbin tərbiyə işləri üzrə direktor müavini, ingilis dili müəllimi*

**Bu tip təhsil formaları nəzəri biliklərin praktiki vərdişlərə, səriştəyə çevrilməsinə geniş imkanlar yaradır**

Üzvləri arasında əməkdaşlıq olmayan heç bir cəmiyyət xilas ola bilməz. İnsan cəmiyyəti onun üçün xilas olmuş və sağ qalmağı bacarmışdır ki, bu cəmiyyətdə insanlar əməkdaşlıq şəraitində yaşayır. Fərdi həyat heç bir halda məhsuldar olmaz. İnsan cəmiyyətində o fərdlər xilas olur ki, onlar ünsiyyət qurur, əməkdaşlıq edir və qrup fəaliyyətində olurlar.

*Ashley Montagu*

Təhsil prosesi də məhz bu cürdür. Ünsiyyət, əməkdaşlıq, qarşılıqlı əlaqə, inteqrasiya olmadan məqsədlərə və hədəflərə nail olmaq qeyri-mümkündür. Öyrənmədə kooperativlik zərurəti məhz bu prizmadan doğur. Kooperativ öyrənmə hazırda dünya praktikasında qəbul olunan və geniş tətbiq edilən tədris formasıdır. Bu barədə ideyalar ilk dəfə Amerikada 20-ci əsrin əvvəllərində yaranıb. Getdikcə formalaşıb, təşəkkül tapıb və dünyaya yayılıb.

Hazırda dünya təhsil sistemində, məktəblərin təşkilati strukturunda kollektiv və fərdi öyrənmə formasından sürətlə qrup şəklində öyrənməyə inteqrasiya gedir. Elə məhz bu cür qrup əsaslı quruluş dünya praktikasında kooperativ məktəb kimi tanınır.

Müasir öyrənmədə belə bir ideologiya var: "Hər kəs öz enerjisini qrupla bölüşməli, heç kəs tək qalmamalıdır". Bu fikir indi geniş şəkildə tədrisə tətbiq edilir. Təqribən bir əsrə yaxın bir müddətdə müəllimlər öz otaqlarında, öz şagirdləri ilə məktəbin digər hissəsindən təcrid olunmuş bir vəziyyətdə dəyişilməz kurikulum və sabit metodologiya əsasında tədris aparmışlar. Şagirdlər təsadüfi bir şəkildə siniflərə bölünür, müəllimlər də eyni şəkildə təyin edilirdilər. Çünki təhsildə də bərabər yanaşma prinsipi əsas götürülür, bütün şagirdlər eyni texniki gedişlə öyrədilirdi. Sonralar, artıq kəmiyyət deyil, keyfiyyət məsələsi üzərində fokuslaşmaq zərurəti yarandıqda kollektiv və fərdi öyrətmə mexanizmlərindən kooperativ və qrup əsaslı öyrənməyə keçid başladı. Hər hansı bir təşkilatda heç bir irəliləyişin qeydə alınmaması, zamanla uğursuzluğun daha da dərinləşməsi artıq problemin o təşkilatda çalışan ayrı-ayrı fərdlərdə deyil, müəssisənin təşkilati strukturunda olması qənaətini yaradır. Məktəb də məhz bu cürdür. Müəllim baxışını, şagirdə yanaşmasını, öyrətmə texnikasını o zaman dəyişmək mümkün və asan olur ki, bu dəyişikliklər ilk öncə məktəbin, daha sonra isə ümumilikdə təhsil sisteminin təşkilati quruluşunda əks edilsin.

Kooperativ öyrənməni bəzən kiçik qruplarda öyrənmə də adlandırırlar. Lakin bu metodika adi qruplarla işdən çox fərqlənir. Heç də bütün qrup fəaliyyəti kooperativ sayılmır. Şagirdləri eyni bir otağa toplamaq, birgə əyləşdirmək, onlara qrup olduğunu söyləmək əslində onların işi birgə görəcəyi, kooperativ çalışacağı və əməkdaşlıq edəcəyi anlamına gəlmir. Kooperativ öyrənmə forması bu problemləri aradan qaldırır. Kooperativ öyrənmənin iki forması var:

1) Formal kooperativ öyrənmə;

2) İnformal kooperativ öyrənmə.

Formal kooperativ öyrənmə uzun müddət üçün, qabaqcadan müəyyən edilmiş məqsədlər uğrunda, öncədən hazırlanmış kurikulum əsasında, kooperativ qruplarda öyrənmə şəklində həyata keçirilir. İnformal kooperativ öyrənmədə isə bir dərsin müəyyən bir hissəsində, qısa vaxt ərzində şagirdlərin hər hansı bir tapşırığı kooperativ qruplarda öyrənməsi nəzərdə tutulur. Formal kooperativ öyrənmədə məktəb, rayon, hətta respublika səviyyəsində kooperativ öyrənməni təşkil edib, şagirdlər arasında əməkdaşlıq yaratmaq olar. İnformal kooperativ öyrənmədə isə əməkdaşlıq, sadəcə, sinif şagirdləri arasında yaradılır.

Formal kooperativ öyrənməni həyata keçirmək üçün kooperativ məktəblər yaradılmalıdır. Kooperativ məktəblərin quruluşu aşağıdakı kimi olur:

Kooperativ məktəb:

1. Məktəb əsaslı qərar qəbul edən kooperativ şura.
2. İnzibati heyət-səlahiyyətli qüvvələr.
3. Kooperativ kafedralar.
4. Kollegial tədris qrupları.
5. Kooperativ baza qrupları.

### Kooperativ baza qrupları

Kooperativ baza qrupları bu tip məktəbin ürəyidir. Kooperativ baza qrupları uzunmüddətli, sabit əməkdaşlığa əsaslanan öyrənmə qruplarıdır. Bu qruplar ya bir məktəbin, ya da bir neçə rayon məktəblərinin müxtəlif siniflərindən, hətta fərqli yaşlardan, fərqli səviyyələrdən olan şagirdlərdən təşkil edilir. Bu qruplar vərdiş etdiyimiz adi qruplardan fərqlənirlər. Bu qruplarda komandanın birgə səyindən başlamış, bir-birinin fikirlərinə, məntiqinə meydan oxumaq cəhdlərinə kimi bütün proses əvvəldən sona kimi şagidlərin öyrənmə bacarığının artmasına və tədrisin keyfiyyətinin yüksəldilməsinə xidmət edir. Bu şəkildə öyrənmə şagird nailiyyətini yüksəldir, şagirdlər arasında əməkdaşlıq yaradır və şagirdin psixoloji özünəinamını, özgüvənini artırır. Kooperativ öyrənmə innovasiyalara açıq, məntiqi və tənqidi təfəkkürü yüksəldən, aktiv oxu və yazı bacarığını artıran, riyazi düşüncəni formalaşdıran bir yanaşmadır. Əlavə olaraq bu metod müəllimlərin bir-birinə və şagirdlərinə olan münasibətini kökdən dəyişir və onları hər sahədə əməkdaşlığa şövq edir. Çünki öyrənmə zamanı təşviq edilənlər məcbur edir ki, qrup üzvləri bir-biri ilə sıx əlaqədə olsun.

Kollektiv tədrisin həyata keçirildiyi tədris müəssisəsində müəllimlər üfiqi (horizontal) əsasla işləyirlər (sinif dərəcələrinin pillə-pillə artması və fənlərin bir-birini əvəz etməsi). O sistemdə hər bir müəllim yalnız öz fənni üçün cavabdehdir. Sərhədlər müəllimləri ayırır, müəllimlər ümumi proqramın kiçik bir hissəsində fokuslaşıb qalırlar. Kooperativ məktəblərdə isə yanaşma fərqlidir. Kooperativ məktəblərdə komandalar təsadüfi bölünmür. Onlar öncədən vacib kompetensiyalar və müəyyən edilmiş meyarlar əsasında seçilib, qruplaşdırılır. Bütün mühüm işlər komandalar tərəfindən görülür. Müəllimlər vertikal (şaquli) əsasla işləyirlər. Bu metod müəllimləri ayıran sərhədləri qırır. Sinifdən-sinfə, fəndən-fənnə kritik keçidlər itir. Eyni bir komanda üçün məsuliyyət daşıyan bir qrup müəllim heyəti olur ( kollegial tədris qrupları). Müəllimlər özlərini bütün səylərin birləşmiş olduğu, eyni məqsəd üçün mübarizə aparılan bir prosesin içində tapırlar. Vertikal komandalar kurikulumu və tematik tədrisi inteqrasiya edir. Hər bir komanda hesabat yönümlü köklənir. Çünki uzun bir müddət eyni şagirdlər ilə işləyirlər. Heç bir müəllim vaxtını boş keçirmir. Anlayırlar ki, artıq şagirdin oxu, yazı və digər bacarıqlarının zəifliyində başqa müəllimləri günahlandırmaq şansları yoxdur, müəllimlər yaranmış hər bir çətinliyi özləri aradan qaldırmalı və hətta komanda daxilində hər hansı bir problemli şagird olarsa belə, onu cəmiyyətə qaytarmalı, ona akademik bilik və sosial bacarıq qazandırmalıdırlar.

Kooperativ baza qruplarında əməkdaşlığı həyata keçirmək üçün əsas 5 nüansı göz önündə tutmaq lazımdır:

1) Müsbət qarşılıqı əlaqə;

2) Fərdi və qrup hesabatlılığı;

3) Anlayışlı qarşılıqlı təsir;

4) Uyğun sosial bacarıqların seçilməsi və inkişaf etdirilməsi;

5) Qrup sterilizasiyası.

Kooperatv baza qruplarında şagirdlər öyrənməyə həvəsli olmalıdırlar. Birgə işləmək onlara sevinc, əyləncə bəxş etməlidir. Əvvəlki qrup sistemi ilə iş üçün xarakterik olan bəzi problemlər, məsələn, uğursuz təcrübə, qiymətləndirilmə qorxusu, rolların qrup üzvləri arasında düzgün bölüşdürülməməsi, tək işləmək arzusu, yoldaşı ilə rəqabət aparması və s. burada özünü büruzə vermir. Burada şagirdlərə 3 formatlı tapşırıqlar verilir: 1)motivasiya tapşırıqları (bir-birinin essesini yoxlamaq, ev tapşırıqlarında bir-birinə kömək etmək, bir-birini həvəsləndirmək); 2)şəxsən tanıma tapşırıqları (tədrisdənkənar ünsiyyət, sosial problemləri birgə çözmək); 3)rutin tapşırıqlar (qoyulmuş akademik problemin birgə həlli, testlərin cavablarının birgə tapılması və s.).

Kooperativ baza qruplarında aparılan tədrisdə müəllimin və şagirdlərin rollarında və funksiyalarında çox dəyişiklik olur. Öyrənməyə rəhbərlik yalnız müəllimin səlahiyyətində qalmır. Məqsəd qoymaq, öyrənməni qiymətləndirmək, təlimin fasilitasiyası həm də şagidlər tərəfindən aparılır.

Şagirdlərin daha çox şansı olur ki, diskussiyalar yaratsınlar, onu düzgün məcraya yönəltsinlər, fikirlərini bölüşsünlər, ideyalar irəli sürsünlər və öyrənmə prosesini daxililəşdirsinlər ki, bu da onlarda vacib kompetensiyaların formalaşmasına kömək edir. Akademik biliklərin qazanılması ilə yanaşı, bu növ təlimdə şagirdlərdə motivasiya, özünəhörmət və empati hissi yüksək olur.

### Kollegial tədris qrupları

Kollegial tədris qrupları kooperativ məktəblərin strukturunda müəllimləri birləşdirən komandalar-qruplardır. Sinif otaqlarında kooperativ öyrənmənin effekti o zaman yüksək olur ki, pedaqoji heyət kollegial tədris qruplarında birləşdirilir və birgə fəaliyyət göstərir. Kollegial tədris qrupları-kiçik kooperativ qruplardır ki, yaradılmasında məqsəd müəllimlərin təcrübə mübadiləsini və uğurlarını artırmaqdır. Kollegial tədris qrupları müəllimlərin işləməsi üçün arzuolunan və can atılan bir komanda olmalıdır. Orada dəstək, qayğı, gülüş, pozitiv enerji, xoş aura, qarşılıqlı əlaqə, yoldaşlıq, əməkdaşlıq var. Müəllimlər bir-birinin akademik biliyinin və metodikasının qarşılıqlı əməkdaşlıq və yoldaşlıq şəraitində inkişafını təmin edirlər. Heç kimin hüququ tapdanılmır.

Normal təhsil müəssisələrində müəllimlər bir-birindən təcrid olunur, çox yüklənir, bütün planlamanı özləri edirlər, digər kolleqaları ilə rəqabət içərisində olurlar, fikir mübadiləsi etməyə çəkinirlər, bilmədiklərindən utanır və bu üzdən özlərini təkmilləşdirə bilmirlər. Kollegial tədris qruplarında isə atmosfer tamamilə fərqlidir. Müəllimlər akademik və ya baxış bucağındakı boşluqlarını bir-birindən yararlanaraq doldururlar. Bu tədris qrupları müəllimlərə professional arenada sahiblik verir. Əməkdaşlıq şəraitində yaranmış baryerləri aradan qaldırmağa imkan verir. Kurikulumlardakı parçalanmanın qarşısını alır. Kollegial tədris qrupları 3 açar istiqamətdə fəaliyyət göstərir:

1) Tez-tez aparılan professional müzakirələr. Kolleqalar arasındakı qarşılıqlı əlaqə bu tip məktəblərdəki əməkdaşlıq mədəniyyətinin və peşəkar inkişafın artması üçün əsasdır. Kooperativ öyrənmənin məhiyyəti onun elementlərinin konseptual anlaşılması, başa düşülməsi ilə başlayır. Kooperativ öyrənməni necə tətbiq etməli? Kooperativ öyrənmədən hansı nəticələri gözləməli? İlk öncə bu suallar cavablandırılmalıdır. Müəllimlər istifadə edəcəkləri strategiyaları düzgün müəyyən etməli və bunu müxtəlif fənlərin tədrisində şagirdlərə mənimsətməlidirlər. Komanda şəklində müzakirələrdə müəllimlər öz texnikalarını müzakirə edir və geribildirimlə (feedback) nöqsanları aradan qaldırırlar. Kollegial tədris qruplarında müəllimlər planlaşdırma aparır, fənlərin inteqrasiya modelini hazırlayır, tapşırıqlar və aktivitələr tərtib edir, fikir və ideyalarını bölüşürlər. Müvəffəqiyyətləri qiymətləndirir, uğursuzluqların səbəbini araşdırır, tətbiqi problemləri müzakirə edirlər.

2) Birgə planlama, birgə dizayn, kooperativ öyrənmə dərslərinin birgə layihələşdirilməsi və təlimat vahidlərinin müəyyən edilməsi. Əvvəlcə müəllim kooperativ öyrənməni dərindən anlamalıdır. Onu həyata keçirməyi bacarmalıdır. Kollegial tədris qruplarının üzvləri tez-tez dərsləri birgə dizayn, dərs proqramlarında lazımı dəyişikliklər etməlidirlər. Belə müzakirələrdə vəzifə bölgüsü aparılır, kooperativ öyrənmə materiallarının təkmilləşdirilməsi və tətbiqi üçün texnologiyalar müəyyənləşdirilir. İnteqrativ kurikulum və tematik öyrənmənin birgə həyata keçirilməsi uğurlu planlamadan çox asılıdır.

3) Kooperativ dərsi birgə öyrətmə və birgə aparılan müşahidələr. Əgər müəllim heyəti kooperativ öyrənməni tətbiq edərkən ilkin uğursuzluqla üzləşirsə və tətbiqin primitiv mərhələsindədirsə onlar mexanizimlərin düzgünlüyü barədə bir-birindən davamlı geribildirim almalıdırlar. Uğursuz cəhdə görə ruhdan düşməməli, cəsarətləndirilməli, uğuru əldə edənədək təlimatlı addımlar atmalıdırlar. Müəllimlər bir-birinin dərslərində iştirak etməli, dərslərdə müxtəlif fənlərin eyni zamanda əlaqəli tədrisinə üstünlük verməli, daha sonra nəticələri birgə müzakirə etməli, nöqsanlar üzərində düşünməli, innovasiyalara açıq olmalı, yeni metodlar sınamalı, yenilikdən qorxmamalı, təcrübə mübadiləsi aparmalıdırlar. Bütün bunlar isə davamlı inkişafa və peşəkar təkmilləşməyə şərait yaradır.

### Kooperativ kafedralar

Kooperativ məktəb qurulmasında növbəti addım kooperativ kafedraların yaradılmasıdır. Kooperativ kafedralar özündə ayrı-ayrı kollegial tədris qruplarını birləşdirir. Kooperativ kafedralar fənlərə əsasən deyil, tədris qruplarının sayına görə müəyyən edilir. Kooperativ kafedraların ayda bir dəfə toplantısı keçirilir. Toplantıda kollegial tədris qruplarının bütün üzvləri və liderləri iştirak edir. Bu görüşlərdə tədris qruplarının aylıq fəaliyyəti müzakirə edilir. Qrup liderləri görülmüş işlər barədə hesabat verir. Reytinq cədvəli qurulur. Növbəti ay üçün fəaliyyət planı tərtib edilir. Hədəflər müəyyənləşdirilir. Nöqsanların aradan qaldırılması üçün təkmilləşdirilmə proqramı hazırlanır. Kooperativ kafedralarda hər bir kollegial tədris qrupuna cavabdeh olan bir şəxs-mentor olur. Bu mentorlar müəllimlərin ən peşəkarı və kooperativ öyrənməni dərindən bilən biri olmalıdır. Həmin mentor hər toplantıda öz kollegial tədris qrupunun üzvləri və lideri ilə atdıqları və atacaqları addımlar barədə diskussiyalar aparır. Hər kafedrada ən az üç mentor olur.

Kooperativ məktəblərdə kollegial tədris qruplarının sayı kooperativ baza qruplarından, kooperativ kafedraların sayı isə kollegial tədris qruplarının sayından asılıdır. Məsələn, məktəbdə 6 kooperativ baza qrupu varsa, 6 kollegial tədris qrupu və 2 kooperativ kafedra olur. Yuxarıda qeyd etdiyimiz kimi kooperativ baza qrupları şagirdləri, kollegial tədris qrupları baza qruplarında tədris aparan müəllimləri, kooperativ kafedralar isə bu kollegial tədris qruplarına cavabdeh olan mentorları birləşdirir.

### İnzibati heyət-səlahiyyətli qüvvələr

İnzibati heyət kooperativ məktəb layihəsində kooperativ kafedralardan sonra gələn və məktəbi idarə edən administrativ orqandır. Burada məktəbə rəhbərlik edən səlahiyyətli şəxslər birləşir. Həmin səlahiyyətli şəxslər mühüm məsələlər və problemlərlə məşğul olur. Bura təşkilati və struktur məsələləri, kurikulum, problemli şagirdlərlə iş, kooperativ kafedralara mentorların təyini, kollegial tədris və kooperativ baza qruplarının tərkibinin və sayının müəyyənləşdirilməsi, planların, proqramların təsdiqi, ümumməktəb hədəflərinin və öhdəliklərinin müəyyənləşdirilməsi, ümumi işə nəzarət, rəğbətləndirmə və cəzalandırmanın həyata keçirilməsi və s. kimi mühüm nüanslar daxildir. Əsas qərarların qəbulu burada planlaşdırılır. Dəyişikliklərin harda və necə ediləcəyi, yeniliklərin hansı şəkildə tətbiq olunacağı burada qərarlaşır. Lakin idarəçilər heç də bu tədbirləri və dəyişiklikləri sadəcə özləri ehtiyac gördükləri üçün həyata keçirmirlər. Onlar hər zaman heyətin fikri ilə hesablaşır, onların təkliflərini, tövsiyələrini nəzərə alırlar. Atılacaq addımlar və ya problemlərin hansı şəkildə həll ediləcəyi burada planlaşdırıldıqdan sonra qəbul edilməsi zəruri sayılan qərar Məktəb əsaslı qərar qəbul edən kooperativ Şuraya təqdim edilir.

Məktəb əsaslı qərar qəbul edən Kooperativ şura məktəbdə səlahiyyətli qüvvələr tərəfindən irəli sürülən qərarları heyətlə müzakirə edərək, qəbul edib-etməmək məsələsini gündəmə gətirir. Bir növ pedaqoji şuranın vəzifəsini yerinə yetirir. Amma onun funksiya və vəzifələri pedaqoji şuranın funksiya və vəzifələrindən bir qədər fərqlidir. Kooperativ şura daha çox səlahiyyətə malikdir. Onun üzvləri pedaqoji heyətin arasından qabaqcıl təcrübəyə, innovativ metodikaya, yaradıcı yanaşmaya sahib müəllimlərdən seçilir. Bu şura üzvləri problemlərə düzgün yanaşmağı, alternativ qərarlar qəbul etməyi, mövcud vəziyyəti real qiymətləndirməyi, obyektiv olmağı bacarmalıdırlar. Hər zaman ümumi işin xeyrini, məktəbin mənafeyini göz önündə tutmalıdırlar.

Təhsildə belə bir sistem demokratik və humanist prinsiplərin reallaşmasına şərait yaradar. Hər kəs əmin olmalıdır ki, şagirdlərə uğurlu təhsil verilir və onlar məktəb daxilində bir-biri üçün məsuliyyət daşıyaraq, bir- birinin qayğısına qalaraq, düzgün sosial mühitdə sosial bacarıqlara yiyələnirlər. Məktəbdə şagirdlərin heç bir hüququ pozulmur. Qorxu yaradan ən əsas ünsürlərdən hesab edilən şagirdlər arasındakı rəqabət və qeyri-obyektiv qiymətləndirmənin yaratdığı mənfi təzahürlər aradan qaldırılır. Şagirdlər arasındakı sosial dəstək və müsbət əməkdaşlıq onları bir-biri ilə yarışmaq düşüncəsindən uzaqlaşdıraraq, ümumi məqsədlər uğrunda mübarizə aparmağa sövq edir. Eyni normalar müəllimlər arasında da gözlənilir. Bu mühit gənc kadrların təcrübəli heyət tərəfindən məktəb daxilində peşəkar yetişdirilməsinə, müəllimlər arasında səmimi bağların, sağlam münasibətlərin qurulmasına şərait yaradır. Onlar da anlayırlar ki, kolleqaları onların rəqibləri deyil, həmkarlarıdır. Ən əsası bu tip təhsil formaları nəzəri biliklərin praktiki vərdişlərə, səriştəyə çevrilməsinə geniş imkanlar yaradır. Hötenin bir fikri burada yerinə düşərdi: "Bilmək azdır, tətbiq etmək lazımdır, arzulamaq yetərsizdir, icra etmək lazımdır". Məhz burada təhsilin keyfiyyətinin yüksəldilməsində, davamlı inkişafın təmin edilməsinin əsasında effektiv komanda işi-kooperativ fəaliyyət dayanır.



# Təhsilin onlayn gələcəyi

## Ənənəvi təhsillə onlayn-təhsilin birləşdirilməsi başlıca tələb olacaq

⇦ Əvvəli səh.1

**Rüstəm QARAXANLI**

"EdTechXGlobal" və "Global Market Insights"ın məlumatına görə, 2016-cı ildə onlayn-təhsilin ümumi dövriyyəsi 165 milyard dollar olub. 2020-ci ildə bu rəqəmin 252 milyard dollara çatacağı gözlənilir. Ancaq bu da son hədd deyil, çünki hazırda dünyada təhsil bazarının ümumi həcmi təqribən 4-5 trilyon dollardır.

Dünya təhsil bazarında ən böyük perspektivə məktəbəqədər və məktəb təhsili, korporativ təhsil, repetitorluq, xarici dil kursları malikdir. "Ambient Insight"ın 2016-cı ilə olan statistikasına görə, gələcəkdə oyun mexanikası və real proseslərin təqlidi sahəsində çalışan şirkətlərin gəlirləri daha çox artacaq. Onlayn-təhsil isə yeni modellər üzərində eksperimentlər edəcək: ödənişli diplom və sertifikatların verilməsi, pullu kursların və korporativ təhsil mərkəzlərinin yaradılması.

### Rəqəmsal gələcək reallıqdır

"CB Insights" analitik şirkətində hesab edirlər ki, təhsilin gələcəyini formalaşdıracaq istiqamətlərdən biri yeni nəsil məktəblər olacaq. Bu sahədə bir neçə layihə fərqləndirilir ki, onların reallaşması ilə ümumilikdə 278 milyon dollarlıq vençur maliyyəsini əldə edə bilmiş 5 şirkət məşğuldur. Layihələrdən biri "AltSchool"dur. Bu məktəbdə əvvəl şagirdin intellektual və emosional portreti formalaşdırılır, sonra ona bu göstəricilərə uyğun tam fərdi proqram tərtib edilir. Şagird məktəbdəki vaxtının böyük qismini planşetlə və qulaqcıqlarda keçirir, bina divarlarına yerləşdirilmiş xüsusi kamera və səsqəbuledici qurğular vasitəsilə "izlənilir". Uşağın istifadə etdiyi hər bir söz, hər bir cümlə bu texnoloji yeniliklər vasitəsilə analiz edilir. Bütün məktəb proqramı yeni texnologiyalar vasitəsilə keçilir, hətta misal üçün, "İlliada"nın öyrənilməsində belə şagird poemada cərəyan edənləri sərbəst şəkildə vizuallaşdırmağı bacarmalıdır. Mark Sukerberq məktəb-layihəyə 170 milyon dollar vəsait ayırıb. Ancaq ötən il layihənin sahibi Maks Ventilya bəyan edib ki, model çox baha alındığından əlavə yatırımlar edilməyəcək, 9 filialdan biri bağlanacaq.

"Bridge International Academies" adlanan daha bir uğurlu layihə Keniya və Afrikanın bir neçə ölkəsində fəaliyyət göstərən özəl oflayn ibtidai məktəblər şəbəkəsindən ibarətdir. Bu məktəb günə 2 dollardan az qazancı olan valideynlərin uşaqları üçün nəzərdə tutulub (Keniyada orta günlük gəlir 3,8 dollardır). Bu şəbəkədən olan məktəblərdə aylıq təhsil 4-7 dollara başa gəlir. Məktəblərin binalarının layihələrindən tutmuş tədris proqramınadək nə varsa, hamısı maksimal şəkildə standartlaşdırılıb. Dərslərin ssenarisi Kembricdə hazırlanıb. Hazırda "Bridge International Academies" şəbəkəsində 500-dək məktəb var.

**"CB Insights" analitik şirkətində hesab edirlər ki, təhsilin gələcəyini formalaşdıracaq istiqamətlərdən biri yeni nəsil məktəblər olacaq. Bu sahədə bir neçə layihə fərqləndirilir ki, onların reallaşması ilə ümumilikdə 278 milyon dollarlıq vençur maliyyəsini əldə edə bilmiş 5 şirkət məşğuldur. Layihələrdən biri "AltSchool"dur.**

Coğrafi baxımdan bizə yaxın olan ölkələrdən Rusiyada da belə layihə fəaliyyət göstərir. 2014-cü ildə yaradılmış "Foksford" özündə onlayn-məktəb təhsilini əks etdirir. "Foksford" onlayn-təhsil vasitəsilə 3-cü sinif şagirdlərinə ölkənin ən tanınmış müəllim, dərslik müəllifləri və olimpiya komandalarının məşqçiləri ilə məktəbdənkənar rejimdə məktəb proqramı üzrə hazırlıq təklif edir. Bundan başqa, layihə tam onlayn-internat məktəb modeli də təklif edir ki, hazırda burada 400 uşaq təhsil alır. Tədris proqramı tam olaraq onlayn rejimdə keçir və sonda şagird attestatla təmin olunur.

Dünyada peşə təhsili sahəsində "eLearning" nümunələri çox azdır, ancaq hər halda var. Məsələn, Avstraliyanın "SkilledUp" şirkəti tikinti və daşınmaz əmlak mütəxəssislərinə onlayn-təhsil təklif edir. Bu kursları fərqləndirən cəhət odur ki, tədris prosesi onlayn rejimlə yanaşı, real formatda da keçirilə bilər. "SkilledUp"ın verdiyi diplom və sertifikatlar Avstraliyada istənilən şirkət və dövlət strukturunda, habelə digər təhsil ocaqlarında qəbul olunur.

Təbii ki, əgər söhbət peşə təhsilindən gedirsə, onda tam onlayn formatdan danışmaq hələlik tezdir. Çünki tələbə aldığı nəzəri biliklərlə yanaşı, özünü praktiki tərəfdən də göstərə bilməlidir. Ancaq mütəxəssislər əmindirlər ki, bu problemi tezliklə əlavə edilmiş reallıq vasitəsilə aradan qaldırmaq mümkün olacaq.

Ekspertlər əmindirlər ki, yaxın gələcəkdə ali təhsil də tranformasiyaya uğrayacaq. Hazırkı ali təhsilin ən böyük qüsuru ondan ibarətdir ki, tələbəyə praktiki biliklər vermir. Nəticədə təhsilini başa vuran tələbə işləyəcəyi yerə birbaşa və dərhal fayda gətirmir. Bu isə əlavə təhsil anlayışının yayılması və inkişafına səbəb olur. Universitet bir baza kimi lazımdır, ancaq hər bir məzun üçün daha konkret ixtisaslaşma gərəkdir ki, bunu ali məktəblər indiki formatda təmin edə bilmirlər. Boşluğu digital-marketing, proqramlaşdırma və "data sciense" ilə doldurmaq lazım gəlir. ABŞ-da 20 milyon tələbənin təqribən üçdə biri onlayn təhsil alır. Tam, yaxud qismən. Pensilvaniya, Boston, İndiana universitetlərində tam onlayn-kurslar mövcuddur. Amerika ali məktəblərinin 80%-i, məsələn, Yel və Cənubi Kaliforniya universitetləri özlərinin onlayn-təhsil sistemlərinin servis xidmətlərini kənar şirkətlərə həvalə edirlər.

### Ənənələrin rəqəmsallaşması

2002-ci ildən yayımlanan "The New Media Centers"in (NMC) 2017-ci ilə dair hesabatının ali məktəblər hissəsində gələcəyin trendlərindən biri kimi onlayn-təhsilə geniş yer ayrılıb. Hesabatda ümumən 10 trend əksini tapır ki, gələcəkdə təhsil prosesində mühüm rol oynayacaq. Mərkəz ekspertlərinin fikrincə, hazırda rəqəmsallaşan təhsilin ən nəzərəçarpan çatışmazlığı dünyanın demək olar ki, hər yerində hər kəsin internetə çıxışının olmamasıdır. Beynəlxalq elektrik rabitəsi İttifaqının hesablamalarına görə, hazırda dünya əhalisinin 47,9%-i internetdən istifadə edir. İnkişaf etmiş ölkələrdə bu göstərici 81%, inkişafda olan ölkələrdə 41%, az inkişafda olan dövlətlərdə isə 15%-dir. Daha bir mühüm məqam internetin sürətidir. Məsələn, dünyanın ən böyük ölkəsi olan Rusiyada internetdən istifadə edənlərin yalnız 12%-i yüksək sürətdən yararlana bilir. Müqayisə üçün qeyd edək ki, Rusiyanın başlıca siyasi və iqtisadi rəqibi olan ABŞ-da bu göstərici iki dəfə böyükdür. Afrika, Asiya-Sakit Okean, Cənubi Amerika və Ərəb ölkələrində vəziyyət daha da bərbaddır.

NMC-nin ekspertləri hesab edirlər ki, insanın özünü rəqəmsal dünyada azad hiss etməsi üçün tək texnologiyalardan istifadə etməsi yetərli deyil. İnsan tarix boyu indi olduğu kimi heç vaxt rəqəmsal texnologiyaların bu qədər təsirinə məruz qalmayıb. Bu yeniliyin cəmiyyətimizdəki izləri olduqca qabarıqdır və bu səbəbdən də rəqəmsal texnologiyalar insan fəaliyyətinin əsas təkanverici amillərindən birinə çevrilib. Ancaq mütəxəssislər hesab edir ki, yeni texnologiyalardan istifadə etməklə iş bitmir, insan anlaya bilməlidir ki, onlar vasitəsilə peşəkar qabiliyyətini artıra, təhsil səviyyəsini yüksəldə, bir sözlə, həyatını dəyişə bilər. Məhz bu səbəbdən təhsilin əsas məqsədi sistemi rəqəmsal reallığa və gələcəyə adaptasiya etmək olmalıdır. Yeni nəsli sürətlə dəyişən rəqəmsal texnologiyalar epoxasına hazırlamaq, o cümlədən öz daxilindən də həmin dəyişikliklərə uyğun olaraq müasirləşmək modern təhsilin əsas trendi hesab edilir.

Onlayn-təhsil hazırda təhsil sahəsində edilmiş ən böyük kəşflərdən biri sayılır. Universitetlər ənənəvi sistemlə tələbə uğrunda mübarizə aparırlarsa, təhsil platformalarının dinləyiciləri milyonlarladır. "Class Central"ın 2016-cı ilə olan araşdırmalarının nəticələrindən görünür ki, iki il bundan əvvəl dünyanın 700-dək universiteti onlayn-platformalarda 6850 kursla təmsil olunublar və bu yolla 58 milyon tələbəyə təhsil veriblər. "College Data" saytının məlumatına görə, orta hesabla hər bir universitetin 5-20 min onlayn tələbəsi var. "Coursera" kurslarının dinləyicilərinin sayı 23 milyon, "EdX"-nin 10 milyon, "XuetangX"-nin 6 milyon, FutureLearn" kurslarının tələbələrinin sayı isə 5,3 milyon nəfərdir.

Ənənəvi ali məktəblərin "Massive Open Online Courses"lə rəqabət aparmaları perspektivsiz görünür. Onlayn-təhsilin üstünlükləri həddindən artıq çoxdur. Bu kurslarda tələbə istənilən fənni istədiyi kimi, dünyanın istənilən nöqtəsindən daha az maliyyə xərcləri ilə öyrənmək üçün əla fürsətə malikdir. Eyni zamanda, "Massive Open Online Courses" dinləyicisinə öz inkişaf prosesinə nəzarət imkanı və azadlıq hissi verir ki, bu amilləri qarşıya qoyulmuş məqsədə nail olmaq yolunda başlıca motivasiya mənbəyi hesab edirlər. Bu səbəbdəndir ki, dünyanın bir sıra yerlərində ali məktəblərdə təhsilin qarışıq sistemlə tələbəyə çatdırılması proqramlarına start verilib. Məsələn, Lozanna Federal Politexnik Məktəbi fransızdilli platforma vasitəsilə əsasən fransız dilində danışan Afrika ölkələrinə onlayn-təhsil təklif edir. İspandilli "MiriadaX" portalı bu təkliflə Latın Amerikası bazarına çıxır. Əgər müasir təhsildən danışırıqsa, qəbul etməliyik ki, ənənəvi təhsillə onlayn-təhsilin birləşdirilməsi gələcəyin başlıca tələbi olacaq. Hər bir orta və ali məktəb, ümumilikdə bütün təhsil sistemi bu tələbə cavab verməyə hazır olmalıdır.

# "CanSat Azərbaycan 2019"

## Milli tələbə model peyk müsabiqəsi elan edilib

Təhsil Nazirliyi və "Azərkosmos" ASC tərəfindən "CanSat Azərbaycan 2019" milli tələbə model peyk müsabiqəsi elan edilib.

"CanSat Azərbaycan" müsabiqəsi ali təhsil müəssisələrinin tələbələri arasında kosmik sahəyə marağın artırılması, bu sahədə fundamental bilik və bacarıqlar formalaşdıraraq yerli kadrların yetişdirilməsi məqsədilə təşkil edilir. Müsabiqənin keçirilməsi tələbələrin radiotexnika, mexanika, elektronika sahələri üzrə baza biliklərinin inkişafına, onlara kosmik sənayeyə asan çıxış imkanının verilməsinə xidmət edir.

Müsabiqədə elektronika, mexanika, proqramlaşdırma və kommunikasiya üzrə bilik və bacarıqlara malik, bakalavr və ya magistr pilləsində təhsil alan tələbələr iştirak edə bilərlər. Müsabiqədə qeydiyyatdan keçən komandalar bir tələbənin komanda kapitanı seçilməsi şərti ilə minimum 3, maksimum isə 6 nəfərdən ibarət ola bilər. Komanda üzvləri eyni təhsil müəssisəsində təhsil almalıdır.

Müsabiqədə uğurla çıxış edən tələbələr "Azərkosmos" ASC-də təşkil olunan təcrübə proqramında iştirak etmək, dəyərli hədiyyələr qazanmaq imkanı əldə edəcəklər. Qaliblərə beynəlxalq "CanSat" müsabiqəsində iştirak edəcəkləri təqdirdə "Azərkosmos" tərəfindən texniki dəstək də göstəriləcək.

Müsabiqə haqqında daha ətraflı məlumatı *http://cansat.az/* saytından əldə ermək mümkündür.

# "Azərbaycanda ali təhsilin gücləndirilməsinə dəstək"

## Tvinninq layihəsi çərçivəsində avropalı ekspertlərin səfəri



Avropa İttifaqının və Avropa Komissiyasının "Azərbaycanda ali təhsilin gücləndirilməsinə dəstək" adlı Tvinninq layihəsi çərçivəsində növbəti ekspert missiyası ölkəmizə səfər edib.

Tvinninq layihəsinin "Qanunverici və tənzimləyici çərçivəyə düzəlişlərin edilməsi ilə bağlı tövsiyələrin işlənib hazırlanması" adlı dördüncü komponenti çərçivəsində Azərbaycana gələn ekspert qrupuna Fransanın Milli Təhsil, Ali Təhsil və Tədqiqat Nazirliyinin milli təhsilin və tədqiqatın idarə edilməsi üzrə baş müfəttişi Mari-Odil Ott, Litvanın Ali Təhsildə Keyfiyyətin Qiymətləndirilməsi Mərkəzinin direktor müavini Aureliya Valeikiene və Latviyanın Akademik Məlumat Mərkəzinin Akkreditasiya şöbəsinin müdir müavini Yolanta Silka daxildir.

Səfərin məqsədi ölkənin ali təhsil sistemi ilə bağlı qanunvericilik sənədlərinin nəzərdən keçirilməsi, həmin sənədlərin Keyfiyyət Təminatı üzrə Avropa Standartları və Təlimatları (ESG) ilə uyğunluğunun təmin edilməsi üçün tövsiyələrin verilməsidir.

Missiya çərçivəsində Təhsil Nazirliyinin Elm, ali və orta ixtisas təhsili şöbəsinin, eləcə də Akkreditasiya və Nostrifikasiya İdarəsinin Akkreditasiya şöbəsinin əməkdaşları ilə görüşlər keçirilib, "Ali təhsilin dövlət standartı" adlı çərçivə sənədinin və akkreditasiya qaydalarının yeni layihələri müzakirə edilib.

Missiyanın yekununda nəzərdən keçirilən qanunvericilik sənədlərinin Avropa təcrübəsinə uyğunlaşdırılması üzrə tövsiyələrin əks olunduğu hesabatın təqdim olunması gözlənilir.

Tvinninq layihəsinin "Təhsil proqramlarının tələbələrə əsaslanan yanaşmanı əks etdirməsi məqsədi ilə keyfiyyət təminatı sisteminin daha da təkmilləşdirilməsi" adlı üçüncü komponenti çərçivəsində ölkəmizdə səfərdə olan Avropa Komissiyasının ekspert qrupuna Litvanın Vilnüs Gediminas Texniki Universitetinin tədris məsələləri üzrə direktoru Nora Skaburskiene və Latviyanın Akademik Məlumat Mərkəzinin eksperti Asnate Kazoka daxildir.

Səfərin məqsədi tədris proqramlarının qiymətləndirilməsi prosesində xarici qiymətləndiricilər tərəfindən istifadə olunacaq təlimat kitabçasının işlənib hazırlanmasıdır.

Səfər çərçivəsində Təhsil Nazirliyinin Akkreditasiya və Nostrifikasiya İdarəsinin Akkreditasiya şöbəsinin əməkdaşları ilə görüşlər keçirilib, Latviya və Litvada proqram qiymətləndirilməsi sahəsində mövcud təcrübə əməkdaşların diqqətinə çatdırılıb.

Daha sonra Tvinninq layihəsinin ekspertləri azərbaycanlı həmkarları ilə birlikdə xarici qiymətləndiricilər üçün təlimat kitabçasının hazırlanması ilə bağlı birgə iş aparıb, həmçinin sözügedən sənədin ilkin variantı hazırlanıb.

Qeyd edək ki, "Azərbaycanda ali təhsilin gücləndirilməsinə dəstək" adlı Tvinninq layihəsinin əsas məqsədi Azərbaycanın ali təhsil sistemini səriştəyə əsaslanan təhsil yanaşmasına uyğunlaşdırmaqla daha da inkişaf etdirməkdən, eləcə də tələbəyönümlü təhsil sisteminə və təlim nəticələrinə əsaslanan yanaşmaya keçidi dəstəkləməkdən ibarətdir. İki il ərzində həyata keçiriləcək layihənin icrasına cari ilin aprel ayında başlanılıb. Layihənin icrasına Fransa, Latviya və Litvanın müvafiq qurumları və ekspertləri cəlb olunub.

# “Zəkamızla irəli”

Şəki şəhər 18 nömrəli tam orta məktəbdə 31 dekabr-Dünya Azərbaycanlılarının Həmrəylik Günü və Yeni il münasibətilə “Zəkamızla irəli” mövzusunda intellektual yarışma keçirilib.

İntellektual yarışmada Şəki Şəhər Təhsil Şöbəsinin, Şəki Şəhər Gənclər və İdman İdarəsinin nümayəndələri, məktəbin direktoru, müəllim və şagirdlər iştirak ediblər.

Yarışın əvvəlində Dövlət himninin səsləndirilməsindən sonra məktəbin direktoru Məmməd Mahmudov çıxış edərək şagirdlərə uğurlar arzulayıb.

Bilik yarışının təşkil olunmasının əsas məqsədi şagirdlərin müxtəlif sahələr üzrə istedad və qabiliyyətinin, dünyagörüşünün, intellektual səviyyəsinin, müzakirə, təhliletmə, nitq, özünü təqdimetmə, kollektivi təmsiletmə qabiliyyətinin inkişafı və İKT-dən istifadə bacarıqlarının üzə çıxarılmasından ibarət olub.

Tədbirdə çıxış edənlər bildiriblər ki, məktəbliləri milli-mənəvi dəyərlərə hörmət və vətənpərvərlik ruhunda tərbiyə etmək, onlara Azərbaycanın tarixini, mədəniyyətini, milli irsini öyrətmək, şagirdlərin sərbəst fikir, düşüncə tərzini və ədəbi yaradıcılıq sahəsində istedadlarını müəyyənləşdirmək üçün bu cür intellektual bilik yarışlarının təşkil olunmasının mühüm əhəmiyyəti var.

Yarışda ümumilikdə 12 komanda mübarizə aparıb. Hər komandada 5 iştirakçı olub.

Yarış üç turda keçirilib. Birinci turda 30, ikinci və üçüncü turlarda isə 20 sual səsləndirilib.

Qalib komanda turlar üzrə qazanılmış ümumi xallar əsasında müəyyən edilib. Gərgin mübarizə şəraitində keçən yarışmada “Nuxa” komandası I, “Marxal” komandası II, “Çələbixan” komandası isə III yerləri tutublar.

Sonda qalib komandalar Şəki Şəhər Gənclər və İdman İdarəsi tərəfindən diplomla mükafatlandırılıb.

**Mahal MƏMMƏDOV,**
*Şəki Şəhər Təhsil Şöbəsinin ictimaiyyətlə əlaqələr üzrə məsul şəxsi*




# “Keyfiyyət əldə etmək üçün yenilik mühüm amildir”

## *Nuriyyə Məmmədova:* “Müəllim üçün ən önəmli olan şagirdlərin etibarını qazanmaqdır”

**Nuriyyə Məmmədova 1988-ci ildə Ağdam rayonunda anadan olub. 1993-cü ildə erməni silahlı birləşmələrinin təcavüzü nəticəsində ailəsi doğma ev-eşiyindən didərgin düşərək Bakı şəhərinə köçməyə məcbur olub. 1995-ci ildə Nərimanov rayon 193 nömrəli məktəbdə təhsil almağa başlayıb. 2006-cı ildə orta məktəbi bitirdikdən sonra Azərbaycan Dövlət Pedaqoji Univesitetinin filologiya fakültəsinə daxil olub və Azərbaycan dili və ədəbiyyat müəllimliyi ixtisası üzrə bakalavr təhsili alıb. Təhsil Nazirliyi tərəfindən 2018-2019-cu tədris ilində müəllimlərin işə qəbulu üzrə vakant yerlərə keçirilən imtahanlarda yüksək nəticə göstərərək, Sabirabad şəhər 1 nömrəli tam orta məktəbə Azərbaycan dili və ədəbiyyat müəllimi təyin olunub.**



*- Müəllim olmağı əvvəldən istəmisiniz? Yoxsa sonradan qərara gəldiniz?*

- Mənim müəllimlik peşəsinə sevgim hələ beşinci sinifdən yaranıb. V sinifdə oxuyanda məktəbimizə yeni müəllim gəlmişdi, onun bizə olan sevgisi, qayğısı, özünəməxsus dəst-xətti bu peşəni gözümdə çox yüksəklərə qaldırdı. Elə həmin vaxtdan da düşündüm ki, mən də müəllim olacağam.

*- Bir çox müəllimlər öz yaşadıqları əraziyə yaxın məktəblərdə çalışmağa üstünlük verirlər. Siz isə uzaqda işləməyə üstünlük veribsiniz. Bunun səbəbini nə ilə izah edə bilərsiniz?*

- Müəllimlərin işə qəbul imtahanı mənim üçün əla fürsət idi. 2018-ci ildə müsabiqədə iştirak etdim. Yüksək nəticə toplamağıma baxmayaraq, rayonda işləməyi seçdim.

Rayon məktəblərində işləmək də mənim çoxdankı istəyim olub. Uzaq olmağımla bağlı heç bir problem yaşamıram. Bura gələndən kollektivdə və rayonda çox mehriban və isti münasibət görmüşəm. Ona görə də heç özümü qonaq kimi də hiss etmirəm. Şagirdlərin utancaq və ünsiyyətcil olmamalarını başlıca problem görürəm. Paralel olaraq dərs zamanı çalışıram ədəbi dildə danışsınlar, dialekt və ləhcələrdən istifadə etməsinlər.

Həmişə düşünürəm ki, rayonlarda gənc müəllimlərə daha çox ehtiyac var. Hər kəsə məlumdur ki, gənc müəllimlər daha çox yenilikçi və yaradıcı olurlar. Müasir dövrdə isə şagirdlərin fənnə maraqlarını artırmaq və keyfiyyət əldə etmək üçün də yenilik mühüm amildir.

*- Sizcə, yenilikçi, müasir müəllim necə olmalıdır?*

- Bu suallara kiçik misallar göstərsəm, mövcud mənzərə daha yaxşı canlanar. Müasir dövrdə bütün sahələr elektronlaşır, hətta bəzi sahələrdə süni intellektdən də istifadə olunur. Şagirdlər evdə telefonla, kompüterlə oynayır, yaxud digər məqsədlər üçün istifadə edirlər. Gəlin etiraf edək ki, sinifdə lövhədə yazı və kitablar artıq onlar üçün elə də maraqlı görünmür. Bu səbəbdən biz dərsləri onlara maraqlı olan tərəfdən tədris etməliyik. Bunun üçün mütləq bizim kompüter bilikləri və internetdən düzgün istifadə etmək bacarıqlarımız olmalıdır. Yaşlı nəslin əksər hissəsi, ümumiyyətlə, kompüterdən istifadə edə bilmir, ya da bacarıqları yetərli deyil. Hər hansı bir dərs üçün bir videoçarx nümayiş etdirmək, həmin dərsin şagirdlərin yaddaşlarında daha yaxşı qalmasına və dərsin maraqlı olmasına kömək edəcək.

*- Peşə fəaliyyətinə yenicə başlamısınız. Siz özünüzü şagirdlərə sevdirməyi bacarırsınızmı?*

- Şagirdlərim məni çox sevir, elə peşəmə sevgim də onların sayəsində artır. Onların həm müəllimiyəm, həm də dostuyam. Onları daim diqqətdə saxlayıram, hansı şagirdimdə narahatlıq görsəm, onunla söhbət edirəm, probleminin nə olduğunu öyrənib, ona kömək etməyə çalışıram.

*- Şagirdlərin ünsiyyət probleminin öhdəsindən necə gəlirsiniz?*

- Maraqlı sualdır. Bunun çox sadə həlli var. Elə məktəbin tədbirlərində ünsiyyət problemi olan uşaqların cəlb edilməsi getdikcə onlarda özünəgüvən formalaşdırır və bu problemin bir qismi öz həllini tapır. Təbii ki, dərs prosesində də müəllim şagirdləri diqqətdə saxlamalı və bütün şagirdlərin dərsdə fəal iştirakına çalışmalıdır. Amma tədbirlərin keçirilməsi xüsusi ilə şagirdlər üçün çox vacibdir. Tədbirlərdə şagirdlər kütlə qarşısında çıxış, özünü ifadə etməyi öyrənir. Hazırda nitq probleminin çox aktual məsələ olduğunu nəzərə alaraq digər müəllimlərə tövsiyə edirəm ki, tədbirlərin keçirilməsinə daha çox yanaşsınlar.

*- Necə düşünürsüz, şagirdlərinizlə ideal şagird-müəllim münasibəti qura bilmisinizmi?*

- Ümumiyyətlə, ideal münasibət yoxdur. Bütün münasibətlərdə müəyyən qədər çatışmayan cəhətlər olur. Hər halda mən çalışıram ki, bu münasibətlər son dərəcə yaxşı və səmimi bir atmosferdə qurulsun. Mənə elə gəlir ki, müəyyən qədər buna nail olmuşam. Əgər şagirdlərim məni sayırlarsa, problemləri olduqda mənə müraciət edirlərsə, bu, o deməkdir ki, mən onların etimadını və etibarını qazanmışam. Müəllim üçün də ən önəmli olan şagirdlərin etibarını və etimadını qazanmaqdır.

*- Gələcək üçün qarşınıza hansı məqsədlər qoymusunuz, hansı planlarınız var?*

- Əsas məqsədlərimdən biri budur ki, şagirdlərim olimpiadalarda yüksək nəticə göstərsinlər. Doğrudur, bunun üçün bir neçə il zaman lazımdır. Sevindirici haldır ki, artıq ölkəmizdə müəllimin nüfuzu günbəgün yüksəlməkdə davam edir. Bu da, öz növbəsində, müəllim peşəsinə marağın yüksəlməsinə və rəqabətin artmasına səbəb olub.

*- Müəllim olmaq istəyənlərə tövsiyəniz nədir?*

- Qarşıya qoyulan hər bir məqsədə çatmaq olur. Yetər ki, can-başla çalışmaq lazımdır. Bir də heç kim alim doğulmur. Hər kəs oxuyub öyrənir. Sadəcə daha səylə çalışmaq və yeni uğurlara imza atmaq lazımdır.

Bunun üçün müəllim də işlədiyi pedaqoji kollektivdə hər şeydən əvvəl yenilikçi olmalıdır.

**Xalid NƏCİYEV,**
*Sabirabad Rayon Təhsil Şöbəsinin ictimaiyyətlə əlaqələr üzrə məsul şəxsi*

# SDU-da fakültələrarası yarış keçirilib

Dekabrın 25-də Sumqayıt Dövlət Universitetində fakültələrarası Şən və Hazırcavablar Klubunun yarışı keçirilib.

Rektor, professor Elxan Hüseynov çıxış edərək iştirakçıları salamlayıb. Qeyd edib ki, Azərbaycan gəncliyi ictimai həyatın bütün sferalarında aktiv fəaliyyəti ilə seçilir və siyasi, iqtisadi, humanitar, sosial tədbirlərin həyata keçirilməsində mühüm rol oynayır. Bu gün dövlətin gənclərin fəaliyyəti üçün yaratdığı geniş imkanlar nəticəsində bu təbəqə cəmiyyətin aparıcı qüvvəsinə çevrilərək bütün sahələrdə öz sözünü deyir və potensial imkanlarını ortaya qoyur. Gənclərin istedadının üzə çıxarılması üçün dövlət xüsusi layihələr həyata keçirir. Azərbaycanın aparıcı dövlətə çevrilməsi naminə gənclərin imkanlarından daha səmərəli istifadə edilməsi, həmçinin bunun üçün əlverişli şəraitin yaradılması gənclər siyasətinin əsasını təşkil edir.

Rektor onu da bildirib ki, dövlət gənclər siyasətinin həyata keçirilməsi istiqamətində maraqların təmsil edilməsi, tələbələrin asudə vaxtının səmərəli təşkil edilməsi, eləcə də aktyorluq bacarığı olan gənclərin üzə çıxarılması məqsədilə Sumqayıt Dövlət Universitetində lazımi şərait yaradılıb, bu istiqamətdə mütəmadi olaraq tədbirlər həyata keçirilir. Bunun nəticəsidir ki, tələbələrimiz universitetlərarası keçirilən Şən və Hazırcavablar Klubunun yarışlarında, musiqi və şeir dərnəklərində, müsabiqələrdə fəal iştirak edərək kuboka layiq görülürlər.

Rektor Şən və Hazırcavablar Klubunun fakültələr üzrə komandaların hazırlığında klubun bədii rəhbəri Məcid Hüseynova və münsiflər heyətinə təşəkkürünü bildirib.

Fakültələr üzrə Şən və Hazırcavablar Klubunun çıxışları iştirakçıların böyük marağına səbəb olub. Gərgin mübarizə nəticəsində I yeri Mühəndislik fakültəsinin “Sxema” komandası tutub. Münsiflər heyəti qismində aktyorlar Tərlan Nur Yaşar, Elsevər Mehdizadə, Ramiz Hüseynzadə, “Parni iz Baku” teatrının aktyoru və ssenari müəllifi Ələkbər Əliyev, kikboks üzrə 2 qat dünya, 3 qat Avropa çempionu Elnur Mahmudov çıxış etdilər.

Qalib komandalar kuboklarla təltif olunublar.

# “Müasir təhsilin aktual problemləri”

Qax rayonu Cəlayir kənd tam orta məktəbində pedaqoji kollektiv və 5 nömrəli dayaq məntəqəsini təmsil edən məktəblərin nümayəndələrinin iştirakı ilə “Müasir təhsilin aktual problemləri” mövzusunda “dəyirmi masa” keçirilib.Tədbiri giriş sözü ilə açan Cəlayir kənd tam orta məktəbinin direktoru, 5 nömrəli dayaq məntəqəsinin rəhbəri Xalid Heydərov məktəblərdə bu gün təlim-tərbiyə prosesinin aparılması vəziyyəti, müəllimlərin qarşılaşdıqları problemlər haqqında geniş bəhs edib. O, həmçinin təlimin keyfiyyətinin yüksəldilməsi üçün ayrı-ayrı fənn müəllimlərinin öz fəaliyyətləri zamanı şagirdlərin bütün dərs boyu fəallığına, dərsin əvvəlində problemin qoyulması və dərsin gedişinin problemin həllinə yönəlməsinə, təlimin tədqiqat şəklində keçirilməsinə diqqəti artırmalı, şagirdlərdə müstəqil düşünmək, sərbəst fikir söyləmək, əməkdaşlıq etmək, müxtəlif fikirlərə hörmət etmək, birgə həll yollarını müəyyənləşdirmək və s. kimi keyfiyyətləri aşılamalı olduqlarını xüsusi vurğulayıb.

Məktəbin fizika müəllimi Yaşar Məmmədov və ibtidai sinif müəllimi Xanım Təsilova məruzə ilə çıxış ediblər. Müəllimin gündəlik və tematik planlaşdırma aparmasının vacibliyi vurğulanaraq qeyd edilib ki, bütün sahələrdə olduğu kimi, təhsildə də nailiyyətlərin uğurla başa çatdırılması üçün onun düzgün planlaşdırılmasına ehtiyac vardır. Gündəlik dərsin planlaşdırılması isə müəllimin dərsə hazırlığının ölçü meyarı, onun fərdi fəaliyyətinin güzgüsüdür. Daha sonra müasir məktəbin problemləri ətrafında tədbir iştirakçıları məzmunlu, mənalı diskussiya aparıblar.

**Günay MAHMUDOVA,**
*Qax Rayon Təhsil Şöbəsinin ictimaiyyətlə əlaqələr üzrə məsul şəxsi*

# “Narkomaniya, dini radikalizm, erkən nikah və onların fəsadları”

Oğuz rayonunun Yaqublu kənd tam orta məktəbində “Narkomaniya, dini radikalizm, erkən nikah və onların fəsadları” mövzusunda tədbir keçirildi.

Tədbirdən əvvəl iştirakçılar “Ağ ölüm”ə - narkomaniyaya “yox” deyək!” mövzusunda keçirilən rəsm müsabiqəsinə şagirdlər tərəfindən təqdim olunmuş rəsmlərə tamaşa etdilər.

Tədbiri giriş sözü ilə açan məktəbin direktoru, Əməkdar müəllim İ.Verdiyev mövzunun əhəmiyyətindən və aktuallığından danışdı.

Çıxış edənlər narkomaniya, dini radikalizm, erkən nikahın fəsadları barədə geniş məlumat verdi, bunların cəmiyyətin mənəvi və əxlaqi dəyərlərini sarsıtdığını qeyd etdi və belə hallara qarşı mübarizədə hər kəsin üzərinə böyük vəzifə və məsuliyyət düşdüyünü vurğuladılar.

Müəllimlərdən İ.Vahabova, Ə.İsmayılova, V.Qurbanova və psixoloq L.Sadıqova, valideynlərdən S.Məmmədov, A.Sadıqova, İ.Allahverdiyev və VK-nin sədri N.Hətəmova, şagirdlərdən K.Kərimli, A.İsazadə və T.Kərimli çıxış edərək narkomaniya, dini radikalizm, erkən nikahın insanların həyat və sağlamlığına ciddi təhlükə yaratdığını bildirdi, bu hallara qarşı hamılıqla mübarizə aparmağın vacibliyini irəli sürdülər.

Daha sonra “Narkomaniya” adlı sosial videoçarx nümayiş etdirildi.

Sonda iştirakçıları maraqlandıran suallar cavablandırıldı.

**Rüxsarə MUĞUMOVA,**
*Oğuz rayonu Yaqublu kənd T.Babayev adına tam orta məktəbin tərbiyə işləri üzrə direktor müavini*

# “Kiçik əllər”

Şabran şəhər R.Yusifov adına 2 nömrəli tam orta məktəb-liseydə “Kiçik əllər” adlı əl işləri sərgisi keçirilib.

Sərgidə məktəbin ibtidai sinif şagirdlərinin hazırladıqları əl işləri sərgilənib.

Sərgi məktəblilər, müəllimlər və valideynlər tərəfindən böyük maraqla qarşılanıb.

**Gülər HÜSEYNOVA,**
*Şabran Rayon Təhsil Şöbəsinin ictimaiyyətlə əlaqələr üzrə məsul şəxsi*

**Səhifəni hazırladı:** *Şakir CƏFƏROV*

# Azərbaycan tələbələrinin II qurultayı



Dekabrın 21-də Təhsil, Gənclər və İdman nazirliklərinin birgə təşkilatçılığı ilə Heydər Əliyev Mərkəzində Azərbaycan tələbələrinin II qurultayı keçirilib.

Qurultay iştirakçıları əvvəlcə Fəxri xiyabana gedərək ümummilli lider Heydər Əliyevin xatirəsini anıb, məzarı önünə gül dəstələri qoyublar.

Görkəmli oftalmoloq-alim, akademik Zərifə xanım Əliyevanın məzarı üstünə də tər güllər düzülüb.

Sonra Şəhidlər xiyabanında Azərbaycanın müstəqilliyi və ərazi bütövlüyü uğrunda mübarizədə şəhid olan Vətən övladlarının xatirəsi anılıb, məzarları üzərinə güllər qoyulub.

Qurultayda Prezident Administrasiyasının Humanitar siyasət məsələləri şöbəsinin müdiri Fərəh Əliyeva, baş nazirin müavini Əli Əhmədov, təhsil naziri Ceyhun Bayramov, dövlət və hökumət nümayəndələri, millət vəkilləri, ali məktəb rektorları, təhsil ekspertləri, media qurumlarının rəhbərləri və tələbələr iştirak ediblər.

Mərasim Azərbaycan Respublikasının Dövlət himninin səsləndirilməsi ilə başlayıb.

Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyevanın qurultay iştirakçılarına təbrik məktubunu Prezident Administrasiyasının Humanitar siyasət məsələləri şöbəsinin müdiri Fərəh Əliyeva oxuyub.

Baş nazirin müavini Əli Əhmədov əsası ümummilli lider Heydər Əliyev tərəfindən qoyulan gənclər siyasətinin Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən uğurla davam etdirildiyini deyib. Əli Əhmədov qeyd edib ki, 30 yaşa qədər gənclərin sayı 4,6 milyon nəfərdir ki, bu da ölkə əhalisinin 46 faizinə bərabərdir. 24 yaşa qədər gənclər isə ölkə əhalisinin 1/3-ni təşkil edir.

Baş nazirin müavini tələbə-gəncləri daha yaxşı təhsil almağa, Azərbaycanın maraqlarını həmişə müdafiə etməyə, ölkənin ictimai-siyasi həyatında fəal rol oynamağa çağırıb və qurultayın işinə uğurlar arzulayıb.

Təhsil naziri Ceyhun Bayramov ölkədə həyata keçirilən təhsil və gənclər siyasəti barədə ətraflı məlumat verərək tələbə-gənclərin dövlətin hərtərəfli diqqət və qayğısı ilə əhatə olunduğunu bildirib. Nazir "Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası"nın qəbul edilməsindən ötən 5 il ərzində ali təhsil sisteminin təkmilləşdirildiyini, universitetlərin kadr potensialı və maddi-texniki bazasının gücləndirildiyini, ali təhsilin əlçatanlığı istiqamətində mühüm addımlar atıldığını qeyd edib. Ötən dövr ərzində Azərbaycan Avropa Ali Təhsil Məkanının bərabərhüquqlu üzvünə çevrilib, ali təhsil müəssisələrinin fəaliyyəti Bolonya prosesinin tələblərinə uğunlaşdırılıb.

Nazir qeyd edib ki, bu il qəbul imtahanlarında rekord sayda — 41 minə yaxın gənc tələbə adını qazanıb, 3127 nəfər 600 baldan yüksək nəticə göstərib, 29 abituriyent 700 bal toplayıb. 2090 nəfər 500-dən yuxarı bal toplayan gənc müəllimlik ixtisasını seçib ki, bu da gənclər arasında müəllim peşəsinə marağın artmasını sübut edir. Təhsilin əlçatanlığının təmin edilməsi məqsədilə 2019-2020-ci tədris ilində ali təhsil müəssisələrində dövlət sifarişli yerlərin əhəmiyyətli şəkildə artırılması nəzərdə tutulub.

Heydər Əliyev Fondunun təşəbbüsü və dəstəyi ilə Bakı şəhərində 800 yerlik ən müasir infrastruktura malik tələbə yataqxana kompleksinin inşasının başa çatdırıldığını deyən Ceyhun Bayramov bildirib ki, paytaxtda və regionlarda yeni yataqxana komplekslərinin inşası, Sumqayıt və Gəncə şəhərlərində mövcud yataqxana binalarının əsaslı təmiri və yenidən qurulması tələbələrin təhsil imkanlarının əhəmiyyətli şəkildə genişləndirilməsinə imkan verəcək.

Təhsil naziri "2007-2015-ci illərdə Azərbaycan gənclərinin xarici ölkələrdə təhsili üzrə Dövlət Proqramı" çərçivəsində 3558 gəncin dünyanın ən nüfuzlu universitetlərində təhsil aldığını deyib və bildirib ki, hazırda Azərbaycanın ali məktəblərində 86 ölkədən 6 mindən çox əcnəbi tələbə təhsil alır. Ceyhun Bayramov ölkə Prezidentinin sərəncamı ilə təsdiq edilmiş "2019-2023-ci illər üçün ali təhsil sisteminin beynəlxalq rəqabətliliyinin artırılması üzrə Dövlət Proqramı"nın ali təhsilin keyfiyyətinin yüksəldilməsində, ikili diplom proqramlarının genişləndirilməsində və xaricdə doktorant hazırlığında mühüm rol oynayacağına əminliyini ifadə edib.

Azərbaycan Tələbə Gənclər Təşkilatları İttifaqının (ATGTİ) sədri Şahin İsmayılov qeyd edib ki, Azərbaycan dövlətinin gənclər siyasəti uğurla həyata keçirilir. Şahin İsmayılov tələbələrin ölkənin ictimai həyatında fəal iştirakında tələbə-gənclər təşkilatlarının da mühüm rol oynadığını bildirib. Hazırda ATGTİ 100 tələbə-gənclər təşkilatını özündə birləşdirir. Bu, Azərbaycanın bütün ali təhsil müəssisələrinin bir platformada təmsil olunması deməkdir.

Daha sonra Azərbaycan tələbələri haqqında hazırlanmış film nümayiş olunub.

Qurultay tələbələrin çıxışları ilə davam edib. Azərbaycan Dövlət Neft və Sənaye Universitetinin doktorantı Elnur Məmmədli, Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının tələbəsi Lalə Novruzova, "2007-2015-ci illərdə Azərbaycan gənclərinin xarici ölkələrdə təhsili üzrə Dövlət Proqramı" çərçivəsində Böyük Britaniyanın Liverpul Universitetində təhsil almış Ümid Mehdiyev, Bakı Dövlət Universitetinin tələbəsi, sərbəst güləş üzrə üççat dünya çempionu Hacı Əliyev, Azərbaycan Dövlət Pedaqoji Kollecinin tələbəsi Əfsanə Abdullayeva, Naxçıvan Dövlət Universitetinin tələbəsi Kərim Nəcəfov, Azərbaycan Dillər Universitetinin tələbəsi Ayşən Məmmədova, Azərbaycan Dövlət İqtisad Universitetinin tələbəsi Amin Fərəczadə, Azərbaycan Respublikası Dövlət Sərhəd Xidməti Akademiyasının tələbəsi Seyidəli Abbasov öz uğur hekayələrini bölüşüblər.

Tədbirin sonunda Azərbaycan tələbələrinin II qurultayının qətnaməsi qəbul olunub.

Qurultay tələbələrin ifasında hazırlanmış konsert proqramı ilə başa çatıb. Qeyd edək ki, hazırda Azərbaycanın ali məktəblərində bakalavr səviyyəsində 157662, magistratura səviyyəsində 13442, orta ixtisas təhsili müəssisələrində 51819, peşə təhsili müəssisələrində isə 23000 tələbə təhsil alır.

# Dünya azərbaycanlılarını vahid ideya ətrafında birləşdirən bayram

## BDU-da Həmrəylik Günü və Yeni il münasibətilə tədbir keçirilib



Bakı Dövlət Universitetində professor-müəllim və tələbə heyətinin iştirakı ilə 31 dekabr-Dünya Azərbaycanlılarının Həmrəylik Günü və Yeni il münasibətilə tədbir keçirilib. Tədbir iştirakçıları əvvəlcə ulu öndər Heydər Əliyevin universitetin foyesində qoyulmuş büstü önünə gül dəstələri düzüblər.

Azərbaycan Respublikası Təhsil nazirinin müavini, Bakı Dövlət Universitetinin rektoru vəzifəsini icra edən Firudin Qurbanov tədbir iştirakçılarını 31 Dekabr - Dünya Azərbaycanlılarının Həmrəylik Günü və Yeni il münasibətilə təbrik edib, ən xoş arzularını çatdırıb. Firudin Qurbanov bu əlamətdar tarixin qeyd olunmasında ümummilli lider Heydər Əliyevin xidmətlərindən danışaraq bildirib ki, ulu öndərin Azərbaycanda siyasi hakimiyyətə qayıdışından sonra müstəqil Azərbaycan Respublikası dünya azərbaycanlılarının mənafe və maraqlarının təminatçısı olduğunu bəyan edib, xaricdə yaşayan azərbaycanlılarla məqsədyönlü iş aparılmağa başlanılıb. Prezident İlham Əliyevin 31 dekabr-Dünya Azərbaycanlılarının Həmrəylik Günü münasibətilə təbrikini xatırladan Firudin Qurbanov ölkəmiz haqqında obyektiv məlumatların yayılması, dövlət və milli maraqların qorunması istiqamətində görülən işlərə diqqət çəkərək xalqımızın parlaq gələcəyinə əminliyini vurğulayıb.

Sonra Azərbaycan Respublikası Milli Məclisi Sədrinin birinci müavini, professor Ziyafət Əsgərov Dünya Azərbaycanlılarının Həmrəylik Gününün tarixi əhəmiyyətindən, xarici ölkələrdə yaşayan soydaşlarımızın azərbaycançılıq ideyası ətrafında sıx birləşmələrindən və bununla bağlı uğurlu dövlət siyasətindən danışıb.

Tarix fakültəsinin dekanı, dosent Azad Rzayev isə Həmrəylik Gününün tarixindən bəhs edərək, bu əlamətdar bayramın dünya azərbaycanlılarının vahid ideya ətrafında birləşməsində xüsusi roluna diqqət çəkib.

Sonda Dünya Azərbaycanlılarının Həmrəylik Günü ilə əlaqədar hazırlanmış filmin nümayişi olub və tədbir Bakı Dövlət Universitetinin özfəaliyyət kollektivinin təqdimatında bədii hissə ilə yekunlaşıb.

# Bərdənin təhsil işçiləri Cocuq Mərcanlıda

**Niyazi RƏHİMOV**

Bu günlərdə Bərdə rayon təhsil işçilərindən ibarət bir qrup nümayəndə heyəti Cəbrayıl rayonunun Cocuq Mərcanlı kəndinə səfər edib. Səfər çərçivəsində qonaqlar Cocuq Mərcanlıda yerləşən məktəbdə olub, pedaqoji heyət və məktəblilərlə görüşüb. Birgə əməkdaşlıq məqsədi ilə təşkil olunan səfər zamanı qonaqlar məktəblilərə bayram hədiyyələri təqdim edib.

Görüşdə çıxış edən Bərdə Rayon Təhsil Şöbəsinin müdiri Rzaqulu Şərifov Cocuq Mərcanlıda aparılan abadlıq-quruculuq işlərinin, yerli sakinlər arasındakı yüksək əhvali-ruhiyyənin hamı kimi onu da sevindirdiyini deyib. Yaşayış məntəqəsinin düşmənlə qısa məsafədə olmasına baxmayaraq sakinlərin güvənli şəkildə burada yaşamasının xalqımızın ordumuza olan inamından irəli gəldiyini bildirib. Şagirdlərin milli-vətənpərvərlik ruhunda tərbiyə olmasının əhəmiyyətindən də söz açan şöbə müdiri bu işdə təhsil işçilərinin üzərinə düşən məsuliyyəti xüsusilə vurğulayıb. Məktəbin pedaqoji heyətini və şagirdləri qarşıdan gələn bayramlar münasibətilə təbrik edən R.Şərifov onlara gələcək həyatlarında və təhsillərində uğurlar arzulayıb.

Bərdə Rayon Təhsil Şöbəsi Metodik kabinetinin direktoru Xuraman Qurbanova görüşdə bildirib ki, Cocuq Mərcanlıya səfər təhsil işçiləri arasında əməkdaşlıq məqsədi daşıyır. X.Qurbanova onu da deyib ki, Cocuq Mərcanlı məktəbinin müəllim və şagirdlərini də Bərdə məktəbləri ilə tanışlığa dəvət ediblər. Məktəblər arasında birgə əməkdaşlığın əhəmiyyətindən danışan X.Qurbanova yaxın günlərdə cocuqmərcanlıları Bərdədə görəcəklərindən məmnun qalacaqlarını da diqqətə çatdırıb.

Görüş zamanı şagirdlərin ifasında maraqlı ədəbi-bədii kompozisiya nümayiş olunub.

Sonra qonaqlar Cocuq Mərcanlı məscidində və yeni açılmış "Qayıdış" parkında olublar.

# ADNSU-da AzİÎ Elektron Kitab Evi açılıb

## Kitabxana 7 gün, 24 saat fəaliyyət göstərəcək



Dekabrın 27-də Azərbaycan Dövlət Neft və Sənaye Universitetində AzİÎ Elektron Kitab Evinin açılış mərasimi keçirilib. Mərasimdə ADNSU-nun rektoru, professor Mustafa Babanlı, təhsil nazirinin müavini Məhəbbət Vəliyeva, universitetin İctimai Etimad Şurasının sədri, millət vəkili Aydın Mirzəzadə, "Yeni Azərbaycan" qəzetinin baş redaktoru, Milli Məclisin deputatı Hikmət Babaoğlu, həmçinin universitetin professor-müəllim və tələbə heyəti, eləcə də media nümayəndələri iştirak ediblər.

Kitabxananın rəmzi açılışını bildirən qırmızı lent kəsildikdən sonra tədbir iştirakçıları kitabxanada yaradılan şərait, onun resursları və oxu zalı ilə tanış olublar. AzİÎ Elektron Kitab Evinin müdiri Səlahət Mahmudova tədbir iştirakçılarına 24 saat fəaliyyət göstərəcək kitabxananın yeni maddi-texniki bazası, iş prinsipi, kitablar, eləcə də kitabların xüsusi qorunma rejimi haqqında məlumat verib.

Sonra ADNSU-nun rektoru, professor M.Babanlı iştirakçıları salamlayaraq AzİÎ Elektron Kitab Evinin açılış mərasiminin universitetin həyatında ən əlamətdar hadisələrdən biri olduğunu söyləyib. Kitabxananın qurulması prosesi barədə məlumat verən rektor M.Babanlı burada ADNSU-ya məxsus unikal bir sistemin yaradıldığını və AzİÎ Elektron Kitab Evinin sırf AzİÎ brendi olaraq ərsəyə gələn, 7 gün, 24 saat fəaliyyət göstərəcək kitabxana olduğunu vurğulayıb. 800 kvm-lik sahəni əhatə edən kitabxananın universitetin elektron şəbəkəsinə qoşulduğunu diqqətə çatdıran rektor M.Babanlı tələbələrin istifadəsi üçün hər cür şərait yaradıldığını və onun 1 milyon kitab resursuna malik olduğunu qeyd edib. Kitabxanadan istifadə qaydaları haqda məlumat verən rektor gələcəkdə onun ikinci hissəsinin də istifadəyə veriləcəyini bildirib. O, kitabxananın ilk növbədə ADNSU tələbələri və əməkdaşları, gələcəkdə isə bütün ölkə vətəndaşları üçün açıq olacağını deyib.

Təhsil nazirinin müavini Məhəbbət Vəliyeva son illər ərzində ADNSU-da sürətli inkişaf və quruculuq işlərinin müşahidə olunduğunu qeyd edib. ADNSU-nun təkcə maddi-texniki bazasının deyil, eyni zamanda ümumi strukturunun yeniləndiyini diqqətə çatdıran M.Vəliyeva universitetin daha bir unikal layihəyə imza ataraq 24 saat işləyən müasir kitabxana sisteminin yaradılmasında göstərdiyi təşəbbüsü yüksək qiymətləndirdiyini bildirib.

Müasir standartlara uyğun elektron kitab evi ilə AzİÎ-nin özünün yeni brendini təqdim etdiyini deyən millət vəkili Aydın Mirzəzadə ADNSU-nun bununla ölkədə kitabxana mədəniyyətinin inkişafına öz töhfəsini verdiyini söyləyib.

Tədbirin sonunda ADNSU-nun keçmiş məzunu, "Barratson" şirkətinin təsisçisi və Baş direktoru Elşən Rəhimov universitetdə gedən islahatlardan qürur hissi duyduğunu bildirib. O, rəhbərlik etdiyi qurum adından ADNSU-nun AzİÎ Elektron Kitab Evinə 100 ədəd kitab hədiyyə edib.

Qeyd edək ki, 2 mərtəbəli kitabxanada oxu zalları mövcuddur. Burada məşhur kitabxanaların elektron resurslarına, o cümlədən xarici universitetlərin bazalarına daxil olmaq mümkündür. 1 milyon kitab resursuna malik kitabxanada 1200 ədəd elektron kitab var. Kitabların hamısı professor-müəllim heyətinin seçiminə uyğun çeşidlənib və təsnifatlandırılıb. 250 min ədəd kitabın barkodları qeyd olunub. Kitablar xüsusi rəflərdə xüsusi qorunma ilə saxlanılır. Kitabxanada gecə məşğul olmaq istəyən tələbələrin pulsuz qidalanması nəzərdə tutulub.

## Neyroşəbəkə realistik insan sifətləri yaradır




**Yusif ƏLİYEV**

"NVIDIA" şirkətinin tədqiqatçıları realistik görünən insanları generasiya edən alqoritm üzərində uzun illərdir ki, çalışırlar. Bu işin nəticəsi olaraq, "Generative Adversarial Networks" adlı neyron şəbəkə real insanların şəkillərindən fərqlənməyən "fotoşəkillər" yaratmağa başlayıb.

**www.naukatv.ru** saytının məlumatına görə, süni intellekt tərəfindən yaradılan sifətlər "üslubun ötürülməsi" (style transfer) kimi tanınan metod vasitəsilə formalaşdırılır. Neyroşəbəkə bir şəklin xarakteristikasını digəri ilə birləşdirir. Generator fotoşəkili üç üslubun birləşməsi kimi nəzərdən keçirir: "kobud üslublar" (poza, saçlar, üzün forması), "orta üslublar" (üz və göz cizgiləri) və "incə üslublar" (rəng sxemi).

Mütəxəssislərin sözlərinə görə, alqoritm, həmçinin kiçik heyvan və ya obyektlərin şəkillərini yarada bilir. Lakin sistem hələ ki, mükəmməl deyil və şəkillərin saxta olduğunu bildirən əlamətlər mövcuddur. Məsələn, ən çətin hissə saçların yaradılmasıdır. Saçların realistik formalaşdırılmasının çətinliyi ilə əlaqədar olaraq, neyroşəbəkə şəkillərində onlar rənglənmiş və ya qeyri-təbii görünür.

## Süni intellekt texnologiyaları ilə təchiz edilmiş avtobuslar




Çinin Şanxay meqapolisində süni intellekt texnologiyaları ilə təchiz edilmiş ikimərtəbəli ekskursiya avtobusları sınaqdan keçirilir.

**www.belta.by** saytının məlumatında bildirilir ki, Çinin "Baidu" axtarış sistemi və Şanxayın turizm şirkətlərindən biri tərəfindən hazırlanmış yeni avtobuslar şəhər turunu daha rahat etmək üçün nəzərdə tutulub.

Turistlər sifətin tanınması prosedurunu keçdikdən sonra avtobusa əyləşə bilərlər. Avtobusda əlçatan olan simsiz elektron tərcüməçilər vasitəsilə zəruri informasiyanı əldə etmək olar. Onlar rus, ingilis, yapon, Koreya, tay, ispan, alman və ərəb dillərini dəstəkləyir.

Qeyd edək ki, cari ilin noyabrında "Baidu" və Şanxay bələdiyyəsi Şanxayın "ağıllı" şəhərə çevrilməsini nəzərdə tutan strateji əməkdaşlıq üzrə çərçivə sazişi imzalayıblar.

## Rokko adlı tutuquşu İnternetdən meyvə sifariş edir



Rokko adlı Afrika tutuquşusu "Alexa" səsli köməkçisinə əmr etməyi müstəqil şəkildə öyrənib.

Rokkonun sahibi Marion Vişnevski "Alexa"nın istehsalçılarına "valideyn nəzarəti" funksiyasına görə minnətdardır. Çünki yalnız bu funksiya onu kortəbii xərclərdən qoruyub. Belə ki, Rokko bir gün qadcetə müraciət edib və Marionun səsini təqlid edərək, onlayn mağazadan meyvə və çərəz sifariş verib. Sahib robotun tutuquşunun bütün sifarişlərini qəbul etmədiyini bildirib. Artıq Marion hər gün "Alexa"nın hesabatlarını oxumaq və Rokkonun bir çox əmrlərini ləğv etmək kimi bir vərdişə yiyələnib.

**www.techcult.ru** saytının məlumatına görə, "Alexa" səsli idarəetməsi reallıqda istehsalçıların nəzərdə tutduqlarından daha effektiv olub. Sahib daim tutuquşunun robota musiqini qoşmağı necə əmr etdiyini müşahidə edir. "Alexa" əmrləri dəqiqliklə yerinə yetirir, sonra Rokko ilə mehribanlıqla "söhbət edir".

İstedadlı tutuquşu çoxdan anlayıb ki, evdə insanlar olmayanda bu elektron cihaz çox əyləncəli ola bilər. "Alexa"nın hesabatlarına əsasən, Rokko onu gündə ən azı 40 dəfə aktivləşdirir.

# "Hədəfim Prezident təqaüdçüsü olmaq idi"

## *Fərzalı Məhərrəmli:* "Gimnaziyanın təkcə builki buraxılışının 8 məzunu 600-dən yuxarı bal toplayıb"



**Samirə KƏRİMOVA**

Hər dəfə yüksək biliyə malik, istedadlı gənclərlə rastlaşanda onları yaxından tanımaq, eyni zamanda ictimaiyyətə də tanıtdırmaq arzusu oyanır qəlbimdə. Təsadüf elə gətirdi ki, onunla başa vurmaqda olduğumuz 2018-ci ilin son günlərinin birində tanış oldum.

Onu öz həmyaşıdlarından fərqləndirən başlıca xüsusiyyət yüksək bilik və bacarığa sahib olmasıdır. Ağlına belə gəlməzdi ki, bir gün hamı ondan qürur hissi ilə danışacaq, böyüyüb-boya başa çatdığı ailəsinin, bütövlükdə rayonun fəxrinə çevriləcək. Söhbət Azərbaycan Dövlət İqtisad Universitetinin Beynəlxalq İqtisadiyyat Məktəbinin maliyyə ixtisası üzrə I kursunda təhsil alan, Prezident tədaüdçüsü Fərzalı Məhərrəmlidən gedir.

2000-ci il dekabrın 8-də Ağdaş rayonunun Dəhnəxəlil kəndində anadan olan Fərzalı ibtidai təhsilini şəhərdəki Bəkir Nəbiyev adına 3 nömrəli tam orta məktəbdə alıb. 5-ci sinifdən təhsilini Ağdaş şəhər Maqsud Şeyxzadə adına internat tipli Texniki, humanitar və təbiət fənləri təmayüllü gimnaziyada davam etdirib. Oxuduğu illər ərzində gimnaziyanın yüksək təlim göstəriciləri ilə fərqlənən şagirdlərindən biri olub. Məktəblilərin fənn olimpiadalarında müvafiq yerlər tutub, eləcə də "Xəmsə" Milli İntellektual oyunları üzrə respublika çempionatında komanda kapitanı olaraq öz biliyi və hazırcavablılığı ilə təhsil aldığı rayonun məktəblilərini layiqincə təmsil edib. Orta məktəbi fərqlənmə attestatı ilə bitirib: "Təhsil aldığım müddətdə hər zaman biliyimə görə seçilən şagird olmuşam. Müəllimlərim də yüksək biliyə malik pedaqoqlar idi. Gimnaziyanın direktoru Şəhla Hacıbalayevanın bizə qarşı tələbkarlığı, eyni zamanda, biz şagirdlərin potensialını vaxtında görüb düzgün istiqamətləndirməsi sonda uğurlu nəticələr əldə etməyimizə imkan verdi. Gimnaziyanın təkcə builki buraxılışının 8 məzunu 600-dən yuxarı bal toplayıb. Oxuduğum təhsil ocağının müəllimlərinin üzərimdə çəkdiyi əziyyətini danmaq haqsızlıq olar", - deyə o, bizimlə söhbətində bildirdi.

Elə məhz gimnaziya rəhbərliyinin yüksək peşəkarlığı, müəllim-şagird-valideyn münasibətlərinin düzgün qurulmasının, təhsil müəssisəsində əlverişli təlim mühitinin yaradılmasının nəticəsi olaraq Fərzalı Məhərrəmli builki ali məktəblərə qəbul imtahanlarında 685 bal toplayaraq ən böyük arzusuna çatır. Azərbaycan Dövlət İqtisad Universitetinin Beynəlxalq İqtisadiyyat Məktəbinin maliyyə ixtisasına qəbul olunur. Ölkə başçısı İlham Əliyevin sərəncamı ilə Prezident təqaüdünə layiq görülən gənclərdən biri olur: "Hədəfim yüksək nəticə əldə edərək Prezident təqaüdçüsü olmaq idi. Sevinirəm ki, çoxları üçün əlçatmaz olan bu arzuma çatdım. Həmin xoş hadisəni həyatımın uğurlu başlanğıcı kimi qəbul edirəm. Bu qədər gəncin içindən seçilmək, tanınmaq və əldə etdiyim uğurun dövlət başçısı İlham Əliyev tərəfindən qiymətləndirilməsi mənim üçün ən böyük mükafatdır".

Fərzalının vaxtilə təhsil aldığı gimnaziyanın direktoru Şəhla Hacıbalayeva onun oxuduğu illərdə hər zaman diqqətdə saxlanıldığını deyir: "Fərzalı öz əzmkarlığı ilə hər zaman seçilirdi. Onun başqa şagirdlərdən fərqli cəhəti özünə qarşı inamlı, məqsədinə çatmaq üçün çox çalışqan olmasıdır. Gimnaziyamız onunla qürur duyur. Sevindirici haldır ki, bizim belə savadlı gənclərimizin sayı ildən-ilə artır".

Bəli, bu gün Fərzalının çevrəsi, onu yaxından tanıyanlar bu gənclə fəxr etdiklərini söyləyir. Fərzalı Məhərrəmli bu qürur və fəxarət hissinin daha başqa hədəflərinə çatmaqla davamlı olmasını qarşısına məqsəd qoyub. Bir vaxtlar xəyalını qurduğu, arzuladığı ali məktəbə, seçdiyi ixtisasa qəbul olunan gənc tələbəlik həyatından ağızdolusu danışır. Azərbaycan Dövlət İqtisad Universitetində tədrisin müasir təhsil standartlarına uyğun, hər bir prosesin gənclərin daha rahatlıqla tələbəlik həyatına adaptasiya olunmasına yönəlik olduğunu, eləcə də onların savadlı kadr kimi Azərbaycan iqtisadiyyatında layiqli yer tutması üçün çoxsaylı layihələrin həyata keçirildiyini söyləyir: "Mən çox şanslıyam ki, məhz Azərbaycan Dövlət İqtisad Universitetinin tələbəsiyəm. Ən böyük arzum isə gələcəkdə magistratura təhsilimi Almaniyada davam etdirməkdir".

## Məktəbdə Mikayıl Müşfiqin abidəsi ucaldılıb

Paytaxtdakı 18 nömrəli tam orta məktəbdə görkəmli şair Mikayıl Müşfiqin abidəsinin və xatirə lövhəsinin açılış mərasimi keçirilib.

Bakı Şəhəri üzrə Təhsil İdarəsinin təşkilatçılığı ilə keçirilən tədbirdə Təhsil nazirinin müavini, idarənin müdiri vəzifələrini icra edən Məhəbbət Vəliyeva, Yasamal Rayon İcra Hakimiyyətinin başçısı Əziz Əzizov, idarənin struktur bölmə rəhbərləri, Cabir Novruz Mədəniyyət Fondunun nümayəndələri, şairin yaxınları, məktəb direktorları, müəllim və şagirdlər iştirak ediblər.

Tədbirdə giriş sözü ilə çıxış edən 18 nömrəli tam orta məktəbin direktoru Rəna Süleymanova 1968-ci ildən təhsil müəssisəsinin Mikayıl Müşfiqin adını daşıdığını bildirib. Direktor çıxışı zamanı rəhbərlik etdiyi təhsil müəssisəsinin keçdiyi inkişaf yolundan və bu müddət ərzində məktəbin qazandığı uğurlardan söhbət açıb.

Tədbirdə çıxış edən Məhəbbət Vəliyeva Prezident İlham Əliyevin sərəncamına əsasən, Azərbaycan poeziyasının görkəmli nümayəndəsi Mikayıl Müşfiqin anadan olmasının 110 illiyinin ölkəmizdə böyük təntənə ilə qeyd edildiyini bildirib. M.Vəliyeva milli ədəbiyyatımızı lirik şeirlər, poemalar, nağıllar, uşaq şeirləri ilə zənginləşdirən Mikayıl Müşfiqin misilsiz sənət inciləri yaratdığını, ədibin qısa ömründə poeziyaya böyük töhfələr verdiyini iştirakçıların diqqətinə çatdırıb.

Yasamal Rayon İcra Hakimiyyətinin başçısı Əziz Əzizov unudulmaz şair, repressiya qurbanı Mikayıl Müşfiqin həyat və yaradıcılığından, ədəbiyyatımızdakı xidmətlərindən söhbət açıb. Abidənin ucaldılmasını yüksək dəyərləndirən Ə.Əzizov bunun böyük şairin irsinə olan marağı daha da artıracağına inamını ifadə edib.

Tədbirdə şagirdlər ədəbi-bədii kompozisiyalar nümayiş etdirib, şairin şeirlərindən parçalar söyləyib və mahnılar ifa ediblər.

## Peşə təhsili mərkəzinin tələbələri qalib olub

Bakı Mühəndislik Universitetində Tələbə Elmi Cəmiyyətinin təşkilatçılığı ilə IV Qış Elm Festivalı keçirilib.

Festivalda Texnika və Texnologiyalar üzrə Bakı Dövlət Peşə Təhsil Mərkəzinin tələbələri tərəfindən təqdim olunan "Su mühərriki" və "Muncuqlarla kreativ incəsənət nümunəsi" layihələri kateqoriyalar üzrə aparılmış qiymətləndirmə nəticəsində I yerə layiq görülüb. Mərkəzin tələbələri həmçinin, "Plastmas tullantılardan kreativ incəsənət nümunələri" layihəsi üzrə III yeri qazanıblar.

Qaliblər medal, sertifikat və hədiyyələrlə təltif olunublar.

Qeyd edək ki, festivalın məqsədi gənc istedadları üzə çıxarmaq, onlara stimul vermək, tələbələrdə elmə qarşı maraq yaratmaqdır.

Festivala 100-dən çox layihə təqdim olunub.

# Şaxta Babadır gələn...

## Bayram şənliyinə valideyn himayəsindən məhrum olan uşaqlar da qatıldılar

**Sifai SƏFƏROVA**

Azərbaycan Respublikası Təhsil Nazirliyinin 2 nömrəli Uşaq-Gənclər İnkişaf Mərkəzinin təşkilatçılığı ilə Azərbaycan Dövlət Gənc Tamaşaçılar Teatrında məktəblilər üçün "31 Dekabr - Dünya Azərbaycanlılarının Həmrəylik Günü"nə və Yeni ilə həsr olunan bayram şənliyi keçirildi. Bayram şənliyinə həvəslə hazırlaşan uşaq və yeniyetmələr tədbir boyu öz istedad və bacarıqlarını məharətlə nümayiş etdirirdilər. Yeni ilin elementləri nümayiş olunan, zövqlə bəzədilən səhnə göz oxşayır, könül açırdı. Hamı bayram əhvali-ruhiyyəsində idi. Uşaqların şaqraq gülüşləri isə bayram şənliyinə xüsusi ahəng qatırdı. Onlar deyir-gülür, şənlənirdilər. Elə bu vaxt Şaxta Babanın gur səsi eşidildi. Onun özünəməxsus tərzdə bayram çağırışları ilə səhnədə görünməsi uşaqların ovqatını yenidən köklədi. Şaxta Baba öncə məktəbli dostlarını Yeni il bayramı münasibətilə təbrik etdi və onlarla birlikdə "Yeni il gəlir" mahnısını səsləndirdi...



Sonra isə meydan sənət bilicilərinin - Azərbaycan Dövlət Gənc Tamaşaçılar Teatrı aktyorlarının və Mərkəzin "Məktəb teatrı" dərnək üzvlərinin ixtiyarına verildi. Aktyorlar dərnək üzvləri ilə birlikdə həvəslə hazırladıqları "Bremen musiqiçiləri" tamaşasını nümayiş etdirdilər. Bayram şənliyində paytaxtın 86, 98, 116, 279 nömrəli və digər orta ümumtəhsil məktəblərinin şagirdləri fəallıq nümayiş etdirdilər.

Valideyn himayəsindən məhrum olan uşaqların iştirakı şənliyi daha yaddaqalan etdi.

# "Yaxşı ki, müəllim oldum..."

Jalə MÜTƏLLİMOVA

## *Nazim Qasımov:* "İnsan iddialarının ardınca gedəndə mütləq yaxşı nəticələr əldə edir"

İnsanlar olur ki, onlarla ünsiyyətdə özün də anlayırsan: Ən böyük kitab İNSANdır... Bir də onu düşünürsən ki, gündə bir insan tanıyıb onunla ünsiyyət qurursansa, nə mutlu sənə, demək ki, hər gün maraqlı bir kitab oxuyursan...

Belə insanlar Azərbaycan təhsil sistemində də çoxdur. Bu gün sizə onlardan növbətisini tədqim edirik. Bakı şəhəri 70 nömrəli məktəb-liseyin direktoru Nazim Qasımovu. O, həm də bu günlərdə 70 illik yubileyini qeyd edir. 70 nömrəli məktəbdə 41 ildir direktorluq fəaliyyəti və 70 yaş, gözəl nəticədir. Həm də aid olduğu sistemə töhfədir. Gəlin görək bu 70 illik həyat yolunun 40 ildən çoxunu həsr etdiyi sahədə Nazim müəllimin hansı fəaliyyəti, nə kimi çətinlikləri və uğurları olub?!..

### Qaraçəmənlidən başlayan həyat...

1949-cu ilin yanvarında Qərbi Azərbaycanın Zəngəzur mahalı, Qafan rayonu, Qaraçəmən kəndində müəllim ailəsində anadan olmuşam. İlk təhsilimi kəndimizin məktəbində almışam. Orda yeddiillik məktəbimiz vardı, oranı bitirdim. Sonra qonşu kəndin məktəbində bir il təhsil aldım. Səkkizinci sinfi bitirdikdən sonra bizim illərin çox məşhur məktəblərindən birinə üz tutdum - Bakı Politexnik Texnikumuna.

### Bakı başqa mühit idi...

Bakıya gələndə anladım ki, tamam fərqli məkan və mühitdəyəm. Yəni buranın qaydaları bizim kənddən çox fərqlidir. Kənd və şəhər məktəbində şagird, tələbə olmağın da ayrı-ayrı cəhətləri var imiş. Bizim kəndimizdə sinifdə cəmi səkkiz uşaq idi, burda iyirimidən artıq. Kənddən gələndə qorxduğum bir şey var idi. Deyirdim birdən burdakı uşaqların arasında savadına, qabiliyyətinə görə ən zəifi olaram, mənə gülərlər. Ancaq dərslərimiz başlayanda gördüm ki, elə deyil, yəni mən də kimdənsə zəif və aciz uşaq deyiləm. Əksinə, çoxundan güclüyəm. Düzünə qalsa, qrupda məndən savadlısı yox idi. Sonra yadıma düşdü ki, biz imtahan verəndə qəbula müxtəlif rayonlardan 1200 şagird gəlmişdi, amma cəmi 25-i seçilməli idi. Öz-özümə düşündüm ki, mən o 25-dən biri ola bilmişəm, niyə bu auditoriyada özümü qorxmuş kimi göstərim ki?! Özümə belə tənqidi yanaşa bilməyim məni vəziyyətdən çıxardı. Beləcə, texnikumun avtomobil nəqliyyatı fakültəsində təhsilimə davam etdim.

### 1963-cü il idi...

Bir riyaziyyat müəllimim var idi. Əslən şəkili idi. Bütün günü məndən dərs soruşurdu. Hətta sinifdə kimsə dərsə hazır olmayanda mən hazır olmalı idim. Bilirdim, mütləq məni çağıracaq. Yenə bir gün çoxluq dərsə hazır deyildi, müəllim məni çağırdı. Dedim day gəlmirəm müəllim, mən dərs danışıram, sonra kimsə mənimlə danışmır. Onlardan tələb edin, daha məni çağırmayın. Müəllim xeyli güldü. O günki uğurum bircə bu oldu ki, müəllim kimsəyə pis qiymət yazmadı, eləcə dərsi izah etdi.

### Kəndlərdə dərsə maraq...

Bilmirəm bu nəylə bağlı idi, öz-özümə deyirəm ki, yəqin kənddə sosial-iqtisadi problemlərin çoxluğuna görə belə olmuşdu, oxuyan uşaqlar çox idi, son dərəcə çox. Hamı da iddialı idi. Böyük adam olmaq istəyirdik. Ən azı ali təhsil almağa meyilli idi hər kəs. Məsələn, bayaq danışdığım Politexnik Texnikumuna qəbul olan 25 uşaqdan dördü mənim sinif yoldaşım idi. Özü də bizim avtomobil nəqliyyatı fakültəmiz sovetlər dönəmində oğlanlar üçün ən populyar fakültələrdən sayılırdı. Bəlkə də elə ən populyarı o idi.

**Bu məktubla aləm bir-birinə dəydi. Sovetlər dönəmi idi, beynəlmiləlçilik təbliğ olunurdu. Amma bu ad altında daha çox üstünlük verilən millətlər var idi. Başqaları millətçilik, dövlətçilikdən danışa bilməzdilər. İndi gənc bir oğlan gəlib, haralarasa məktub göndərib ki, rus bölməsini ləğv etmək lazımdır.**

### Texnikumda oxumaq istəmirdim...

Bilmirəm nəyə görə, amma belə oldu. Dərs ilini başa vurdum və sevimli riyaziyyat müəllimim İsfəndiyar müəllimə dedim ki, mən gedirəm kəndimizə, burda qala bilmirəm. Gedib onuncu sinfi bitirəcəm, sonra başqa ixtisas seçəcəm, məndən yol polisi olmaz. İsfəndiyar müəllim bunu dekanımıza dedi. Cavabları bu oldu ki, yaxşı oxuyan tələbə hər gün tapılmır, səni buraxmayacağıq, amma şərait yarada bilərik ki, ali təhsil almaq üçün Bakıda axşam məktəbində onuncu sinif təhsilini də alasan. Başqa yolum yox idi. O üzdən razılaşdım. Beləcə, 106 nömrəli məktəbin axşam sinfinə daxil oldum. Gündüz texnikumda, gecə məktəbdə oxuyurdum. Fənn qiymətlərimin hamısı əla idi. Onu da deyim ki, o illərdə nadir hallarda iki təhsilə icazə verilirdi. Müəllimlərim bu nadir hüquqdan istifadə etməyimə şərait yaratmışdılar. Buna görə onların adını indi də hörmətlə anıram.

### Müəllimliyə ilk yol...

Texnikumda oxuyanda inad bir müəllimimiz var idi. Uşaqlar ondan beş qiymət ala bilmirdi. Mən də ondan beş almaq üçün mübahisə edən tələbələrdən idim. Bu mübahisələrin birindən sonra yenə də İsfəndiyar müəllim mənə dedi ki, gəl sən müəllim ol, özün də yol polisi olmaq arzusunda deyilsən, fizikanı əla bilirsən, sənədlərini hazırla Pedaqoji İnstitutun fizika fakültəsinə. Beləcə, mən yenə də sevimli müəllimim sayəsində artıq gələcək həyatımı qurmaq istiqamətində ciddi və ilk addım atdım.

Həm iki yerdə oxumalı, həm də dolanmaq üçün işləməli idim. Düzdür, ailəmin mənə maddi dəstək olması üçün bütün imkanları var idi. Ancaq mən onların nəsə etmələrini istəmirdim. Düşünürdüm ki, məktəbi bitirib, tələbə olmuşamsa, deməli, özümü dolandırmağı da öyrənməliyəm. Amma bir məsələ var idi, mən həm də axşam şöbəsində oxuyurdum. Axşam şöbəsində oxuyanları isə mütləq hərbi xidmətə göndərirdilər. Onlar hərbi xidməti bitirdikdən sonra təhsillərini davam etdirə bilərdilər. Mən arada iki il təhsil müddəti intervalı olmasını istəmirdim. O üzdən rektorun adına ərizə yazdım ki, qiymətlərim yaxşıdır, hamı da məni tanıyır, zəhmət olmasa məni gündüz şöbəsinə keçirin. Bu müraciətimə də müsbət cavab gəldi. Gündüz oxuyurdum, gecə boş vaxtlarım olanda da yaşadığım evin səliqə-səhmanı və işləyib pul qazanmaqla məşğul idim.

### Qaraj müdiri...

Texnikumu bitirdim. Amma ali təhsil davam edirdi. Yaxın dostlar və yenə də müəllimlər sayəsində maşın qarajında mexanik kimi işə düzəldim. Bir neçə aydan sonra isə məni o qaraja müdir təyin etdilər. Beləcə, olmuşdum müdir-tələbə. Həm APİ-də təhsil alırdım, həm də işləyib pul qazanırdım, artıq ailə üzvlərimə də lazım gələndə köməklik edə bilirdim. Bunun məni nə qədər fərəhləndirdiyini ifadə etməkdə çətinlik çəkirəm. Müdir olduğum üçün o vaxt mənə maşın da vermişdilər. Qaldığım yataqxanaya maşınla gedib gəlirdim. Bir az da gülməli idi. Tələbə, evsiz, müdir və maşın... Yəni həyatımda son dərəcə çoxlu və qəribə təzadlar var idi.

Ən maraqlısı da o idi ki, bu qədər işin, qayğının arasında ən sevdiyim iş oxumaq idi. Mən təhsil müddətində bilet çəkib oturub hazırlaşdığım yadıma gəlmir. Biletimi çəkib, danışıb, beşimi, ya da dördümü alıb gedirdim. Dövlət imtahanını da belə elədim. Amma tərs müəllimlərimiz də var idi. Bileti çəkdim, dedim danışmaq istəyirəm, dedi otur hazırlaş. Baxmayaraq ki, bilirdim, mənə fəlsəfə imtahanından bu hərəkətimə görə üç qiymət yazdılar. Təhsil aldığım müddətdə aldığım yeganə pis qiymət bu idi.

Ali təhsilimi də başa vurdum və artıq fizika müəllimi idim. Bir məsələ var idi, hərbi xidmətdə olmamışdım. Ona görə ərizə yazıb hərbi xidmətə getdim. Xidmətdən sonra təyinatımı 92 nömrəli fəhlə-gənclər məktəbinə verdilər. İndiki Xəzər Universitetinin binasında yerləşirdi o məktəb. 1972-ci ildə pedaqoji fəaliyyətə başladım. Altı aydan sonra artıq həmin məktəbdə direktor müavini kimi çalışırdım.

### 27 yaşlı direktor...

Bayaq dedim ki, mənim həyatımda təzadlar, həm də maraqlı hadisələr çoxdur. Məsələn, yetmişinci illərdə mən Bakıda ən gənc məktəb direktoru idim, 27 yaşım var idi. Mənə qədər Zəhra xanım 70 nömrəli məktəbdə direktor olub. Direktorluq mənə təklif olunanda o, yeni dünyasını dəyişmişdi. Bir qədər bu vəziyyət məni çəkindirdi. Ancaq sonra məlum oldu ki, başqa seçim imkanım yoxdur. Beləcə, direktor kimi fəaliyyətə başladım. O illərdə bu məktəbin durumunu izah etmək indiki zamandan baxanda çox dəhşətli idi. Ərazi baxımından məktəb elə yerdə yerləşirdi ki, daha çox qeyri-azərbaycanlılar çoxluq təşkil edirdi. Məktəb Azərbaycandilli məktəb olsa da, burda bizim uşaqlar çox aşağılanır, əziyyət çəkirdilər. Mən məcburi addımlar atmalı idim. Birinci addımım o oldu ki, aidiyyəti üzrə rəsmi məktub yolladım və xahiş etdim ki, məktəbdə rus bölməsi ləğv olunsun.

### "KQB"-nin narahatlığı...

Bu məktubla aləm bir-birinə dəydi. Sovetlər dönəmi idi, beynəlmiləlçilik təbliğ olunurdu. Amma bu ad altında daha çox üstünlük verilən millətlər var idi. Başqaları millətçilik, dövlətçilikdən danışa bilməzdilər. İndi gənc bir oğlan gəlib, haralarasa məktub göndərib ki, rus bölməsini ləğv etmək lazımdır. Bir gün zəng gəldi, dedilər səni Mərkəzi Komitəyə çağırırlar. Getdim, çox yüksək vəzifəli məmurlar dedilər ki, sən neynəmək istəyirsən? Düzü, adam bir az çəkinirdi. Elə zəmanə idi, nə desən edərdilər. "KQB" maraqlanır dedilər, səni ləkələyəcəklər, ehtiyatlı ol. Dedim mən heç nə etmirəm, qeyri-millətlər bizi o məktəbdə aşağılayır, mən də deyirəm ki, belə olmaz. Çox müzakirələrdən sonra nazirliyə yuxarıdan dedilər ki, nə istəyir etsin, amma ehtiyatlı olsun. Bu "ehtiyatlı olun" sözü ağlımda qaldı. Sonra bir neçə dəfə ləkələmək cəhdləri etdilər, amma alınmadı. Uzun müddət araşdırdılar, gördülər ki, bir şey çıxmır, əl çəkdilər. Deyim ki, o hadisədə çox həyəcan keçirmişdim. Beləcə, məktəbi qurduq.

Son illərdə məktəb yenidən təmir olundu. Xeyli avadanlıqlarımızı yenilədilər. Mənim də əmək kitabçamda bu məktəbə direktor təyin olunduğum gündən bəri başqa ad düşməyib.

Direktor olduğum müddətdə eksperimental fizikadan elmi iş götürdüm. O zaman bu, çox çətin iş sayılırdı. Elmi işimi müdafiə etdim, fizika-riyaziyyat elmləri namizədi elmi dərəcəsini aldım. İddialı idim, hər şeyim olmalı, ailəm əziyyət çəkməməli idi. Zaman-zaman hamısına nail oldum. İndi düşünürəm ki, insan iddialarının ardınca gedəndə mütləq yaxşı nəticələr əldə edir. Mən də əldə etdim. O üzdən, yaxşı ki, müəllim oldum...

**SON:** *Nazim müəllimin danışdıqlarının çox az bir qismi idi sizin oxuyub, tanış ola bildikləriniz. Sağollaşanda dedim ki, yaşlı nəsil nümayəndələri, xüsusən də pedaqoqlarla ünsiyyət çox maraqlı olur, amma siz bu xatirələri yazıb kitab halına salın. Gənc həmkarlarınıza örnək ola biləcək pedaqoji nümunələriniz, xatirələriniz var. Bir az düşündü, dedi ki, mütləq edəcəyəm. Məncə, lazımdır, çünki gələcəkdə də nümunə olan adamlardan örnək götürəcək insanlar yetişməlidir. Bu nümunələrsə nəsildən-nəslə ancaq kitablarla ötürülə bilər.*

"Məktəb illəri"









## "İstedadlı şagird üçün istedadlı müəllim" müsabiqəsinin nəticələri açıqlanıb

Təhsil İnstitutunun təşkilatçılığı ilə keçirilən "İstedadlı şagird üçün istedadlı müəllim" müsabiqəsinin nəticələri açıqlanıb.

Azərbaycan və rus bölmələri üzrə təşkil olunan müsabiqədə Bakı şəhəri və ölkəmizin bütün bölgələri əhatə olunmaqla 1500-dən çox müəllim iştirak edib.

Müsabiqənin məqsədi ümumi təhsil müəssisələrində çalışan müəllimlərin istedadlı şagirdlərlə bağlı fəaliyyətlərə daha yaxından cəlb edilməsi, həmin şagirdlərlə işləyəcək pedaqoji kollektivin müəyyənləşdirilməsi, müəllimlərin müxtəlif layihələrdə iştirakı təmin olunmaqla pedaqoji və akademik bacarıqlarının inkişafının təmin edilməsidir.

Beş fənn - riyaziyyat, fizika, kimya, biologiya və informatika üzrə keçirilən müsabiqənin ümumi mükafat fondu 15000 manatdır. Hər bir fənn üzrə I yerin qalibinə 1500 manat, II yerin qalibinə 1000 manat, III yerin sahibinə isə 500 manat mükafat veriləcək.

Müsabiqənin nəticələri ilə *olimpiada.edu.az* saytında tanış olmaq mümkündür.

## Breyn-rinq intellektual oyunu keçirilib

Paytaxtın ümumi təhsil müəssisələrinin şagirdləri arasında breyn-rinq intellektual oyunu keçirilib.

Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyi və Dünya Azərbaycanlılarının Həmrəyliyi Gününə həsr olunmuş yarışda 84, 87, 97, 226, 232, 316 və 327 nömrəli tam orta məktəblərin IV sinif şagirdlərindən ibarət komandaları iştirak ediblər.

İntellektual oyunun əsas məqsədi məktəblilər arasında milli-mənəvi dəyərlərimizi təbliğ etmək, onları tariximiz, mədəniyyətimiz haqqında maariflәndirmək, istedadlı şagirdləri üzə çıxarmaq və onların asudə vaxtını səmərəli təşkil etməkdən ibarətdir.

3 turdan ibarət olan yarışın nəticələrinə əsasən, BŞTİ-nin tabeliyindəki 232, 97 və 327 nömrəli tam orta məktəblərin komandaları müvafiq olaraq I, II və III yerlərə layiq görülüblər.

Sonda qalib komandalar diplom, medal və hədiyyələrlə təltif ediliblər.

## Ay ürək



**Ofelya BABAYEVA,**
*"Şöhrət" ordenli, Əməkdar müəllim*

Bir dəli həsrətə tuş etdin məni,
Qəfəsdə çırpınan quş etdin məni,
Çiçəkli yaz idim, qış etdin məni,
Alışdım, odlandım, yandım, ay ürək.

Kövrəldin, qəribtək düşdün qürbətə,
Lənətlər yağdırdın taleyə, bəxtə,
Nə mehrə inandın, nə də ülfətə,
Bəzən öz eşqini dandın, ay ürək.

Min ömür yaşadım bircə anda mən,
Yollarım olmadı zümrüd, göy çəmən.
Sıxıldım tay-tuşlar içində bəzən,
Özünü kimsəsiz sandın, ay ürək.

Sən mənim ömrümə çıraqsan, çıraq,
Kim deyir dünyada qonağıq, qonaq.
Ulu dünyamızda hamıdan qabaq
Sən məni anlayıb, qandın, ay ürək.

## Sabaha bir ömür var...

Gözümün giləsinə
Sıxmışam kainatı
Yumub, açdım bircə an
İtirdim bu həyatı.

Heydən düşmüş dünyada,
Bu bürüşmüş dünyada,
Bircə göz qırpımı da
Nə zor imiş dünyada

Bir işıq arayırsan,
Fərqi yox, yaşıl, sarı.
Yoruldun geri qaldın
Hər şey yarıbayarı.

Ağacların, güllərin
Dilini öyrənmişəm.
Bəzən aydın, buludsuz,
Bəzən duman, çənmişəm.

Dünən yoxdur, bu gün var,
Ömür xəzri, gilavar,
Sabah varmı? Ya qismət,
Sabaha bir ömür var...

## Taleyim

Dağlarda dünyaya göz açdığımdan,
Sanıram taleyim belə sərt olub.
Ötən günlərimdən söz açdığımdan,
Xatirə dumanı mənə dərd olub.

Xırda komaları, lal kəhrizləri,
Anmışam hər payız, anmışam hər qış.
Yalçın qayalarda qartal izləri
Salıbdır qəlbimə əbədi naxış.

Ulu keçmişimin nişanələri,
Uçuq daxmaları - ilk məhəbbətim.
Uca zirvələri - kaşanələri
Olub ilk sədlərim, ilk sərhədlərim.

Yanıb qovruluram hey için-için,
Yaxşı ki, iztirab görünmür gözə.
Mən öz bəxtim üçün, öz taleyimçün
Düşürəm alova, düşürəm közə.

Çalır şahmar kimi bizi hər naşı,
Neyləsin, yaxşılıq gəlmir əlindən.
Sızlayır, sızlayır qəlbimin başı,
Düşür saçlarıma yavaş-yavaş dən.

Yolumu kəsdikcə payızlar, qışlar,
Qəlbimdən baharı ata bilməyir.
Tökdükcə başıma qarlar, yağışlar
Boran məqsədinə çata bilməyir.

Gileyli deyiləm öz taleyimdən,
Yaxşı ki, əzəldən belə sərt olub.
Məni keşməkeşə salsa da hərdən,
Ancaq kişi kimi daim mərd olub.

Hər zaman vüqarlı, qürurlu, ötkəm,
Beləcə ömr edib yaşaya bilsəm...
Dəmərəm özümə heç taleyikəm,
Çiynimdə el dərdi daşıya bilsəm.

## Müəllimlə söhbət



**Almaz NOVRUZQIZI,**
*Bakı şəhər 51 nömrəli tam orta məktəbin riyaziyyat müəllimi*

Bizim doğma şəhərdə bir müəllim yaşardı,
Çox faydalı işindən hamı razı qalardı.
Hər sözündə bir məna, hər kəlməsi bir hikmət,
Qayğısıyla bəslərdi, o hər kəsə məhəbbət.

O, ruzi qazanardı savadıyla, elmiylə,
Şagirdlər güc alardı müəllimin gücüylə.
Kamalla böyüyürdü dərs dediyi uşaqlar,
Onun mükafatıydı adlı-sanlı məzunlar.

İllər keçdi, müəllim yaşa doldu, qocaldı,
Onun şöhrəti-şanı yüksəklərə ucaldı.
Amma heç yorulmadı, usanmadı işindən,
Əl çəkmədi öz doğma, sevimli peşəsindən.

Bir gün yenə məktəbə öz işinə gələndə
Bığıburma bir cavan peyda oldu önündə.
Dayanıb lovğa-lovğa müəllimlə üz-üzə,
Qocanın qarşısında durub başladı sözə:

-Ey müəllim, qulaq as, yetər bu qədər zəhmət!
Nə vaxtadək məktəbdə çəkəcəksən əziyyət?
Müəllimim olmusan, sənə hörmətim böyük,
Qoymaram bundan belə daşıyasan ağır yük.

Bil ki, sənin sayəndə iş adamı olmuşam-
Verdiyin biliklərlə böyük şirkət qurmuşam.
Ağıllı məsləhətə ehiyacım var mənim,
Heç peşiman olmazsan, çox qazancım var mənim.

Müəllim çox diqqətlə baxdı onun üzünə-
Ötən illər qayıtdı gözlərinin önünə.
Dinlədi şagirdini, sözlərini kəsmədi,
Dinlədi sona kimi, elə bildi dərsdədir.

Müəllim dedi: - Oğul, belə cahillik etmə,
Razıyam öz peşəmdən, mənə ağıl öyrətmə,
Alnımın zəhmətilə gözüm toxdur, üzüm ağ,
Öz işimi görməyə gücüm yetər, inşallah.

Biliyim xəzinədir, sizsə dövlətim-varım,
Mənə də dərs veribdir böyük söz ustadlarım.
Sevdiyim bu sənətim, halal qazancım bəsdir,
Düşünsən bilərsən ki, dediklərin əbəsdir.

Cavan oğlan sarsıldı müəllimin sözündən
Utandı, tez yayındı ustadının gözündən,
Başa düşdü ki, yenə ona dərs verdi qoca,
Bir daha şagirdindən müəllim oldu uca.

## Dost yanında



**Qənirə MEHDİXANLI,**
*təqaüdçü müəllim*

Şair könlüm coşdu yenə,
Gecə-gündüz xoşdu mənə,
Yavan çörək aşdı mənə,
Qədir bilən dost yanında.

Məclisimiz qoy uzansın,
Söndürməyin şamlar yansın,
Sağlıq-sağlığa calansın,
Dostlar, dostun ünvanında.

Dostlar ilə günün xoşdu,
Tənha qalsan dünyan boşdu,
Həm bacıdı, həm qardaşdı,
Əgər saflıq var qanında.

Mehdixanlı bu bir soyad,
Vəfasızdır, keçər həyat,
Ruhdan düşmə, yazıb-yarat,
Həyat eşqi var canında.

## Əyilmə-Əyil!



**Fatma İSRAFİLOVA,**
*Zaqatala şəhər Z.Murtuzəliyev adına 1 nömrəli tam orta məktəbin direktoru, Əməkdar müəllim*

Nəfsi böyük, iti tamah gödənlərə,
Bir qarnını, bir özünü güdənlərə,
Təmtərağa dizin-dizin gedənlərə
Əyilmə sən, əyilmə sən!

Şöhrət üçün məsləkini satanlara,
El malından xısın-xısın dartanlara,
Yırtılınca yeyənlərə, axşamacan yatanlara
Əyilmə sən, əyilmə sən!

Nadanların ucuzca söz bazarına,
Nankorların quduzca öz bazarına,
Naşıların söz yığın, söz bazarına
Əyilmə sən, əyilmə sən!

Dövrümüzə səadət bəxş edənlərə,
Vətən üçün od-alova gedənlərə,
Şəhid olmuş, daşa dönmüş bədənlərə
Milyon dəfə əyil, bala!

Ünvanları bilinməyən əsgərlərin məzarına,
Sərt qeyrətli sərkərlərin məzarına,
Saya gəlməz mərd ərlərin məzarına,
Milyon dəfə əyil, bala!

Ataların qarşısında,
Anaların qarşısında,
Büllur kimi saf ürəyə
Yol üstündə buğda boyda bir çörəyə
Məhəbbətlə əyil, bala!

İşləməkdən ovucları qabarların qarşısında,
Günəş altda tər tökməkdən cadarların qarşısında,
Başı qarlı uca dağa,
İnsanlara təmənnasız həyat verən bu torpağa
Min yol əyil, əyil, bala!

## Umma

Namərddən mərhəmət, nankordən izzət
Bədəsil övladdan ar - qeyrət umma!
Xəsisdən səxavət, xəbisdən rəğbət
Hər dostdan, tanışdan bir hörmət umma!

Peşimanlıq çəkir yolunu azan,
Yaxşını çevirib yaman tək yozan...
Alın təri töküb haqqını qazan
Atadan - anadan mal - dövlət umma!

İlham bulağımdır həyat əzəldən,
Qəlbim ayrılarmı şeiri - qəzəldən...
Abırı, həyası kasad gözəldən
Nə həya, nə ismət, nəcabət umma!

Ömür varaqlanır, yaş ötür yaşdan
Gərək söz anlayaq göz ilə qaşdan...
Rəhmsiz, insafsız ürəyi daşdan
Sədaqət, mürüvvət, məhəbbət umma!

Bimələk, biqeyrət arsız insandan
Dostu ayaqlayıb yada yanandan...
Bir qarın çörəyə haqqı danandan
Mətanət, cəsarət, dəyanət umma!

Yurdun həsrətiylə yanar Fatma,
Dərdini dərdlidən danar Fatma
Doğma vətənindən kənar, Fatma
Heç yerdə şərafət, səadət umma!

## Neyləsin

Göylərə gərilsə qara buludlar,
Dağlara tökülən duman neyləsin?!
Qapqara gecənin ağ gündüzü var
Sinəsi sökülən ümman neyləsin...

Borana, tufana, dara düşəndə
Taleyin hökmünü görmüşəm mən də...
Tellər vəcdə gəlib könül didəndə
Həsrət çeşməsində kaman neyləsin?..

Büllur yağışmıdır gözündən yağan
Zərrin günəşmidir üzündə doğan...
Bir damla inamı öldürən, boğan
Şübhələr selinə güman neyləsin?..

Nadan sözü nə anladı, nə qandı,
Dərd çəkməzə səbir vermək asandı...
Zamanı da dəyişdirən insandı
Zaman o zamandı! Zaman neynəsin ?!.

## Mənim ilk müəllimim



**Mərziyyə EYYUBOVA,**
*Laçın rayonu Etibar Əliyev adına Fərəcan kənd tam orta məktəbinin ibtidai sinif müəllimi*

İlk məktəbə gələndə,
Sevinclə, həyəcanla,
Təlimi sığallayıb,
Sən tutmusan əlimdən,
Mənim ilk müəllimim.

Güləruz təbəssümlə,
Qarşılayıb bizləri,
Öz doğma balan kimi,
Qayğımızı çəkmisən.
Sinifdə davranmağı,
Oxumağı, yazmağı,
Əldə qələm tutmağı,
Bizə sən öyrətmisən,
Mənim ilk müəllimim!

Öyrənmişik sən ilə,
Mərhəməti, sayğını.
Vətən, Ana sevgisin,
Dosta, yada qayğını.
Şam kimi əritmisən,
Bizlər üçün ömrünü.
Kimsə bikef olanda,
Tez almısan könlünü,
Mənim ilk müəllimim!

Əgər bir gün keçirsək
İnsanlarla sorğunu,
Borcluyuq hər vaxt sənə,
Uğurların çoxunu!!!

## Hicran oyunu



**Rəhim FƏRZİLİ,**
*BDU-nun mexanika-riyaziyyat fakültəsi SABAH qruplarının riyaziyyat müəllimliyi ixtisası üzrə IV kurs tələbəsi*

İstədin həyatda bir rol oynayaq,
Dönüb ovçu oldun, mənsə ov oldum.
Bir toxunum deyə atdığın ayaq
Altında torpaq tək mən də ovuldum.

Mahir bir ovçuydun, gözlərin tələ,
Kipriyin altında boğuluram mən.
Gecələr şəklinlə ölmək az hələ,
Səhərlər fikrinlə doğuluram mən.

Bu kiçik səhnədə kiçik insanlar,
Gör, necə böyük rol ifa edirlər.
Amma ki, dinləyən, bizə baxanlar
Maraqsız - deyərək çıxıb gedirlər.

Sonuncu səhnə lap gözümün üstə-
Söylədin aramca, incə: "Unutdum".
Mənsə qayıdaraq sözünün üstə
Söylədim, mən səndən öncə unutdum.

De,biz bu rola niyə girmişik?
Özümüz ağladıq, kimlərsə güldü.
Səhnə oyununda vaxt itirmişik,
Axı, o pərdələr daha söküldü.

Yenə də birlikdə qala bilərdik,
Gözəl bitirərdik filmin sonunu.
Sonadək bir yerdə ola bilərdik,
Oynamasaydıq hicran oyununu.

Tale də, bax, yaman oynadı bizlə,
Bilmədik oynadıq, oyuncaq olduq.
Min cildə girdiyimiz həmin o üzlə
Sevirəm deyəndə utancaq olduq.

**Səhifəni hazırladı:** *Samirə KƏRİMOVA*

# Şair şagirdlərin qonağı oldu

**Mətanət SALMANOVA,**
*Bakıdakı 236 nömrəli tam orta məktəbin kitabxana müdiri*




Bakıdakı 236 nömrəli tam orta məktəbdə III "B" sinfinin müəllimi Nüşabə Ağamirzəyevanın və məktəb kitabxanası işçilərinin birgə təşkilatçılığı ilə Azərbaycan Uşaq ədəbiyyatının tanınmış nümayəndəsi, şair Zahid Xəlillə görüş keçirildi.

Görüşdə məktəbin direktoru, Əməkdar müəllim Xanlar İmaməliyev Uşaq ədəbiyyatının görkəmli nümayəndəsi, şair Zahid Xəlilin III sinif şagirdlərinin görüşünə gəlməsindən çox məmnun olduğunu bildirdi.

Şagirdlər Zahid Xəlilin uşaqlara həsr etdiyi şeirləri söylədi, mahnı oxudu və ədəbi-bədii kompozisiya nümayiş etdirdilər.

Tədbirdə iştirak edən "Azərbaycan müəllimi" qəzetinin əməkdaşı, filologiya üzrə fəlsəfə doktoru Şakir Cəfərov şairin bədii, elmi-pedaqoji yaradıcılığından söz açdı. Bildirdi ki, Zahid Xəlil tanınmış şair olmaqla bərabər, həm də filologiya üzrə elmlər doktoru, professordur. Hazırda o, Azərbaycan Dövlət Pedaqoji Universitetinin kafedra müdiridir.

Zahid Xəlilin ilk kitabı "Uçan çıraqlar" (1969) adlanır. Kiçik şeirlər və nağıllardan ibarət olan bu kitab o vaxt ədəbiyyatımıza maraqlı bir uşaq şairinin gəldiyini xəbər verirdi. İkinci kitabında müəllif klassik ədəbiyyatımızın ləyaqətli davamçılarından biri kimi diqqəti cəlb etdi və oxucuların hörmətini qazandı. "Göydən üç alma düşdü" (1974), "Torağaylar oxuyur"(1979), "Ballıca" (1980) və başqa kitabların müəllifidir.

Tədbirdə Zahid Xəlil uşaqlara həsr ediyi yeni şeirlərini söylədi və məktəbliləri maraqlandıran sualları cavablandırdı.

Sonda şair fidan balalarla şəkil çəkdirməyi də unutmadı.

## "AZƏRBAYCAN MÜƏLLİMİ"

**Qəzet 1934-cü ildən çıxır**

**Baş redaktor**
Nurəddin Heydərov 538-21-66

**Mühasibatlıq** 539-67-74
**Reklam və elanlar** 539-20-77 (tel./faks)

**Ünvan:** AZ-1100, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə 23 M, Mətbuat Evi, 5-ci mərtəbə

Qəzet "Azərbaycan müəllimi"nin kompüter mərkəzində yığılır və "Azərbaycan" nəşriyyatında çap olunur

Qəzet hər həftənin cümə günü çıxır

**Bank hesabımız**
Azərbaycan Beynəlxalq Bankı 5 saylı "Mətbuat şöbəsi"
Kodu: 805142 VÖEN: 9900001881
M/h: AZ 03 NABZ 01350100000000002944
S.W.I.F.T.: IBAZAZ 2X

"Azərbaycan müəllimi" qəzeti redaksiyası
Hesab № AZ80 IBAZ38060019443164986350
VÖEN: 1300397831

**Lisenziya** № 022327, **İndeks:** 0003, **Tiraj** 4588, **Sifariş** 3963

**Məsul növbətçi:** Ş.Cəfərov

# Yeni lüğət çapdan çıxıb

**Könül SƏMƏDOVA,**
*ADPU-nun filologiya fakültəsinin "Müasir Azərbaycan dili" kafedrasının dosenti, filologiya üzrə fəlsəfə doktoru*




Tarix səhnəsinə çıxdığı gündən dövrümüzə qədər onlarca dövlət qurmuş və önəmli hadisələrdə öndə olmuş türk millətinin zəngin bir tarixi keçmişə sahib olmasından daha dəyərli bir fakt yoxdur.

Türkcənin hər bir tarixi görümünü hər yönüylə incələməyə çalışmaq, istər tarixi, istər dil faktları, istərsə də maddi və mənəvi abidələrin, həmçinin kulinariyasının araşdırılması hər bir türk ziyalısı üçün vazkeçilməz bir xidmət, vətəndaşlıq borcu olmalıdır. Zəngin bir söz xəzinəsini özündə toplayan və türkcənin bütün dil qatlarında paralel şəkildə müxtəlif areallar formasında işlənən sözlərin ortaya çıxarılması, tədqiq edilməsi, ortaq türk dialektlərində işlənən yemək və içki adlarını tarixi-etimoloji aspektdən təhlil edib, Azərbaycan türkcəsinin söz varlığının tam anlamıyla ortaya çıxara bilmək üçün bu lüğət böyük əhəmiyyətə və əvəzsiz qiymətə malikdir.

Azərbaycan dilinin yemək və içki adlarının tarixi-etimoloji lüğətinə diqqət yetirəndə görürük ki, bu lüğət təkcə Azərbaycan dilinin yox, ortaq türkcədə olan yemək və içki adlarının tarixi-etimoloji təhlili əsasında hazırlanmışdır. Müəllif təvazökarlıqdan irəli gələrək lüğətin adında bunu vermir. Hər bir lüğətin yarandığı zaman, sözsüz ki, əskiksiz və qüsursuz ola bilməz. Türk dünyasına və türk dilinə böyük töhfə olan lüğətin Azərbaycan xalqının ermənilər tərəfindən oğurlanmış yemək və içki adlarının qorunması istiqamətində böyük əhəmiyyət kəsb etməsi danılmaz faktdır.

Müəllif bu lüğətdə 450-dən çox yemək və içki adını tarixi-etimoloji aspektdən izah etmiş və onların hazırlanma qaydalarını da, həmin leksik vahidlərin qədim abidələr və yazılı mənbələr əsasında türkdilli xalqlardakı izlərini müqayisə, qarşılaşdırma və tutuşdurma yolu ilə təhlilə belə cəlb etmişdir.

Gələcəkdə filoloji lüğətlərin yaradılması üçün mühüm bir baza rolunu oynayan bu lüğətdə, müəllif ənənəvi yolla getməmiş, uzun illər topladığı materiallar əsasında əski türkcənin fonetik, leksik, qrammatik bazasına və eyni zamanda türk xalqlarına məxsus qədim dil faktlarını üzə çıxarmış, innorasiyaları öyrənmiş, türk dili dialektlərinin qarşılıqlı əlaqəsinin bəzi tarixi məqamlarını araşdırmış, həmçinin qohum və qohum olmayan dillərin tarixi kontaktlarına aydınlıq gətirmişdir. Bu da lüğətin həm aktuallığını, həm də əhəmiyyətini artıran faktlardan biridir.

Müəllif lüğətdə, 1968-ci ildə tərtib edilmiş "Azərbaycan folklor antologiyası"nı, M.Şirəliyevin 1943-cü ildə nəşr etdirdiyi "Bakı dialekti" əsərini, həmçinin 2013-cü ildə nəşr olunan "Təbriz folklor örnəkləri"ni qeyd etmiş və özünün topladığı izahları daha da geniş şəkildə əsaslandıraraq ərsəyə gətirmişdir.

Müəllif lüğətdə yeri gəldikcə xörək və içki adlarının 90%-dən çoxunun türk mənşəli olduğu nəticəsinə gəlmişdir. Müəllif döymənc, aş, əzmə, hədik, dolma, soyutma, yarma və s. xörək adlarının əmələgəlmə üsullarına da geniş yer ayırmış, aydınlaşdırmışdır ki, semantik, morfoloji və sintaktik üsulla yaranmış xörək və içki adları dilimizdə və həmçinin ortaq türkcədə çoxluq təşkil edir.

Lüğəti əldə edib oxuyan oxucu üçün verilən yemək və içki adlarının nəinki Azərbaycan, o cümlədən türk dillərində və dialektlərində nə dərəcədə geniş işləndiyini görə bilər. Müəllif burada dilimizin alt qatlarında olan və ya passivləşən arxaik sözləri belə unutmamışdır.

Bu baxımdan lüğət olduqca aktual və əhəmiyyətli bir əsərdir. Lüğəti ərsəyə gətirən ADPU-nun filologiya fakültəsinin dekanı, filologiya elmləri doktoru, professor Mahirə Hüseynovaya belə bir xidmətinə görə təşəkkür edir, kitabın davamı olaraq ikinci cildinin hazırlanmasında uğurlar diləyirik.

# Etibarsız sayılır

**Azərbaycan Dövlət İqtisad Universiteti** tərəfindən 2017-ci ildə Abduyeva Gül Tafdıq qızına verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

**Abşeron rayon** Mehdiabad qəsəbə 1 nömrəli tam orta məktəbi 2011-ci ildə bitirmiş Səmədov Valeh Əvəz oğluna verilmiş A-035129 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Beyləqan şəhər** 5 nömrəli tam orta məktəbi 2001-ci ildə bitirmiş Allahverdiyev Elnur Mikayıl oğluna verilmiş 473799 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Beyləqan Peşə Məktəbi** tərəfindən 2008-ci ildə Allahverdiyev Elnur Mikayıl oğluna verilmiş BB-038450 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Texniki Universiteti** tərəfindən 2000-ci ildə Məmmədova Esmira Təvəkkül qızına verilmiş A-062353 nömrəli bakalavr diplomu itdyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 212 nömrəli tam orta məktəbi 2008-ci ildə bitirmiş Allahverdiyeva Maral İlyas qızına verilmiş B-490595 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Beynəlxalq Universiteti** tərəfindən 2003-cü ildə Qurbanov Xanmurad Kazım oğluna verilmiş A-127649 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Dövlət Pedaqoji Universiteti** tərəfindən 2017-ci ildə Ağacanova Nərmin Cavid qızına verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

**Bakı Dövlət Universiteti** tərəfindən 2010-cu ildə Aslanov Gündüz İsmayıl oğluna verilmiş A-195332 nömrəli bakalavr diplomu və əlavəsi itdiyi üçün etibarsız sayılır.

**M.Əzizbəyov adına Azərbaycan Neft və Kimya İnstitutu** tərəfindən 1984-cü ildə Şlyuger Qriqoriy Abramoviçə verilmiş MB-013510 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Kooperasiya Universiteti** tərəfindən 2012-ci ildə Axundov Rəşad Mətləb oğluna verilmiş BN-260566 nömrəli bakalavr diplomu itdiyi üçün etibarsız sayılır.

**ADNSU-nun nəzdində Bakı Neft və Energetika Kolleci** tərəfindən 2016-cı ildə Cəfərova Bahar Azər qızına verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Dövlət İqtisad Universiteti** nəzdində Azərbaycan Maliyyə İqtisad Kolleci tərəfindən 2017-ci ildə Məmmədova Aygün Elşən qızına verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Dövlət İqtisad Universiteti** nəzdində Azərbaycan Maliyyə İqtisad Kolleci tərəfindən 2018-ci ildə Talıbova Nərmin Elçin qızına verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Dövlət Aqrar Universiteti** tərəfindən 2018-ci ildə Məmmədrzayev Safaralı Güloğlan oğluna verilmiş C-014363 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Milli Aviasiya Akademiyası** tərəfindən 2016-cı ildə Abdullayev Xaqani Bəkulla oğluna verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyası** tərəfindən 2009-cu ildə Əliyev Rəşad Rəsul oğluna verilmiş MNB-007035 nömrəli magistr diplomu itdiyi üçün etibarsız sayılır.

**Ali Diplomatiya Kolleci** tərəfindən 2001-ci ildə Əsgərov Elnar Muxtar oğluna verilmiş A-077145 nömrəli bakalavr diplomu itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Dövlət Pedaqoji Universiteti** tərəfindən 2017-ci ildə Nəbizadə Zahidə Famil qızına verilmiş 2017\FZ 015 nömrəli tələbə bileti itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 216 nömrəli tam orta məktəbin IX sinfini 2013-cü ildə bitirmiş Əliyeva Xəyalə Yalçın qızına verilmiş AN-289137 nömrəli şəhadətnamə itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 226 nömrəli tam orta məktəbi 1994-cü ildə bitirmiş Qurbanova Hicran Əzizağa qızına verilmiş 114 nömrəli attestat əvəzi arayış itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Dövlət İqtisad Universiteti** nəzdində Azərbaycan Maliyyə İqtisad Kolleci tərəfindən 2017-ci ildə Kazımlı Nigar Çingiz qızına verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Dövlət İqtisad Universiteti** nəzdində Azərbaycan Maliyyə İqtisad Kolleci tərəfindən 2018-ci ildə Yolçuyeva Hüsniyyə Şahin qızına verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

**ADNSU-nun nəzdində Bakı Neft və Energetika Kolleci** tərəfindən 2018-ci ildə Əlizadə Polad Ceyhun oğluna verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

**Tovuz rayon** İbrahimhacılı kənd tam orta məktəbini 2001-ci ildə bitirmiş Məmmədov Nofəl Vəsil oğluna verilmiş A-569327 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Tovuz rayon** İbrahimhacılı kənd tam orta məktəbinin IX sinfini 2001-ci ildə bitirmiş Alırzayev Rəfail Vəsil oğluna verilmiş B-298621 nömrəli şəhadətnamə itdiyi üçün etibarsız sayılır.

**Tovuz rayon** Aşağı Ayıblı kənd 2 nömrəli tam orta məktəbi (indiki Əyyublu) 1991-ci ildə bitirmiş Mirzəyeva Aybəniz Məhərrəm qızına verilmiş A-187556 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Tovuz rayon** Bozalqanlı kənd tam orta məktəbin IX sinfini 2011-ci ildə bitirmiş Ələkbərov Elçin Tofiq oğluna verilmiş A-119520 nömrəli şəhadətnamə itdiyi üçün etibarsız sayılır.

**Tovuz şəhər** M.Ələkbərov adına tam orta məktəbi 2018-ci ildə bitirmiş İsmayılov Kənan Kamal oğluna verilmiş E-164183 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Tovuz rayon** Köhnəqala kənd tam orta məktəbini 2005-ci ildə bitirmiş Mehdiyev Əfqan Əfəndi oğluna verilmiş A-188727 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Tovuz rayon** E.Məmmədov adına şəhər tam orta məktəbi (əvvəlki Aşağı Öysüzlü kənd 2 nömrəli məktəb) 1989-cu ildə bitirmiş Cəfərov Cahandar Əkbər oğluna verilmiş C-609419 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Sumqayıt Dövlət Universiteti** tərəfindən 2009-cu ildə Yunusova Amiyə Adıgözəl qızına verilmiş B-152022 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbi** tərəfindən 2000-ci ildə Fərzəliyev Natiq Nurəddin oğluna verilmiş MN-0004181 nömrəli bakalavr diplomu itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Dövlət Pedaqoji Kolleci** (indiki ADPU-nun nəzdində Azərbaycan Dövlət Pedaqoji Kollec) tərəfindən 2012-ci ildə Orucova Aytən Muxtar qızına verilmiş AA-020392 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Bakı Dövlət Universiteti** tərəfindən 2016-cı ildə Abbaszadə Rəhman Abbas oğluna verilmiş A-103583 nömrəli bakalavr diplomu itdiyi üçün etibarsız sayılır.

**Sumqayıt şəhər** 35 nömrəli tam orta məktəbin IX sinfini 2017-ci ildə bitirmiş Bağırova Kəbirə Elçin qızına verilmiş C-079219 nömrəli şəhadətnamə itdiyi üçün etibarsız sayılır.

**Bakı Dövlət Universiteti** tərəfindən 2016-cı ildə Abbaszadə Rəhman Abbas oğluna verilmiş A-103583 nömrəli bakalavr diplomu və əlavəsi itdiyi üçün etibarsız sayılır.

**Şabran rayon** Ağbaş kənd tam orta məktəbin IX sinfini 1994-cü ildə bitirmiş Məcidova Raidə Şamxal qızına verilmiş 23 nömrəli şəhadətnamə əvəzi arayış itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Dövlət İqtisad Universiteti** tərəfindən 2014-cü ildə Məhərrəmov Arif Vasif oğluna verilmiş A-035704 nömrəli bakalavr diplomu və əlavəsi, 2017-ci ildə verilmiş AM-016045 nömrəli magistr diplomu və əlavəsi itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti** tərəfindən 1999-cu ildə Xələfov Sultan Zaur oğluna verilmiş A-038051 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Lənkəran şəhər** 4 nömrəli Humanitar Təmayüllü Məktəb-Liseyi 2013-cü ildə bitirmiş Cəfərzadə Aytel Siyavuş qızına verilmiş A-239739 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Dövlət Neft Akademiyası** (indiki ADNSU) tərəfindən 2010-cu ildə Quliyeva Könül Tofiq qızına verilmiş B-186048 nömrəli bakalavr diplomu və əlavəsi itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Dövlət İqtisad Universiteti** tərəfindən 2013-cü ildə Quliyeva Könül Tofiq qızına verilmiş MNB-033399 nömrəli magistr diplomu və əlavəsi itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 85 nömrəli tam orta məktəbin VIII sinfini 1988-ci ildə bitirmiş Belov Serqey Nikoloyeviçə verilmiş 401609 nömrəli şəhadətnamə itdiyi üçün etibarsız sayılır.

**Bakı Humanitar Kolleci** tıərəfindən (keçmiş Bakı Mədəni-Maarif Texnikumu) 2002-ci ildə İsmayılova Lamiyə Sabir qızına verilmiş AB-II-086215 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

## ALLAH RƏHMƏT ELƏSİN!

Bakı şəhər 102 nömrəli tam orta məktəbin direktoru və pedaqoji kollektivi Bakı Şəhəri üzrə Təhsil İdarəsinin müdir müavini Rəşad Tağıyevə atası

**ƏNVƏR TAĞIYEVİN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Bakı Dövlət Universiteti nəzdindəki "Gənc istedadlar" liseyinin kollektivi liseyin əməkdaşı Afət Rəhmanovaya atası

**RƏHİMBALA KƏRİMOĞLUNUN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

132-134 nömrəli təhsil kompleksinin kollektivi kompleksin veteran işçisi

**ZAHİD QULİYEVİN**

vəfatından kədərləndiyini bildirir və ailəsinə dərin hüznlə başsağlığı verir.

Azərbaycan Respublikasının Prezidenti yanında Bilik Fondu

Azərbaycan Respublikası Təhsil Nazirliyi “Azərbaycan müəllimi” qəzeti

# “ƏN YAXŞI YAZI”

MÜSABİQƏSİNİ ELAN EDİR

Ölkənin ümumi təhsil, ilk peşə-ixtisas və orta ixtisas təhsili müəssisələrində çalışan Azərbaycan dili və ədəbiyyat müəllimləri dövlət dilinin tədrisi ilə bağlı elmi-nəzəri və metodiki yazılarını təqdim etməklə müsabiqədə iştirak edə bilərlər.

Yazılar **01.12.2018**-ci il tarixindən **15.01.2019**-cu il tarixinədək **bfmuallim@gmail.com** elektron poçt ünvanına göndərilməlidir.

Təqdim olunan yazıları tanınmış pedaqoq, alim və təcrübəli müəllimlərdən ibarət münsiflər heyəti dəyərləndirəcək.

Qaliblər diplom və qiymətli hədiyyələrlə mükafatlandırılacaq.

**Müsabiqənin əsas şərtləri:**

1. Yazılar **Azərbaycan dilində, Times New Roman** şrifti ilə təqdim edilməli, həcmi **6 min** işarədən az, **9 mindən** çox olmamalıdır.
2. İştirakçılar təqdim olunan yazıların sonunda zəruri məlumatları (adı, soyadı, əlaqə telefonu, çalışdığı təhsil müəssisəsinin adını) qeyd etməlidirlər.
3. Hər iştirakçı müsabiqəyə bir orijinal yazı təqdim edə bilər.
4. Yazıların əvvəlində müsabiqə üçün hazırlandığı qeyd olunmalıdır.

**Əlaqə tel.:** (012) 539-11-91; (012) 539-10-12

# “Bir qış günü” adlı Yeni il şənliyi

⇦ Əvvəli səh.1

Rəşad ZİYADOV

Şagirdlər Şaxta babanın ətrafına toplaşıb onunla birlikdə şənləndilər, mahnı oxuyub, rəqs etdilər, tapmacalar söylədilər.

İnternat məktəbinin şagirdlərinə Təhsil Nazirliyi tərəfindən bayram hədiyyələri təqdim olundu.

İnternat məktəbinin direktoru Yaqut Museyibli “Azərbaycan müəllimi” qəzetinə açıqlamasında bildirdi ki, məktəbdə 175 nitqi qüsurlu şagird təhsil alır, onlardan 84 nəfəri müəssisədə gecələyir. Şagirdlər 17 sinif üzrə komplektləşdiriliblər. Müəssisədəki uşaqların təlim-tərbiyəsi ilə 62 nəfərdən ibarət pedaqoji heyət məşğul olur.

Məlumat verilib ki, E.Mirzəyev adına Sağlamlıq imkanları məhdud uşaqlar üçün 6 nömrəli Respublika xüsusi internat məktəbi (əvvəlki adı Nitqi qüsurlu uşaqlar üçün E.Mirzəyev adına xüsusi internat məktəbi) 1979-cu ildə 186 nəfər şagird kontingenti ilə fəaliyyətə başlayıb. 2005-2006-cı tədris ilindən internat məktəbi ümumi orta təhsili təmin edən təhsil müəssisəsi kimi fəaliyyət göstərir.

Qeyd edək ki, internat məktəbi Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevanın təşəbbüsü ilə əsaslı təmir olunub və müasir tələblərə cavab verən avadanlıqla təchiz edilib.





İnternat məktəbinin şagirdləri ümumi təhsil almaqla yanaşı, Azərbaycan dekorativ xalq tətbiqi sənətinin çox qədim və geniş yayılmış növlərindən biri olan xalçaçılıq sənətinə yiyələnirlər. Bununla yanaşı, internat məktəbində şahmat, dekorativ sənət, toxuculuq, təsviri incəsənət və bədii özfəaliyyət dərnəkləri fəaliyyət göstərir.

Təhsil Nazirliyi tərəfindən həyata keçirilən layihələrdə fəal iştirak edən məktəb 2016-2017-ci tədris ilindən “Sağlam təhsil-sağlam millət” layihəsinə cəlb edilib.

# “Böyük etimadı doğrultmalı idim”

## *Fidan Hüseynova:* “Dünya şöhrətli müğənni Laura Fabianla səhnəni bölüşdüm”



Sifai SƏFƏROVA

...Bəlkə də bu yazımı haqqında söhbət açacağım qeyri-adi istedad sahibinin - Fidan balamızın ecazkar səsinin təsiri altında qələmə alsaydım, bu, sadəcə bir məqalə deyil, şeir, romans, nə bilim yeni bir mahnı mətni, gözəl, hətta poema da alına bilərdi. Yəqin nə vaxtsa bir şairin, nasirin nəzm əsərlərinin, povest və romanlarının baş qəhrəmanı kimi də təqdim oluna bilər bu “qəhrəmanım”. İstedad da qəhrəmanlıq kimi daxili qüvvənin təzahürü nəticəsində özünü büruzə verir. O, sanki vulkan mənbəyi olur və məqamında püskürür. Hələ kiçik yaşlarında Avropanın ən izdihamlı konsert salonlarında dünya şöhrətli vokal ifaçıları ilə bərabər səhnə bölüşən bu yeniyetmə istedad sahibinin canlara məlhəm olan ecazkar səsinin vurğunu olmamaq mümkün deyil. Dünyaca məşhur olan artistlərin özlərinin məftun olduqları bu səsin sorağı artıq milyonlarla tamaşaçının və dinləyicinin sevgisini, məhəbbətini qazanıb. Onun Azərbaycan, rus və ingilis dillərində məharətlə təqdim etdiyi mahnılar musiqi bilicilərinin, bəstəkar və tənqidçilərin, vokal ustalarının müzakirə mövzusuna çevrilib. Artıq haqqında yeniyetmə bir ifaçı kimi deyil, səhnədə sözünü deyən, özünü təsdiq edən bir ifaçı kimi danışılır. Böyük məmnuniyyətlə bu kiçik yazımın baş “qəhrəmanını” sizə də təqdim edirəm və həmsöhbət olmaqdan doymaq mümkün olmayan Fidan balamızın özü haqda və yaradıcılıq uğurları barədə söylədiklərini qələmə aldım.

### 5 yaşımdan şahmatla məşğul oluram

Mən 2005-ci ildə Moskva şəhərində anadan olmuşam. “Baku Oxford School”da təhsil alıram. Fransız və ispan dillərini öyrənirəm. Orta təhsilimlə yanaşı paytaxtdakı Tofiq Quliyev adına 12 nömrəli musiqi məktəbində vokal ixtisasına yiyələnirəm. Həmçinin 5 yaşımdan şahmatla da məşğul oluram. Artıq bir çox şahmat turnirlərinin iştirakçısı olmuşam və diplomlar qazanmışam. 4 yaşımdan isə rəsm çəkməklə də məşğul oluram və əl işlərim “Azərbaycanın uşaq təsviri sənəti” jurnalında dərc olunub.

### “Je suis Malade” mahnısını ifa etdim

YARAT Müasir İncəsənət Mərkəzinin Yay Qalereyasının təşkil etdiyi avstriyalı rəssam Dejan Kaludjerovicin sərgisində iştirak etdim və orada fransız dilində “Je suis Malade” mahnısını ifa etdim. Həmin mahnını 2014-cü ildə Bakıya öz möhtəşəm konsert proqramı ilə təşrif buyuran dünya şöhrətli müğənni Lara Fabian ilə də bir səhnədə bölüşdük. 2015-ci ildə isə Lara Fabianın İstanbuldakı konsertində də müğənni ilə birgə “Je t'aime” mahnısını səsləndirdim və tamaşaçıların alqışlarını qazandım.

### “Biz uşaqlara müharibə verməyin”

Azərbaycan Respublikasının Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi tərəfindən 2015-ci ildə keçirilən “İstedadlı uşaqlar festivalında” iştirak etdim və uğurlu çıxışıma görə diplomla mükafatlandırıldım. Həmin il “Saf rənglər” adlı I Beynəlxalq Uşaq Yaradıcılıq Festivalına da qatıldım və diploma layiq görüldüm. Bakıda 2016-cı il 25-27 aprel tarixlərində Heydər Əliyev Mərkəzində keçirilən BMT Sivilizasiyalar Alyansının VII Qlobal Forumundan sonrakı konsertdə Xalq artisti Teymur Göyçayevin rəhbərliyi və Uşaq Kamera Orkestri solistlərinin müşayiəti ilə “Tell me Why” mahnısını ifa etdim və mahnım bitdikdən sonra zaldakı tamaşaçılara müraciətlə “Biz uşaqlara müharibə verməyin” deyə səsləndim. Bu sözlərimlə tamaşaçılarda xoş ovqat yaratdım.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev cənablarının 6 oktyabr 2016-cı il tarixli sərəncamı ilə musiqi sahəsində xüsusi istedadı olan şəxs kimi adım Azərbaycanın gənc istedadlarının “Qızıl kitabı”na daxil edilib və xüsusi aylıq təqaüdə layiq görüldüm.

### Yaradıcılıq hesabatlarımdan biri

2016-cı ildə Heydər Əliyev adına Sarayda keçirilən “ZİMA” Uşaq Estrada musiqi festivalında iştirak etdim. Festival çox maraqlı keçdi. Oxuduğum mahnılara görə qazandığım alqışlar ruhuma rahatlıq bəxş edirdi. İtaliyada keçirilən “Sanremo Junior 2018” festivalına qatıldım və III yerə layiq görüldüm. Bu, mənim bəlkə də ən məsuliyyətli yaradıcılıq hesabatlarımdan biri idi.

### Vokal üzrə I yer

2017-ci ilin martında İtaliyanın “TESTENE ART BAKU” Beynəlxalq İncəsənət Festivalı Müsabiqəsində iştirak edib, 9-12 yaşlı uşaqlar arasında vokal üzrə I yerin sahibi oldum. 2018-ci ilin yanvarında Vyanadakı Azərbaycan Mədəniyyət Mərkəzində “Mahnılarla körpü yaradaq” adlı konsert proqramı təqdim etdim. Konsertdə çoxlu tanınmış musiqiçilər, sənət adamları və musiqisevərlər var idi. Təqdim etdiyim hər mahnı yüksək alqışlarla qarşılanırdı və bir ifaçı olaraq bu, mənə ruh yüksəkliyi bəxş edirdi.

### Klipin təqdimatı uğurlu keçdi

2018-ci ilin fevralında müğənni Elnur Hüseynovla birlikdə “Say Hallelujah” mahnısını birgə ifa etdik və həmin mahnıya klip çəkdirdik. Klipin təqdimatı Flame Towersda uğurla baş tutdu və bütün iştirakçıların marağına səbəb oldu. Tanınan, sevilən müğənnilərlə bir səhnəni bölüşmək, onlarla bir klipdə çəkilmək sevinclə bərabər məsuliyyəti də artırır. Kim bilir, bəlkə də mənim inkişafıma belə tarixçələr daha çox təkan verir.

### Hədəfim qalib olmaq idi

2018-ci il sentyabrın 18-də İctimai Televiziya və Radio Yayımları Qrupunda iclas keçirildi və həmin iclasda Azərbaycanı Uşaq Avroviziya Mahnı Müsabiqəsində təmsil edəcəyim açıqlandı. Bu mötəbər yarışda Azərbaycanı təmsil etməli olduğumu biləndə çox həyəcanlandım. Axı, necə olmasa bu, nə sıradan bir konsert olacaq, nə də ki, bir festival, bu, mənə görə olduqca çətin və məsuliyyətli musiqi yarışması olacaq və bu yarışmada yalnız güclülərin güclüsü qalib ola bilər. Bu məsuliyyəti mən dərindən dərk edirdim. Ancaq bununla bərabər açığını deyim ki, sevinirdim də. Çünki bu, mənə yönələn böyük etimad idi və mən onu doğrultmalı idim. Bacardığım qədər doğrultdum da. Bir aydan sonra Avroviziya səhnəsində ifa edəcəyim “I Wanna Be Like You” (Sənin kimi olmaq istəyirəm) mahnısının təqdimatı baş tutdu. Mahnının müəllifləri İsa Məlikov və Aytən İsmixanova, klipun yaradıcı heyəti isə Alexey Krupina və Maxim Tsurkov idilər. Müsabiqənin qaydalarına əsasən ifa olunacaq mahnının geniş hissəsi ifaçının doğma dilində olmalı idi. Buna görə də “I Wanna Be Like You” mahnısının 60 faizi Azərbaycan, 40 faizi isə ingilis dillərindədir. Nəhayət, 2018-ci ilin noyabrında Azərbaycanı “I Wanna Be Like You”( Sənin kimi olmaq istəyirəm) ifam ilə Belarusun Minsk şəhərində keçirilən “Junior Eurovision” mahnı yarışmasında təmsil etdim və 47 xalla 16-cı yeri tutdum. Özümü çox xoşbəxt sayıram.

### Qızıl medala sahib oldum

2018-ci ilin dekabrında “4th Science Fair” 4-cü Elm Sərgisində Baku Oxford Məktəbini təmsil etdim və yarışın qalibi olaraq qızıl medala sahib oldum. Həmçinin bir çox dövlət tədbirlərində fəal iştirakıma görə dəfələrlə fəxri fərmanlara və diplomlara layiq görülmüşəm.

*... Hə, dəyərli oxucular, əminik ki, 13 yaşlı istedadlı bir məktəbli qızın yaradıcılıq tarixçəsi və bu çətin yolda- vokal ifaçılığı sahəsində qazandığı uğurlar sizi də hədsiz sevindirdi. Çox vaxt istedadı bəxt ulduzu adlandırırlar, kimin taleyinə qondu, qondu deyirlər. Biz də həmin fikirlə razılaşırıq bir şərtlə ki, o ulduzu daim parlaq, uzunömürlü etmək üçün Fidan balamız kimi öz üzərində çalışmaqdan bezməyəsən.*